

## NİŞANƏLƏRLƏ ALLAHI TANIMA



*Ayətullah İbrahim Əmini 1926-cı ildə İİR-ın Nəcəfabad şəhərində dünyaya göz açmışdır. İbtidai təhsilini bitirdikdən sonra 1943-cü ildə İsfahan Elm Hövzəsinə daxil olur. Ərəb dilçiliyi və orta səviyyəli fiqh və üsul elmlərinin müəyyən qədərini orada başa çatdırır. Daha sonra Qum Elm Hövzəsində təhsilini davam etdirir. O dövrün tanınmış müəllimləri yanında orta səviyyəli elmlərin təkmilləşdirilməsilə yanaşı Ayətullah Bürucerdi, Ayətullah Musəvi Xomeyni, Ayətullah Qulpayqani və Mühəqqiq Damad kimi görkəmli şəxslərin yanında fiqh və üsul elmlərinin xaric dərslərini öyrənir, Əllamə Təbatəbainin (Təbrizi) hüzurunda isə fəlsəfə dərsindən bəhrələnir. O, fiqh, üsul və fəlsəfə elmlərinin tədrisindən əlavə 1964-cü ildən dinimizin müxtəlif sahələrinə dair çoxsaylı dəyərli əsərlər yazmaqla məşğuldur. Onlardan bir neçəsinin adını qeyd edirik: "Bütün müsəlmanlar bilməlidirlər", "Səmavi dinlərdə vəhy", "Evlilik", "İslamda tərbiyə üsulları", "Qadının hüquq və vəzifələri ilə tanışlıq", "Peyğəmbərlik və İslam Peyğəmbəri (s)", "İslamla tanışlıq", "Quranda məad", "İmamət" və s. Ayətullah Əmininin əsərləri bir çox dillərə tərcümə edilərək yayılmışdır.*

Sübh Yaxınlaşır

*"Zühuru haqda ümidsizliyin son həddinə gəlib çıxdığınız zaman, günəş kimi parlayacaq".*

*İmam Sadiq (ə)*

www.sonumid.com
sonumid@sonumid.com

AYƏTULLAH İBRAHİM ƏMİNİ

NİŞANƏLƏRLƏ ALLAHI TANIMA

14

Parlayan Günəş

NİŞANƏLƏRLƏ

# ALLAHI TANIMA



AYƏTULLAH İBRAHİM ƏMİNİ

14

خداشناسی - ترجمه ترکی استانبولی

NİŞANƏLƏRLƏ

# ALLAHI TANIMA

**Ayətullah İbrahim Əmini**

Tərcümə edən:
Nəriman Məmmədov

Bakı-2010

**Kitabın adı:**
"Allahı tanıma" (160 səh.)

**Orijinal adı:**
"Xodaşenasi"

**Müəllif:**
Ayətullah İbrahim Əmini

**Tərcümə edən:**
Nəriman Məmmədov *(ilahiyyatçı)*

**Redaktor:**
Nürəddin Əliyev *(ilahiyyatçı)*

**Korrektorlar:**
T. Şahmərdanlı, İsmayıl Süleymanlı

**Cildi işləyən:**
Naib Allahverdiyev *(ilahiyyatçı, rəssam)*

**Texniki redaktor və dizayner:**
Nurman M. Şahmərdanlı

***Kitabda əsas etibarı ilə müqəddəs dinimizin əsaslarından (üsuliddin) birincisi olan "Tövhid" bölməsindən bəhs olunur. Kitabda Allahın varlığı müxtəlif yollarla, xüsusən də yaranışda olan nizam-intizam və xariqələrlə sübut olunur. Allahın varlığına tam yəqinlik gətirildikdən sonra isə Allahın sifət və xüsusiyyətlərindən söz açılaraq uca Allah tanıtdırılır.***

***Kitab orta səviyyə üçün nəzərdə tutulduğundan tövhid mövzusuna xas olan ağır fəlsəfi bəhslərdən istifadə olunmamışdır. Buna görə xüsusən gənclər üçün faydalıdır. Buna baxmayaraq, ümum oxucu kütləsi üçün də gərəklidir.***

Tiraj: 2000 ədəd/ Çap növbəsi: Birinci.

✓ *DQİDK-nin 21.10.09 tarixli* DK-318/A *saylı məktubuna əsasən nəşrinə razılıq verilmişdir.*

**© PG-ÇAP HÜQUQU QORUNUR**

بسم الله الرحمن الرحيم

*Həmd Allaha ki, öyənlər Onu layiqincə öyə bilməz, verdiyi nemətləri saymaq istəyənlər sayıb qurtara bilməz. Çalışıb-əlləşməklə Onun haqqını qaytarmaq olmaz. Elə bir məbuddur ki, dərin düşüncəlilər belə Onu dərk etməkdə acizdir. Əql və fikir dəryasına dalanlar Onun zatının əslinə vara bilməz. Elə bir hüdud yoxdur ki, sifətlərini əhatə edə bilsin. Bir tərif yaradılmayıb ki, zatına layiq olsun. Onun üçün məhdud bir an yoxdur. Onun nəzərindən kənarda zaman da yoxdur.*

*Yaradılanları qüdrəti ilə O yaratmış. Yelləri öz rəhməti ilə O əsdirmiş. Yaratdığı yer üzünü qayalarla O möhkəmləndirmiş...*

*Hz. Əli (ə), "Nəhcül-Bəlağə"dən*



Bismillahir
Rəhmanir
Rəhim

## Ön söz

İnsan ömrünü dörd mərhələyə bölmək olar: uşaqlıq, gənclik, orta yaş dövrü və qocalıq. Bunların arasında gənclik çağı ən həssas və ən dəyərli dövrdür. Çünki uşaq fiziki və psixoloji cəhətdən tam şəkildə inkişaf etmədiyi üçün hər hansı bir məsuliyyəti qəbul etməyə qadir deyildir və buna görə də onun tərbiyəsi və işlərinin idarə olunması ata-ananın öhdəsinə qoyulmuşdur. Qocalıq çağı da zəiflik, gücsüzlük və ehtiyac dövrüdür; ya gənclik çağında yığdıqlarından istifadə etməli, yaxud da öz ehtiyaclarını təmin etmək üçün övladlarının və ya xeyriyyə cəmiyyətlərinin yardımına möhtac olmalıdır. İnsan orta yaşlarda iş görmə, çalışma, həyatının gündəlik xərclərini təmin etmə və qocalıq dövrünün ehtiyaclarını proqnozlaşdırma qüdrətinə malik olmasına baxmayaraq, bu işə nail olmaq, onun öz gənclik dövründən düzgün istifadəsinə bağlıdır. Buna görə də insan ömrünün ən həssas və ən dəyərli çağı gənclik dövrüdür. Gəncin fiziki inkişafı, bədənin gücü və düşüncə qüvvəsi elə bir həddə çatır ki, uzaqgörənlik, səy və çalışqanlıqla indiki və gələcək məsuliyyətini qəbul etməyi, özünü gələcək həyat, layiqli və vəzifələrini bilən bir vətəndaş

olmaq üçün hazırlamağı bacarır. Gənclərin xüsusiyyətləri qısaca olaraq aşağıdakılardan ibarətdir:

Bədənin sağlamlığı, fiziki güc, yüksək əhval-ruhiyyə, aktivlik, güclü yaddaş və zəka, asudə vaxt, psixoloji rahatlıq, yüksək səy, uzun arzular, yaradıcılıq bacarığı, sədaqət və xeyirxahlıq, mənəvi saflıq və paklıq. Əlbəttə, bütün gənclər sadalanan dəyərlərə malik olmaq baxımından bərabər deyillər, əksinə, onlar arasında fərqliliklər vardır. Amma hər kəs öz gənclik çağında başqa dövrlərə nisbətən daha çox bu nemətlərdən bəhrələnir. Mehriban Allah gənclik nemətini və bütün bu nemətləri vermişdir ki, yüksək səy, uzaqgörənlik və çalışqanlıqla öz səadəti üçün çalışsın. Əgər o bu mühüm vəzifəni yerinə yetirməkdə səhlənkarlıq edib öz dəyərli ömrünü qəflətdə və mənasız şəkildə keçirsə və sonradan peşman olsa, o zaman peşmanlıq fayda verməz.

Əmirəlmöminin (ə) buyurub: "İki şey vardır ki, insan itirəndən sonra onların qədrini bilər: gənclik və sağlamlıq". Həzrət Peyğəmbər (s) buyurub: "Qiyamətdə insandan soruşulan ilk sual bu olacaqdır: ömrünü harada keçirdin və gəncliyini necə başa vurdun?" Peyğəmbər (s) Əbuzərə buyurub: "Beş şeyi beş şeydən əvvəl qənimət bil: qocalıqdan əvvəl cavanlığı, xəstəlikdən əvvəl sağlamlığı, yoxsulluqdan əvvəl sərvəti, müharibədən əvvəl əmin-amanlığı və ölümdən öncə həyatı". Gənclər öz gəncliklərinin qədrini bilməli və ondan maksimum istifadə etməlidirlər. Əks təqdirdə, ağır və sağalmaz zərbələrə məruz qalacaqlar, o zaman artıq peşmanlıq fayda verməz. Gənclərin üzərində bu məsələ ilə bağlı olaraq üç mühüm və həlledici məsuliyyət vardır ki, qısa şəkildə onlara işarə edirik:

1) Gigiyena qaydalarına tam şəkildə riayət etmək, bədənin sağlamlığını, fiziki və psixoloji qüvvələri qorumaq. Sağlamlıq yaşayışın ən qiymətli sərmayəsi və Allahın ən böyük nemət-

lərindən biridir. Sağlamlığı itirmək ən böyük ziyanla nəticələnir; rahatlığı və ləzzəti insandan alır, onu böyük hədəflərə çatmaq üçün çalışmaqdan və fəaliyyətdən saxlayır. İmam Sadiq (ə) buyurub: "Beş şey vardır ki, onlardan hər hansı birini itirən şəxsin yaşayışı nöqsanlı olar, ağlını itirər və qəlbi məşğul olar. Onların birincisi bədənin sağlamlığıdır".

Həzrət Peyğəmbər (s) buyurub: "İki nemət vardır ki, insanlar onların qədrini bilməzlər: asayiş və sağlamlıq". Əmirəlmöminin (ə) buyurub: "Yoxsulluq bəlalardan biridir, yoxsulluqdan daha çətin bədənin xəstəliyi, ondan da çətin qəlbin xəstəliyidir".

Gənclərə ciddi şəkildə tövsiyə olunur: gigiyena qaydalarına riayət etməyə çalışın, qidalanmada başlıca olaraq bədənin ehtiyaclarını təmin etməyi fikirləşin, çox yeməkdən çəkinin, narkotik maddələrin istifadəsindən ciddi şəkildə çəkinin. Lazımi miqdarda yeyin, idmanı unutmayın. Şorgözlülükdən və cinsi pozğunluqdan qəti şəkildə uzaq olun ki, bədəninizə, ruhunuza və əsəblərinizə ağır zərbələr vura bilər.

2) Gələcək həyat üçün qərarlar və planlar. Hər bir insan öz ehtiyaclarını təmin etmək, alnı açıq, üzü ağ yaşamaq və başqalarına kömək etmək üçün müəyyən bir peşə seçməli və gənclik çağından öz gələcək peşəsi haqqında planlar fikirləşməlidir. Gənclər cəmiyyətə daxil olmaq üçün iki yoldan birini seçə bilər. Birinci yol müxtəlif çeşidli azad peşələrdən birini seçməkdir. Onlardan bəzisi üçün müəyyən qədər məharət və təcrübə toplamaq lazım olsa da, universitetə girib təhsili davam etdirməyə, ömrün ən gözəl günlərini sərf etməyə və çoxlu xərc çəkməyə ehtiyac olmur. İkinci yol isə universitetə daxil olub təhsili davam etdirmək, lazımi diplomu aldıqdan sonra müəyyən bir idarədə, yaxud elmi-texniki sahədə bir işlə məşğul olmaqdır. Əlbəttə, münasib bir iş tapa bilsə. Nə yaxşı olardı ki, gənc, yaşayışının əvvəlindən yuxarıda qeyd

olunan yollardan birini seçmək barəsində fikirləşsin, cismi qabiliyyətlərini, zəkasını, yaddaşını, ailədəki imkanlarını, diplom aldıqdan sonrakı həyatını nəzərdə tutsun, başqaları ilə məsləhətləşməklə və uzaqgörənliklə bu iki yoldan birini seçsin.

3) Dini etiqadlar barəsində axtarış aparmaq. Uşaqlıq dövrünü dindar ailədə keçirən bir gənc, şübhəsiz ki, o mühitdə bir sıra əqidələrə yiyələnmişdir. Həmçinin məktəbdən və yaşadığı ictimai mühitdən də bir sıra məsələlər öyrənmişdir. Artıq yetkinlik və gənclik çağına qədəm qoyan zaman, adətən, öz uşaqlıq dövründə öyrəndiyi əqidələr və fikirlər haqqında axtarış aparıb onlara yenidən nəzər salmaq və onların doğru olub olmadığını öyrənmək istəyir. Gənc bu dövrdə bir sıra suallarla qarşılaşır: Haradan gəlmişəm? Kim məni yaratmışdır? Yaranmağımın hədəfi nə olub və nə məqsədlə yaranmışam? Görəsən, yaradanımın qarşısında müəyyən bir vəzifəm vardırmı, yoxsa azadam və heç bir vəzifəm yoxdur? Əgər vəzifəm varsa, nədən ibarətdir? Öz vəzifəmi kimdən öyrənməliyəm? Vəzifəmi öyrənəcəyim şəxsdə hansı şərtlər və xüsusiyyətlər olmalıdır? Haraya gedirəm və ölümdən sonra aqibətim necə olacaq? Görəsən, ölümdən sonra bu dünyadakı rəftarlarım, danışıqlarım və əxlaqım barəsində cavab verməli olacağammı? Əgər ölümdən sonrakı aləmdə səadət, bədbəxtlik, mükafat və cəza varsa, səadətə çatmağın və bədbəxtlikdən yaxa qurtarmağın yolu nədir? Onlarla bu kimi suallar gəncin saf və nurani zehninə daxil olur və israrla cavab tələb edir.

Bu suallara düzgün və qaneedici cavab tapmaq həlledici əhəmiyyətə malikdir. Çünki həmin cavablar həm gəncliyin, həm də ondan sonrakı dövrün həyat proqramını yaradır və gənc o cavablara inamla tabe olaraq dünya və Axirət səadətinin yolunu tapır və qəlb rahatlığı ilə o yolla hərəkət edir.

Amma əgər bu suallara düzgün cavab tapmaqda səhlənkarlıq edərsə, çoxlu ciddi və aradan qaldırıla bilməyən təhlükələrlə üzləşəcək və yaşayışının son anlarında, yaxud da ölümdən sonra peşman olacaqdır. O zamankı peşmanlıq isə fayda verməz.

Buna görə də gənclər üçün etiqadi məsələlərdə araşdırma aparıb düzgün və qaneedici cavablar tapmaq hər bir işdən daha zəruridir; xüsusilə dini etiqadların, hətta şəriət hökmlərinin İslamın düşmənləri tərəfindən inkişaf etmiş informasiya vasitələri ilə hücuma məruz qaldığı və hər tərəfdən iradlar olunduğu bir zamanda.

Gənclərin bu araşdırmalarda düşünülmüş yolgöstərmələrə və etimad olunası mənbələrə eyticları vardır ki, çox qədimdən onlardan ən mühümü kitab olmuşdur. Xoşbəxtlikdən İslam alimləri tövhid, ümumi və xüsusi nübuvvət, məad, şəriət hökmləri və onların fəlsəfəsi, imamət və s. mövzularda çox gözəl və dəqiq kitablar yazmışlar. Amma onların əksəriyyəti gənclər üçün çətin, bəzən də dərk olunacaq səviyyədə deyildir. Çünki bəziləri ərəbcə, bəziləri də fəlsəfi və kəlamidir. Bəziləri çox geniş şəkildə yazılmışdır ki, gənclərin onları oxumağa vaxtı yoxdur, bəzilərinin də mətləbləri zəif, naqisdir və gənclərin zehnini təşvişə salır. Bu çətinliyin həll olunması üçün əqidə və etiqadi məsələlər barəsində orta səviyyədə gənclərin vaxtı ilə münasib olan və onlar üçün dərk olunan silsilə kitablar yazmağı qərara aldım. Bu kitablar bir neçə cilddə və müxtəlif mövzularda qələmə alınmışdır: 1-ci cild "Tövhid", 2-ci cild "Məad", 3-cü cild "Peyğəmbərlik və İslam peyğəmbəri", 4-cü cild "İslamla tanışlıq", 5-ci cild "Qadınların hüquqları və vəzifələri ilə tanışlıq", 6-cı cild "İmamət və İmamlar". Qeyd olunan kitabları yazarkən bu məsələlərə riayət olunmuşdur: qısa, konkret və dəlil əsasında yazmaq, ayə və hədislərdən istifadə etmək, çətin fəlsəfi və kəlami dəlillər-

dən, eləcə də qeyri-zəruri, yaxud zəif, əsassız və şübhə yaradan mətləblərdən çəkinmək.

Ümid edirik ki, qeyd olunan kitablar əziz gənclərimizin dini etiqadlarının möhkəmlənməsində faydalı və təsirli olacaq.

* * *

## *Dini və materialist dünyagörüşləri və hər birinin doğurduğu nəticələr*

Mən kiməm, haradan gəlmişəm? Görəsən, bu dünyaya öz-özünəmi gəlmişəm və öz-özünə də gedəcəyəm? Yoxsa başqa birisi məni buraya gətirmiş və elə o da məni aparacaq? Görəsən, aqibətim necə olacaq və haraya gedəcəyəm? Yoxsa ölüm mənim sonum deməkdir? Ölümdən sonra həyatımı davam etdirə biləcəyim başqa bir aləm varmı? Bu əzəmətli aləm öz-özünəmi yaranmış, yoxsa təsadüf nəticəsində vücuda gəlmiş və ya başqa birisi bu əzəmətli aləmi yaratmışdır?

Bu kimi suallar hər bir ağıllı insanı, xüsusilə gənclik və yetkinlik çağında olan hər bir kəsi maraqlandırır. Hər kəs bu suallar üçün həqiqət axtarışında olan ruhunu qane edə biləcək bir şəkildə doğru-düzgün cavab tapmağa çalışır.

Möminlər və kafirlər yuxarıda sadalanan suallara öz əqidələrinə uyğun olaraq cavab vermişlər ki, həmin cavabları burada qeyd edirik.

### Aləm möminlərin baxışında

Möminlərin fikrincə, aləm bütöv, nizamlı və harmoniyalı bir məcmudur ki, öz-özünə vücuda gəlməmiş, əksinə, elm, qüdrət və hikmət sahibi olan biri onu yaradıb idarə edir.

Aləm böyük, əzəmətli Allahın iradəsindən qaynaqlanan bir sıra dəqiq qanunlar və nizam əsasında qorunur və idarə olunur. Əgər ilahi kömək və lütf olmasaydı, bu gördüyümüz əzəmətdən əsər-əlamət qalmazdı. Möminlərin əqidəsinə görə, heç bir şey məqsədsiz xəlq olunmamış və bütün varlıqlar Allahın hikmətli iradəsindən vücuda gəlmişdir. Bizim üçün sadə və əhəmiyyətsiz, yaxud xoşagəlməz görünən hər hansı bir şey əslində müəyyən bir hədəfi izləməkdədir.

Möminlərin nəzərində aləmin bütün varlıqları öz yaranışında və varlığını davam etdirməsində aləmlərin yaradıcısına ehtiyaclıdırlar. Əgər Allahın lütfü olmasaydı, heç bir mövcud yaranmazdı və əgər Onun qayğısı olmasaydı, heç bir varlıq qalmazdı. Buna əsasən, mömin var olan hər bir məxluqu ulu Tanrının lütf, qüdrət və əzəmətinin nişanəsi bilir.

**Yaşayışın sonu**

Möminlərin baxışında ölüm yoxluq, məhv olma və yaşayışının sonu yox, əbədi Axirətə köçmək və yeni bir həyatının başlanğıcıdır. Möminlərin əqidəsinə görə, bu aləmdəki yaşayış puç və hədəfsiz deyil, əksinə, Axirət üçün ruhu tərbiyələndirmək və səfər azuqəsini əldə etmək üçün hazırlıq mərhələsidir. Mömin insan inanır ki, yaxşı əməl sahibi olan insanlar pis əməl sahibi olan insanlarla bərabər ola bilməzlər. Hər iki dəstə öz əməllərinin qarşılığını, şübhəsiz olaraq, görəcəkdir. Uca Allah yaxşı əməl sahiblərinə Axirət aləmində yaxşı əməllərinin mükafatını verəcəkdir. Onlar o gözəl, əbədi sarayda xoşbəxtlik və rahatlıq içində yaşayacaqlar. Pis əməl sahibləri də öz pis əməllərinin cəzasını dadacaqlar. Onları Axirət aləmində çətin bir yaşayış gözləməkdədir.

Mömin öz gələcək səadətinin yaxşı rəftarlar, gözəl sözlər və gözəl əxlaq sayəsində əldə olunacağını fikirləşir. Həmişə

öz Axirət səadətinə şərait hazırlamağa və pislikdən çəkinməyə çalışır.

**Aləmin yaradıcısı**

Mömin Allahın varlığına inanır və Onu bütün aləmlərin yaradıcısı, sahibi və idarə edəni bilir. Mömin bu əqidəyə malikdir ki, "Allah" adlı üstün, böyük və əzəmətli bir varlıq bu aləmi yaradıb idarə edir. Onu alim, qüdrətli, mehriban, həmişə yaşayan və əbədi bilir. Mömin insan Allahı bütün xeyirlərin, yaxşılıqların və kamillik sifətlərinin mənbəyi bilir. Allahı aləmdə olan bütün varlıqların ehtiyaclı olduqları tək, zəngin və ehtiyacsız varlıq bilir. Aləmləri, yeri və göyü qoruyan Odur. Əgər bir an olsun belə Öz səxavətini kəssə, hər bir şey məhv olar. O, hər bir şeyin, hər bir kəsin yanında və hər yerdə hazırdır. Heç bir şey və heç bir kəs Ona bənzəməz.

**Peyğəmbərlər**

Mömin insanın əqidəsinə görə, peyğəmbərlər (ə) insanları kamilliyə aparan yolu göstərmək üçün seçilən pak və kamil insanlardır. Çünki hikmət sahibi olan Allah insanları cəhalət və çaşqınlıq içərisində buraxmamış, onlar üçün məsum peyğəmbərlər (ə) yollayaraq fərdi, ictimai, siyasi, maddi, mənəvi, dünya və Axirət yaşayışı üçün lazım olan proqramları onların ixtiyarında qoymuşdur ki, insanlara yol göstərib hidayət etsinlər.

**Həyatın əvvəli və sonu**

- Haradan gəlmisən?

- Mehriban, qüdrətli olan Allah öz lütf və mərhəməti ilə bizi ən gözəl şəkildə yaratmışdır.

- Haradasan?

- Hikmət sahibi olan Allahın yaradıb idarə etdiyi keçici və

dəyişkən bir aləmdəyəm. Bu aləmdə yaşamağımın hədəfi ilahi peyğəmbərlərin və onların canişinlərinin rəhbərliyi ilə özümü tərbiyələndirib əxlaqi, insani fəzilətlər əldə etmək və özümü əbədi Axirət həyatı və hədsiz-hüdudsuz olan Axirət nemətləri üçün hazırlamaqdır.

- Haraya gedirsən?

- Daimi və əbədi olan Axirət aləminə tərəf gedirəm. Orada bütün əməllərimin mükafatını və cəzasını görəcəyəm. Ölüm yaşayışın sonu demək deyil, əksinə, dünya həyatından köçmək və başqa bir yeni həyatın başlanğıcı deməkdir.

**Aləm kafirlərin baxışında**

Mən kiməm? Vəzifəm nədən ibarətdir? Haradan gəlmişəm və kim məni yaradıb? Haradayam və bu aləmə gəlişimin hədəfi nədir? Haraya gedəcəm və yaşayışımın sonu nə ilə yekunlaşacaq?

Bu cür suallar hər bir insanın qarşısına çıxmaqdadır. Əql sahibi olan hər bir insan öz fikri səyləri ilə qarşıya çıxan suallar üçün vicdanını qane edə biləcək bir şəkildə doğru-düzgün cavab tapmaq istəyir. Şübhəsiz ki, bu suallar kafirlər üçün də qarşıya çıxır. Lakin onlar bu barədə düzgün fikirləşmirlər. Öz əql və fikirlərini bu mühüm məsələlərdə lazım olan həddə işlətmirlər. Dünya həyatına vurğunluq əqllərinin üzərinə pərdə çəkmişdir. Hədsiz dərəcədə eyş-işrət həvəsi onları bu kimi suallar barəsində düşünməkdən qafil etmişdir. Onlar öz təfəkkür və düşüncələrini bu barədə fikirləşməkdən çəkindirirlər. Bəzən də boş bir vaxtda öz vicdanlarının səsini eşitdikdə tez fikirlərindən daşınırlar, hətta özlərini zənn və gümanla aldadaraq özlərinə təskinlik verirlər. Kafir aşağıdakı suallara yəqin üzündən yox, yalnız güman əsasında cavab verir:

- Mən kiməm?

- İnsan adlı bir canlıyam ki, başqa canlılar kimi yeyirəm, içirəm, istəklərimi və ehtiyaclarımı ödəmək üçün o tərəf-bu tərəfə gedirəm. İstəklərimi təmin etməkdə mənim üçün heç bir məhdudiyyət yoxdur. Hansısa üstün bir varlıq qarşısında heç bir məsuliyyət daşımıram.

- Haradan gəlmişəm?

Kafir bu sualın cavabında öz əqidəsinə uyğun olaraq belə deyir:

- Maddi bir varlığam. Heç bir kəs məni yaratmayıb. Bilikli, qadir, üstün bir xaliq tərəfindən yox, təsadüf nəticəsində yaranmışam. Yaranışımda heç bir hədəf olmayıb.

- Haradayam?

Kafir deyir:

- Mən sırf maddi, hədəfsiz və şüursuz olan bir aləmdə heyvanların, insanların və başqa varlıqların kənarında yaşayıram. Onlar da öz-özlərinə yaranmışlar. Bütün bunlar hamısı mənim kimi hədəfsiz və çaşqınlıq içərisindədirlər. Nə mənim, nə də aləmin yaranışında hədəf olmayıb.

- Haraya gedəcəyəm?

Kafir deyir:

- Mən xəstəliyə, qocalığa, gücsüzlüyə və sonda yoxluğa tərəf gedirəm.

Kafir şəxsin nəzərində yaşayış aşağıdakı mərhələlərdən ibarətdir:

Həyat yoxluqdan başlanır, insan isə öz-özünə inkişaf edərək böyüyür və uşaqlıq dövrünü arxada qoyur. Gənclik çağında insanın bədəninin təravəti və qüdrəti ən yüksək nöqtəyə yetişməklə həyatın ən uca zirvəsinə çatmış olur. Amma təəssüflər olsun ki, bu təravət və güc-qüvvət müvəqqəti olur. İnsan az bir müddətdə aşağıya doğru hərəkət edir və bu tənəzzül yolunda zərbələrə və əziyyətlərə məruz qalır. Xəstəliklər və çətinliklər ona tərəf hücum edir, cavanlıq gücü get-

gedə azalır və bədəninin qüvvəsi zəifləyir. Göz, qulaq, əl, ayaq zəifləyir və yavaş-yavaş öz qabiliyyətlərini itirir. Şadlıq və nəfsi istəklər dövrünün tamamlandığı və zəiflik dövrünün başlandığı bir zamanda övladlar, dostlar vəfasız və qayğısız şəkildə onu çətinliklər içərisində tək qoyurlar... Sonda isə yoxluq uçurumuna yuvarlanaraq daş-torpaq altında basdırılır.

Kafirin əqidəsinə görə, yaşayışın sonu puç və dəhşətlidir. Kafir güman edir ki, yaşayışın sonu dəhşətli yoxluq uçurumuna yuvarlanmaqdır. Elə həmin səbəbə görə yaşadığı günlərdə ölümü yada salmaqdan çəkinir. Xüsusilə gələcək yaşayış və ölüm barəsində suallar ona üz gətirən vaxt hər bir vasitə ilə bu suallara cavab verməkdən yayınmağa çalışır.

Kafir eyş-işrətlə və çirkin, hədsiz-hesabsız olan istəkləri ilə öz əqlinin və ayıq olan vicdanının səsini boğmağa və hətta əgər az bir müddətə də olsa belə öz əsəbini sakitləşdirməyə çalışır. Məgər insanın sual yağdıran vicdanı və axtarışçı əqli cavab almadan insandan əl çəkərmi?

Həyatının mənasızlığını və özünün məhv olub aradan gedəcəyini təsəvvür etmək kafir üçün çox acı, dəhşətli və əziyyətlidir. Bu fikir zəhərli ilan kimi daim ruhunu sancaraq zəhərləyir və ona əzab-əziyyət verir. Nə yaxşı olardı ki, öz əqlini işlətməklə düzgün və qənaətbəxş cavablar tapaydı.

* * *

## *Yaşayışda imanın faydaları*

Aləmin əzəmətli və mehriban yaradıcısına, ölümdən sonrakı Axirət aləmində əbədi yaşayışa, ilahi peyğəmbərlərin nübüvvətinə və sözlərinin düzgünlüyünə olan iman möminlərin yaşayışına xüsusi təravət, gözəllik, nuranilik və rahatlıq bəxş edir. Burada imanın faydalarından bəzisinə işarə edirik:

***1. Ümid.*** Mömin insan böyük Allaha və Onun vədələrinin düzgünlüyünə inandığı üçün qəlbi həmişə ümid və sevinclə doludur. Allahın heç vaxt əsirgəmədiyi lütfünə, mehribanlığına və mərhəmətinə həmişə ümidvardır. Mömin insan Allahı qüdrətli, güclü və mehriban bilir. Elə bu cəhətdən də hər hansı bir çətinliklə üzləşdikdə Ona pənah aparır və ehtiyac əlini Ona tərəf açmaqla Rəbbinin qeybi yardımlarına göz dikir. Mömin insan çətinliklərini həll etmək üçün çalışır və inanır ki, Allah möminlərin dostu və köməkçisidir. Mömin özünü aləmdə tənha və köməksiz bilmir, əksinə, həmişə Allahın köməyinə arxayın və ümidvardır. Həyatın ən dəhşətli hallarından olan ümidsizliyə mömінin qəlbində yer yoxdur. Axı mömin bütün varlıq aləminin sahibi olan qüdrətli, alim və mehriban Allaha inandığı halda, nə üçün ümidsiz olmalıdır? O, bütün qüdrətlərin, bütün kamal sifətlərin və bütün yaxşı işlərin mənbəyi olan o yeganə Allaha inanır və Onu xeyir-

xahlıq yolunda çalışan insanların himayəçisi bilir. Mömin belə şəxslərin qələbəsinə tam surətdə inanır və həmişə gələcəyə ümidlə baxır. Mömin insan Allahın sonsuz mehribanlığına və mərhəmətinə inandığı üçün heç vaxt Onun mərhəmətinə və bağışlamasına ümidsiz olmağı qəlbindən belə keçirmir. Ümid çırağı həmişə onun qəlbinə hərarət və nur bəxş edir.

Bəs kafir necə? Kafirin Allaha imanı yoxdur ki, çətinliklərlə üzləşdikdə Ona pənah aparsın. Zahiri səbəblərə və amillərə sığınmaqdan nəticə almadığı üçün çətinliklərlə üzləşdikdə özünü tənha və pənahsız görür. Pərişan halda dəhşətli bir vadidə ümidsizliyə qapılır və hamını özünə qarşı biganə görür. Ümidsizlik cüzam xəstəliyi kimi onun ruhuna, bədəninə daimi olaraq əzab-əziyyət verir.

2. ***Yaşayışın sonuna nikbin baxış.*** Mömininin məada və Axirət aləminə olan imanı, ölümdən qorxmamağa və yaşayışın sonuna nikbin baxmağa səbəb olur. Mömin insan inanır ki, ölməklə məhv olmur, əksinə, bu aləmdən gözəl və əbədi Axirət aləminə köçür. Mömin dünyanı Axirətin tarlası bilir. Onun baxışında, bu aləm əbədi Axirət səadətini əldə etmək ləyaqətini qazanmaq üçün çalışmaq və insani fəzilətləri çiçəkləndirmək yeridir. Mömin dünyanı saleh əməllər uğrunda yarış meydanı və Allaha iman əsasında yerinə yetirilən saleh əməlləri mənəvi təkamül vasitəsi bilir. Əməllərinin ən kiçiyinin belə nəticəsiz qalmayacağına və Axirət aləmində əməllərinin tam şəkildə mükafat və savabına çatacağına əmindir. Mömin nəinki ölümdən qorxmur, hətta Allah yolunda olan ölümü, cihadı və şəhadəti böyük bir nemət bilir və çox böyük bir şövqlə köksünü onlara açır ki, mehriban Allahın mərhəmətinə qovuşub xeyirxah insanlarla birgə gözəl və əbədi Axirət yaşayışını davam etdirsin.

Möminin baxışında, dünya həyatı puç və hədəfsiz deyil, əksinə, Axirət səadətinə nail olmaq üçün hazırlıq əldə etmək və ruhu paklaşdırmaq mərhələsidir. Elə buna görə də tam nikbinlik və həvəslə nəfsini paklamağa çalışır, yaxşı işlər görmək və xalqa xidmət etməklə özünü kamilləşdirir. Mömin insan xeyirxahlıq, sədaqət, əmanətdarlıq, Allahın yaratdıqlarına yaxşılıq, ədalətsevərlik, fədakarlıq və digər yaxşı işləri mənasız bilmir. Əksinə, inanır ki, bu işlərdən heç biri mükafatsız qalmayacaq və hamısının nəticəsini Axirət aləmində görəcək.

Kafir necə? Görəsən, həyatın sonuna nikbin baxırmı? Kafirin məada etiqadı yoxdur, buna görə də yaşayışın sonunu məhv olmaq və fəlakət bilir. O, yaşayışın puç və hədəfsiz olduğunu düşünür. Kafirin əqidəsinə görə, insanın yaşayışı yoxluqdan başlanır, inkişaf edir və uşaqlıq dövranını arxada qoyur. Gənclik çağında öz qüdrətinin uca zirvəsinə yetişir, amma təəssüflər olsun ki, az bir müddətdən sonra bu güc-qüdrət tükənməyə başlayır. Zəiflik, gücsüzlük, xəstəlik və qocalıq bir-birinin ardınca gəlir. İnsan güc-qüdrətin uca zirvəsindən aşağıya tərəf gedir və tənəzzül edir. Bir müddət əziyyətlərə, işgəncələrə dözdükdən sonra axırda titrək qədəmlərlə yoxluq dərəsinə yuvarlanır. Puç olan bədəni daş-torpaq altında dəfn olunur. Necə də dəhşətli və dərdlidir? Puç bir yaşayış! Məgər yoxluqdan da dəhşətli bir şey varmı?

Kafir qocalıq vaxtı görür ki, ömrünün başdan-başa olan bütün işləri əbəs və mənasız olmuşdur, çünki çalışıb qazandıqlarını kənara qoyub ölməlidir. Sizcə, bu cür yaşamağa nikbin baxmaq olarmı? Belə bir şəxs necə yaxşı işlər yerinə yetirə bilər? Kimin üçün? Hansı bir məqsədlə? Axirət mükafatına və cəzasına inanmadığı halda, hansı bir ümidlə yaxşılıq edə bilər? Fədakarlıq və şəhadətin belə şəxslər üçün düzgün bir mənası ola bilərmi?

Elə buna görə kafir həmişə ölümdən qorxur və onun barəsində az da olsa, belə düşünmək istəmir. Çünki hər an yoxluq hesab etdiyi ölüm barəsində düşünmək onun üçün yüzlərlə şallaq zərbəsindən daha dəhşətlidir.

***3. Vəzifəni tanımaq.*** İnsan həmişə müxtəlif məsələlər ilə (fərdi, ictimai, əxlaqi, siyasi və s.) qarşılaşdıqda onların qarşısında öz mövqeyini müəyyənləşdirməyə və münasib reaksiya göstərməyə məcburdur. Əgər din və əqidəsinə güclü imanı olsa, vəzifəsinin nədən ibarət olduğunu mənsub olduğu dindən götürə bilər. Belə bir şəxsin vəzifəsi aydındır və heç bir şəkk-şübhəsi də yoxdur. Amma heç bir dinə və əqidəyə imanı olmasa, vəzifəsini yerinə yetirməkdə tərəddüd edəcək, həmişə o tərəfə bu tərəfə gedərək çaşqın vəziyyətdə qalacaq.

Mömin insan əsl bəndə olduğu üçün öz yolunu, hədəfini və müxtəlif məsələlər qarşısında tutacağı mövqeyini Allahdan və Onun peyğəmbərlərindən öyrənərək xüsusi bir proqram üzrə hərəkət edir. O, hər hansı yeni bir hadisə ilə üzləşdikdə vəzifəsinin nədən ibarət olduğunu Allahın dinindən öyrənir və nikbinliklə, həvəslə öz vəzifəsini yerinə yetirir. Seçdiyi yola və hədəfə inandığı üçün vəzifəsini yerinə yetirməkdə fədakarlıq göstərir və böyük bir həvəslə Allah yolunda şəhid olmağa tələsir. Mömin insan özünü və bütün aləmi Allahın mülkü bilir. İnanır ki, uca Allah insanın xeyirxahlığını istədiyi üçün səadət proqramı olan dini, peyğəmbərlər vasitəsi ilə insanların ixtiyarında qoymuşdur. Mömin inanır ki, dinin hökmlərinə və qanunlarına itaət onu həqiqi bir səadətə çatdıracaq. Özünü ixtiyarlı bilir və öz gələcəyi qarşısında məsuliyyət hiss edir. İnamla, şəksiz və şübhəsiz, din məktəbindən öyrəndiyi vəzifəsinə əməl edir.

Kafir necə? Haqqı qəbul etmədiyi və heç bir dinə inanmadığı üçün həmişə tərəddüd içində olur. Hansı bir yolu seçəcə-

yini və hansı yolla gedəcəyini bilmir. Öz nəfsi istəklərinin əsiri olur. O tərəfə bu tərəfə gedir və hər hansı bir yolu seçərkən, hər hansı bir işi başlayarkən qəti surətdə bilmir ki, bu iş onun xeyrinə, yaxud zərərinədir.

Özünün həqiqi səadətini təmin etmək üçün aydın bir hədəf seçib onun ardınca gedə bilmir. Etimad olunası bir yola və hədəfə bağlı deyil ki, iztirab və nigaranlıqlardan canı qurtarsın. Elə buna görə hər gün bir tərəfə cəzb olunur və bu da onun çətinliklərlə üzləşməsinə səbəb olur. Vəzifəsinin nədən ibarət olduğunu peyğəmbərlərdən öyrənmədiyi üçün hər kəs onun üçün vəzifə təyin edir. Allaha və Onun dininə təslim olmadığına görə başqa məktəblərə aldanır. İlahi peyğəmbərlərin və övliyaların rəhbərliyini qəbul etməyənlər yalançı, fırıldaqçı adamların tələsinə düşür.

***4. Rahatlıq.*** Mömin insan, öz Allahını tanıdığı üçün Onun elminə, qüdrətinə, lütfünə və mehribançılığına tam surətdə inanır. Mehriban Allahı bütün varlıq aləminin sahibi bilir. Onun qüdrətinin və iradəsinin hər yerə nüfuz etdiyini görür. Allahı hər yerdən və hər bir şeydən xəbərdar bilir. Mömin insan inanır ki, Allah Öz bəndəsinin xeyrini və yaxşılığını istəyir. Rəhman və rəhimli Allah heç vaxt Öz fəzilətini bəndələrindən əsirgəmir. Elə buna görə möminin qəlbi aramdır, nigarançılığı da yoxdur. Qəlbi Allahı xatırlamaqla həmişə Onunla ünsiyyətdədir. Mömin insan öz həyat gəmisini bütünlüklə Allaha tapşırmış və inanır ki, Onun hidayəti ilə bütün burulğanların, dəhşətli dalğaların və tufanların arasından keçərək nicat tapacaq. Sonda öz məqsədinə və səadət sahilinə yetişəcək.

Mömin insan yaşamağın hədəfini və bu hədəfə nail olmaq yolunu tanımışdır və inanır ki, o yolu keçməklə son məqsədinə və əbədi səadətə yetişəcək. Odur ki, dərin bir rahatlığa malikdir. Nə üçün də rahatlığı olmasın? Çünki onun elə bir

Allaha etiqadı var ki, həmin Allah bütün xeyirlərin və yaxşılıqların mənbəyidir. Bəs nə üçün belə bir şəxsin iztirabı olmalıdır? O inanır ki, Allahının qeybi köməkləri ona şamil olur və heç vaxt tənha və köməksiz qalmayacaq.

Kafir necə? Onun baxışında aləm və onda baş verən hadisələr təlatümlü, tufanlı bir dəniz kimidir ki, bəla, əziyyət və müsibət dalğaları hər tərəfdən ona hücum edir. Nə nicat gəmisi var, nə də ürəyi yanan nicat verən birisi. Aləmdəki hadisələr onun nəzərində hədəfsiz və bir-birinə yaddır. Kafir bu tufanlı dənizdə özünün gücsüz və pənahsız vəziyyətdə hər tərəfdən dalğaların hücumuna məruz qaldığını görür. Sanki, yorulmuş bir üzgüçüdür ki, ürəyi yanan və güclü bir xilaskar tanımır. O, hər bir dalğanın sıçrayışından titrəyir, eşitdiyi hər bir səsin düşmən səsi olduğunu düşünür, heç bir şeylə rahat və sakit olmur. Nə üçün? Çünki hamının tələf və həlak olacağını fikirləşir. Bəs belə bir şəxsin necə rahatlığı və sakitliyi ola bilər? Çünki onun qəlbinin dərinlikləri qəm-qüssə, nigarançılıq, düşmənçilik, kin-küdurət, laqeydlik və məhəbbətsizliklə, eləcə də xəstəlik, yoxsulluq, qocalıq və ölüm qorxusu ilə dolmuşdur. Kafir belə bir vəziyyətdə necə rahat ola bilər? Özü üçün bu aləmdə güclü və ürəyi yanan bir pənah yeri tapmamışdır ki, ona ürək bağlasın və bu vasitə ilə pərişan olan qəlbinə aramlıq bağışlasın.

Kafirin düzgün və sabit bir əqidəsi olmadığı üçün ardıcıl olaraq uğrunda çalışacağı düzgün və sabit bir hədəfi də yoxdur. O, öz varlığını və aləmdə olan hadisələri mənasız və hədəfsiz hesab edir. Belə bir şəxs necə sabit və dəyərli bir hədəf seçə bilər? O, öz sonunu həlak və məhv olmaqda görür. Bu halda necə aram və sakit ola bilər? Kafirin Axirət aləminə imanı olmadığı üçün öz gələcəyini qaranlıq görür. Ölümü xatırlamaqla öz-özünə titrəyir və həmişə iztirabda olur.

**5. *Səbir və müqavimət.*** İnsan ömrü boyu çətinlik, əziyyət, müsibət, nakamlıq, xəstəliklər və s. ilə üzləşir. Onlara necə reaksiya göstərməsi insanın yaşayışında böyük rol oynayır. Bu hadisələrdən bəzisinin öncədən qarşısını almaq mümkündür, bəzilərinin isə yox. Baş verən hadisələrdən də bəzisinə əlac etmək olur, bəzisinə yox. Bu sadaladığımız bütün mərhələlərdə mömin və kafir onlarla rastlaşdıqda göstərdikləri reaksiyalar eyni ola bilməz.

Mömin insan iman gücünün köməyi ilə və peyğəmbərlərin göstərişlərindən istifadə etməklə baş verəcək hadisənin qarşısını öncədən almağı və ya onların sayını azaltmağı başqalarından daha yaxşı bacarır. Həmçinin mömin insan əlacı mümkün olmayan hadisələr baş verən zaman Allahın əbədi gücündən köməklik almaqla, qeybi yardımlara ümid bəsləməklə, səbirli olmaqla, çətinliklərin həll olunmasında daha yaxşı səy göstərməklə çətinliklərə başqalarından daha yaxşı üstün gələ bilər.

Mömin insan aydın hədəfə və ilahi bir stimula malik olduğu və bütün vəziyyətlərdə vəzifəsini yerinə yetirməyə çalışdığı üçün çətinliklər qarşısında başqalarından daha yaxşı dözüb müqavimət göstərir, onların həll olunması üçün çalışır, bu yolda heç bir qüvvədən qorxmur və özünü möhkəm bir dağ kimi göstərir.

Mömin insan əvvəlcədən qarşısını almaq mümkün olmayan hadisələrlə üzləşdikdə necə reaksiya göstərir? Adətən, qocalmaq, əlacı olmayan xəstəliklər, yol qəzaları, əvvəlcədən məlum olmayan hadisələr, yaxınların qəfil ölümü kimi hadisələr onun imanını bu kimi çətinliklər qarşısında möhkəmləndirir və müqavimətli edir. Mömin insan bu kimi hadisələr qarşısında o qədər dözümlüdür ki, sanki, şirin bir hadisə ilə üzbəüzdür. Mömin bilir ki, aləmin hadisələri proqramsız deyil. İnsan öz vəzifəsini yerinə yetirməklə bütün acı və şirin

hadisələrdən öz ruhunu kamilləşdirmək, əxlaqi fəzilətləri və Axirət səadətini əldə etmək üçün istifadə edə bilər. Mömin hadisələrlə üzləşdikdə vəzifəsini yerinə yetirmək üçün səy göstərməklə yanaşı, aram bir şəkildə Allahın istədiklərinə razıdır və inanır ki, səy və cəhd ilə birgə olan bu dözüm və razılıq, onun ruhunun tərbiyələnməsinə və əxlaqi fəzilətlərinin təkamülünə səbəb olacaq və heç bir ziyan ona yetişməyəcək. Çünki öz Səbirinin, razılığının və səyinin mükafatını Axirət aləmində, mehriban Allah tərəfindən alacaqdır.

Elə bu imana, baxışa görədir ki, mömin insan bir sıra hadisələrlə və yaşayışın çətinlikləri ilə üzləşdikdə köksünü açaraq onları qarşılayır. Heç vaxt ah-nalə eləmir və onlara dağdan da möhkəm müqavimət göstərir. Onların həlli üçün bacardığı qədər çalışır.

Qısa şəkildə desək, mömin insan Allaha, Axirət aləminə, ilahi peyğəmbərlərin sözlərinin doğruluğuna inandığı və öz yaşayış proqramını peyğəmbərlərdən götürdüyü üçün aşağıdakı üstünlüklərə malikdir:

1. Öz nəfsi istəklərini idarə edə bilir və səbirlidir. Çünki onun zillət və bədbəxtliyinə səbəb olan işlərdən ciddi surətdə çəkinir.

2. Allahın qeybi köməklərinə inanır. Öz vəzifəsini yerinə yetirmək üçün çalışır və səbirlidir. Ciddilik və əzmkarlıqla qarşısını almaq mümkün olan hadisələrin qarşısını alır.

3. Yüksək səbir və dözümlə hadisələrlə mübarizə aparır və onların həll olunması üçün ciddi olaraq çalışır.

4. Ağır hadisələr və müsibətlərlə üzləşdikdə özünü ələ alır və öz daxili aramlığını əldən vermir. Allahın razılığına xatir Səbir edir.

Bəs kafir necə?

Kafir şəxs imanın ləzzətini duymadığı halda, belə bir Səbirə və müqavimətə necə malik ola bilər? O, nəfsi istəklərinin

əsiridir. Bu istəklər hər an onu müxtəlif istiqamətlərə çəkir. Kafir nəfsi istəkləri qarşısında zəlildir. Düzgün şəkildə onları nizamlaya bilmir. Kafirin çətinliklərlə mübarizə aparmaq yolunda söykənəcəyi dayaq nöqtəsi yoxdur. Elə bu səbəbə görə də çətinliklərlə üzləşdikdə öz müqavimətini itirir və hədəfə nail olmaqdan məyus olur. Kafir qocalıq, bəzi xəstəliklər, ölümün yaxınlaşması, yaxınların ölümü və var-dövlətin əldən getməsi kimi əlacı mümkün olmayan hadisələr qarşısında özünün müqavimətini və Səbirini əldən verir və bütün çıxış yollarının üzünə bağlandığını görərək qəm-qüssəyə qərq olur. Çünki bu cür hadisələrin baş verməsindən ciddi surətdə nigarandır. Amma əlindən başqa bir iş də gəlmir.

Kafirin öz yaşayışında ləzzətdən, dünya xoşbəxtliyindən, yeməkdən, içməkdən, yatmaqdan və s. başqa bir hədəfi yoxdur. Elə isə, bu cür yaşayışı bir-birinə vuran hadisələr, çətinliklər və müsibətlər qarşısında necə müqavimət göstərə bilər.

***6. Cismin və bədənin qocalması.*** Bəsirət baxışı ilə addımlayan mömin insan öz işlərini Allaha və Onun vədələrinin doğruluğuna olan yəqini əsasında yerinə yetirir. Başqalarından daha yaxşı ruhi sakitliyə malikdir. Ruhi xəstəliklərə daha az düçar olur. Özünü itirmir, qəlbində heç bir nigaranlığı yoxdur və nəticədə, bir çox cismi, ruhi xəstəliklərdən amandadır. İmanı gücləndirmək və dini dəyərlərə diqqət yetirmək mömin insanların müalicəsinin daha tez və daha effektli olmasına səbəb olur. Çünki ruh və cismin bir-birində qarşılıqlı təsirləri vardır.

Bundan əlavə, mömin ilahi peyğəmbərlərin ruhi və cismi sağlamlıq barəsində olan göstərişlərini əldə etdiyi və onların düzgünlüyünə inandığı üçün onlara əməl etməklə gözəl şəkildə öz ruhi və cismi sağlamlığını təmin etmiş olur.

Kafir necə? Kafirin alim, qüdrətli olan Allaha imanı olmadığı üçün öz varlığını və bütün aləmi puç və hədəfsiz bilir. O, puçluq və hədəfsizlik hiss edir. Elə buna görə ruhi rahatlığa malik deyil. Ən kiçik bir hadisə nəticəsində ümidsizlik, nigaranlıq onun bütün bədənini bürüyür və nəticədə, onun bədənində bir sıra xəstəliklər yaradır. Ruhi zəiflik onu daxili iztirablarını gizlətmək üçün cinayət və günaha sürükləyə bilər. Kafir mömindən daha çox xəstəliklərə, nigaranlığa, daxili iztirablara, cismi və ruhi xəstəliklərə düçar olur.

Bundan əlavə, kafir, Allahın cismi və ruhi sağlamlıq barəsindəki faydalı göstərişlərinə və möminlərin əməl etdiyi çox faydalı gigiyena qaydalarına inanmadığı üçün çətinliklərlə üzləşdikdə gücünü daha tez əldən verir və daha çox ruhi və cismi xəstəliklərə düçar olur.

* * *

## Düzgün bir dünyagörüşü seçilməsinin zəruriliyi

Gənclik və yetkinlik çağları çox həssas və həlledici bir dövrdür. Bu dövrdə, sanki, yaşayış yenidən başlayır. Bu dövrdə insanın əql və təfəkkür qüvvəsi çiçəklənir və gələcəyin insanının bünövrəsi qoyulur. Gənclər bu həssas dövrdə öz gələcəyi üçün fikirləşməli və proqram cızmalıdırlar. Bu dəyərli fürsəti əldən vermək insana sağalmaz zərbələr vura bilər. Çünki fürsət, ömür əldən gedir və bir daha geriyə qayıtmır.

İnsan aqil və düşüncəli bir varlıqdır. Heyvanlar kimi yalnız nəfsi istəklərinə itaət etməməli, əql qüvvəsindən istifadə edərək öz vəzifəsini bu aləmdə müəyyən etməli, insanlığa və öz həqiqi səadətinə nail olmaq yolunu tapıb o yolla hərəkət etməlidir. Aqil və düşüncəli insan ömrünün dəyərli fürsətini boş yerə əldən vermir. Əksinə, iki şeyi özünün ən zəruri ehtiyacı hesab edir və onları əldə etmək üçün çalışır:

***1. Düzgün bir fikir sistemi;***

***2. Ölçülüb biçilmiş proqram.***

Gənc bu fürsətdən yaxşı istifadə etməli, yaşayışının həqiqi hədəfini tanımalı, gələcəyi üçün fikirləşməli, öz həqiqi səadətini tanımalı və tam şəkildə bəsirət gözü ilə ona tərəf gedib məqsədə yetişmək üçün çalışmalıdır.

Amma aydındır ki, dəqiq proqramın və səadət yolunun seçimi insanın əqidəsinə və dünyagörüşünə tabedir. Hər bir insan varlıq aləmində olan məlumatına uyğun olaraq yaşayışının hədəfini və öz yolunu təyin edir, gələcəyi üçün fikirləşib proqram tərtib edir. Bizim varlıq aləminin əsas məsələləri barəsində məlumatımız nə qədər kamil və düzgün olarsa, yaşayışın hədəfini daha yaxşı tanıyıb ona yetişmək üçün düzgün proqram tərtib edərik. Əksinə, əgər varlıq aləminin əsas məsələləri barəsində məlumatımız səhv olarsa və biz batil bir əqidəyə inansaq, hədəfin seçimində də səhvə yol verib əbədi fəlakət uçurumuna yuvarlanacağıq.

Buna görə əqidə əsaslarının möhkəmləndirilməsi və düzgün bir dünyagörüşünün seçimi düşüncəli bir insan üçün böyük əhəmiyyət daşıyır. Ağıllı hər bir insan üçün yaşayışının ilkin mərhələsi olan gənclik çağlarında şüurlu şəkildə dəlillərlə öz etiqadını möhkəmlətmək, bu vasitə ilə özünü çaşqınlıq və tərəddüd vəziyyətində qalmaqdan və səhv yollara düşməkdən xilas etmək zəruridir.

Ümumiyyətlə, varlıq aləminin sirlərini kəşf etməyə can ataraq axtarış aparmaq düşüncə sahibi olan insan üçün fitri bir işdir. Elə isə, insan özünün bu təbii və fitri istəyindən əl çəkib öz əqlindən istifadə etməyə bilərmi? Bu surətdə insanın başqa heyvanlardan fərqi nə olacaq?

**Dünyagörüşü nə deməkdir?**

İnsanın varlıq aləmi barəsində olan məlumatı və təsəvvürü "dünyagörüşü" adlanır. Başqa sözlə desək, dünyagörüşü düşüncə səviyyəsində aşağıdakı suallara cavab verən əsaslı məsələlərin məcmusudur:

Görəsən, dünya öz-özünəmi yaranmış, yoxsa üstün bir varlıq onu yaradıb idarə edir? Əgər yaradan biri varsa, onun varlığı necədir? Hansı sifətlərə malikdir? İnsanın və dünya-

nın yaranışında hədəf nə olub? İnsanın yaşayışı bu aləmlə sona çatırmı? Yoxsa Axirət adlı başqa bir aləm var ki, insan ölümdən sonra öz əməllərinin və rəftarının nəticəsini görmək üçün oraya köçür? Axirət aləmi, Cənnət və Cəhənnəm necədir? İnsan necə bir varlıqdır və onun varlığında hansı istedadlar və potensiallar qoyulmuşdur? Görəsən, insanın bu aləmdə hər hansı bir vəzifəsi və ya məsuliyyəti varmı?

Görəsən, insan öz dünya və Axirət səadətini təmin etmək üçün dəqiq bir proqram tərtib edə bilərmi? Yoxsa vəhy vasitəsi ilə aləmlərin yaradıcısı ilə əlaqəsi olan peyğəmbərlərin proqramlarından istifadə etməlidir? Peyğəmbərlər necə insanlar olmuşlar və onlarda hansı xüsusiyyətlər olmuşdur? Şəriət qanunlarının qorunması, düzgün icra olunması, ümmətin rəhbərliyi, ictimai sabitliyin qorunması, cəmiyyətdə ədalətin bərpa olunması və peyğəmbərlərin yolunun davam etməsi üçün peyğəmbər vasitəsi ilə Allah tərəfindən seçilmiş bilikli və bacarıqlı şəxsə ehtiyac varmı?

Bu kimi suallara verilən cavablar eyni deyil. Əksinə, hər bir qrup öz əqidə və dünyagörüşünə uyğun olaraq cavablar verir. Onların cavablarının məcmusu dünyagörüşü adlanan baxış və təsəvvürlər sistemini təşkil edir.

**İdeologiya nə deməkdir?**

Dünyagörüşü seçimindən sonra növbə ideologiyaya çatır. İdeologiya bir termin olaraq hədəfli bir proqrama, ümumi bir həyat tərzinə və insanın vəzifəsini müəyyən edən fikirlər toplusuna deyilir.

Bu terminə əsasən, "dünyagörüşü" altqurum, "ideologiya" isə üstqurum sayılır, yəni hər hansı bir ideologiyanın seçimi müəyyən bir dünyagörüşünün seçiminə bağlıdır. Həqi-

qətdə dünyagörüşü varlıq aləminə olan ümumi bir baxışdır. Lakin ideologiya vəzifələr və dəyərlər ilə olan tanışlıqdır.[1]

Bu kimi suallara verilən cavablar bir termin olaraq ideologiya adlanır:

Bu aləmdə bizim vəzifəmiz nədən ibarətdir? Hansı məsuliyyətimiz var? İnsan hansı işləri yerinə yetirməklə həqiqi səadətə və kamilliyə yetişər? Hansı işlər yaxşı və hansı işlər pisdir?

Bəşər üçün xeyirli olan işlər hansılardır? Hansı işləri yerinə yetirməli və hansı işlərdən çəkinməliyik?

**Araşdırma aparıb cavab tapmağın zəruriliyi**

Axtarış aparan bütün gənclər, şagirdlər və həqiqət sevər tələbələr üçün belə suallar qarşıya çıxır və onlar bu suallara qənaətbəxş cavablar tələb edirlər. Gənclik çağı sual, axtarış və düşüncənin çiçəklənmə dövrü, iman və əqidəyə sahib olmaq mərhələsidir. Bu üzdən bu dövrlərdə varlıq aləmi barəsində doğru bir baxışa malik olamq, əqidəni möhkəmləndirmək, düşünüb tədqiq etmək və qeyd olunmuş suallardan hər biri üçün qəti cavab tapmaq lazımdır.

Buna görə, düzgün və qəti olan bir dünyagörüşünə və aydın bir ideologiyaya sahib olmaq sizin üçün hər bir şeydən daha zəruridir. Çünki siz aqil və mütəfəkkirsiz və sizin axtarışçı əqliniz icazə vermir ki, bu əsaslı məsələnin kənarından

---

[1] Latın mənşəli olan ideologiya sözü "ideo + logiya" sözlərindən yaranmışdır. "İdeo" fikir, əqidə və təsəvvür mənasındadır. Buna görə ideologiya əqidəşünaslıq, yəni əqidə barəsində axtarış aparmaq deməkdir. Amma bu söz indi daha çox aşağıdakı mənada istifadə olunur. 1) Obyektiv həqiqətlər haqqında əqidə və fikirlər toplusu. Bu mənada o, təqribən dünyagörüşü ilə sinonimdir. 2) Ümumi həyat tərzini, insanın vəzifəsini və dəyərləri təyin edən fikirlər toplusu. Bu mənada dünyagörüşünün nəticələrindən hesab olunur. Burada ideologiya sözü ikinci mənada işlənmişdir.

laqeyd keçəsiniz. Bu əsaslı məsələlərə qeyri-ciddi yanaşmaq insanı təşvişə, iztiraba və yaşayışı puçluğa tərəf aparır.

**Dünyagörüşünün prinsipləri**

Dünyagörüşü barəsində olunan suallara yenidən baxın. Bu qəbildən olan sualları dörd dəstəyə bölmək olar:

1. Tövhid haqqında, yəni varlığın başlanğıcına, aləmin yaradıcısına və Onun sifətlərinə aid olan suallar.

2. Məadla, yəni insanın gələcəyi və ölümdən sonrakı yaşayışı ilə bağlı olan suallar.

3. Nübüvvət haqqında, yəni insanın sistematik bir proqrama, peyğəmbərlərə, onların rəhbərliyinə və yol göstərmələrinə olan ehtiyacı barəsindəki suallar.

4. İmamətlə, yəni cəmiyyətin ədalətlə idarə olunması, səmavi qanunların qorunması, icra olunması və insanların Allaha tərəf hidayət olunması üçün insanın ilahi rəhbərlərə olan ehtiyacı barəsindəki suallar.

5. Peyğəmbərlər vasitəsi ilə yollanmış olan dini proqramlara, vəzifələrə və məsuliyyətlərə aid olan suallar.

* * *

## *Allahaxtarma hissi*

Arxeoloji qazıntılardan və aparılan axtarışlardan məlum olur ki, insanlar keçmiş zamanlardan və hətta tarixdən öncə, belə ülvi bir varlıqla (Allah adı ilə, ya başqa bir adla) tanış olub onun qarşısında ibadət və təzim etmiş, onun razılığı üçün bir sıra mərasimlər yerinə yetirmişlər.

Burada bu sual qarşıya çıxır ki, bəşər ilk dəfə Allahın var olduğunu necə bilmişdir? Hansı sövqedici qüvvə onu Allaha sitayiş etmək fikrinə salmışdır? Hansı bir amil onu aləmin yaradanını axtarmağa yönəltmişdir? Bu fikrin mənşəyi və kökü nədir? Ümumiyyətlə, hansı bir amil insanı allahpərəstlik fikrinə düşməyə və bu düşüncəyə sövq etmişdir.

Azacıq diqqət etməklə bu sualın cavabını tapmaq olar. İnsanda səbəb axtarma adlı bir hiss vardır. Bəşər öz yaşayışının ilk günündən "səbəbiyyət" adlı bir qanunla tanış olmuş, hər fenomen və hər ehtiyaclı varlığın səbəbini axtarmışdır. Əgər acırdısa, yemək dalınca gedirdi. Çünki yemək yeməyi aclığı aradan aparan səbəb və amil bilirdi. Susuzlayarkən öz susuzluğunu söndürmək üçün su dalınca gedirdi. Çünki suyu susuzluğu aradan aparan səbəb bilirdi. Divar arxasından bir səs eşidən zaman yəqin edirdi ki, o səsin səbəbi var və onun

səbəbini tapmaq məqsədi ilə çölə çıxırdı. Xəstələnən zaman öz xəstəliyini müəyyən səbəbin nəticəsi bilirdi və müalicə fikrinə düşürdü. Soyuğu aradan aparmaq üçün istiyə pənah aparırdı. Çünki istiliyi soyuğun aradan getməsi üçün səbəb bilirdi.

Səbəb axtarmaq hissi hər bir insanın təbiətində və xarakterində gizlənmişdir. Hər bir insan həmişə fenomenlərin səbəblərini bilməyə çalışır. Çünki hər bir fenomen haqqında "nə üçün və hansı səbəbə görə?" sualı üzərində düşünür.

İnsan təbiətinə görə həmişə əşyaların səbəbini axtarmaq fikrində olur. Bu təbiətini əldən verməsi və ya unutması mümkün deyildir. Bütün insanlar, o cümlədən ilkin insanlar bu cür təbiətə malik olmuşlar. İnsan bu aləmdə yaşamış və onda baş verən təəccübləndirici hadisələrlə üzbəüz olmuşdur. Gecə və gündüzün nizamlı şəkildə ardıcıllığını, yayın, qışın, Ayın, Günəşin və ulduzların nizamlı hərəkəti, heyvanların, bitkilərin, uca dağların, geniş dənizlərin və axan suların qəribəliklərini və gözəlliklərini gözlə görüb, bu aləmin səbəbi və onu yaradanın kimliyi barəsində fikirləşmiş və bu nizamlı aləmin bir səbəbi olmasından başqa yol görməmiş, beləliklə, başa düşmüşdür ki, bilikli və qüdrətli bir varlıq aləmi yaradıb idarə edir.

Beləliklə, ilkin insanlar da Allah ilə tanış olmuş, Onun varlığını qəbul etmiş, Onun qüdrəti və əzəməti qarşısında baş əymişlər. Bir sözlə allahaxtarma hissi insanın fitrətində qoyulmuşdur.

Bir qrupun səhv fikrə düşərək yalançı məbudlara sitayiş etməklə məşğul olmasına və nəticədə tədricən büt, Günəş, Ay, atəş və ulduza sitayiş etməyin insanlar arasında yayılmasına baxmayaraq, yalançı məbudların ortaya çıxması özü bir şahiddir ki, insan öz səbəbaxtarma hissi ilə başa düşüb ki, bu aləmin idarə olunması üçün bir səbəb lazımdır. Amma bə-

zi yerlərdə bu səbəbin kimliyində səhvə yol verərkən başqalarının səbəb ya həqiqi yaradan olmasını düşünmüş və onlara sitayiş etməklə məşğul olmuşdur.

Bir sözlə desək, insan öz təbiətində gizlənmiş "səbəbaxtarma" hissi vasitəsi ilə varlıqların məcmusunun və aləmin fenomenlərinin səbəbini axtarmış, beləliklə, ehtiyaclı varlıqların və fonemenlərin həqiqi səbəbi ilə, yəni aləmi yaradan Allahla tanış olub Onun varlığına inanmış və Ona sitayiş etməyə başlamışdır.

Quran da Allahaxtarma hissini fitri bir duyğu bilir və buyurur:

"وَلَئِن سَأَلْتَهُم مَّنْ خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ لَيَقُولُنَّ خلقهن العزيز العليم"

***"Həqiqətən, əgər Məkkə müşriklərindən: "Göyləri və yeri kim yaratmışdır?" - deyə soruşsan, mütləq: "Onları yenilməz qüvvət sahibi olan, hər şeyi bilən Allah yaratmışdır!" - deyə cavab verəcəklər".*** [1]

" لَئِن سَأَلْتَهُم مَّنْ خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ وَسَخَّرَ الشَّمْسَ وَالْقَمَرَ لَيَقُولُنَّ اللَّهُ فَأَنَّى يُؤْفَكُونَ"

***"(Ya Rəsulum!) Həqiqətən, əgər (Məkkə müşriklərindən): "Göyləri və yeri kim yaratmış, Günəşi və Ayı kim ram (öz əmrinə, insanların mənafeyinə kim tabe) etmişdir?" - deyə soruşsan, onlar mütləq: "Allah!" - deyə cavab verəcəklər. Elə isə onlar (Tövhiddən, yalnız Allaha ibadət etməkdən) niyə döndərilirlər?"*** [2]

"وَلَئِن سَأَلْتَهُم مَّن نَّزَّلَ مِنَ السَّمَاءِ مَاءً فَأَحْيَا بِهِ الْأَرْضَ مِن بَعْدِ مَوْتِهَا لَيَقُولُنَّ اللَّهُ قُلِ الْحَمْدُ لِلَّهِ بَلْ أَكْثَرُهُمْ لَا يَعْقِلُونَ"

***"Həqiqətən, əgər sən Məkkə müşriklərindən: "Göydən yağmur endirib quruduqdan sonra onunla yerə təzədən can verən***

---

[1] "Zuxruf", 9

[2] "Ənkəbut", 61

***kimdir?" - deyə soruşsan, onlar mütləq: "Allahdır!" - deyə cavab verəcəklər. De: "Həmd olsun Allaha!" Lakin onların əksəriyyəti dərindən düşünməz!".[1]***

* * *

[1] "Ənkəbut", 63

## *Allahın varlığının dəlilləri*

### Qurani-kərimdə Allahı tanımağın yolları

Qurani-kərim Allahın varlığını isbat etmək üçün müxtəlif yollardan və bəzən də ən sadə yoldan – gözəl və hamı üçün başa düşülə biləcək dəlildən istifadə etmişdir. Quranın üslubu fəlsəfi dəlillər kimi çətin deyil ki, hamı üçün başa düşüləcək bir şəkildə olmasın. Bu ən sadə yolda müqəddimələr hazırlamağa və çoxlu biliklər əldə etməyə heç də ehtiyac yoxdur. Hər kəs öz elmi və məlumatı miqdarında ondan istifadə edə bilər. O sadə və gözəl yol insanda allahaxtarma fitrətini oyadan "nizam-intizam" dəlilidir. Buna görə də yaranış aləminin sirlərində və qəribəliklərində olan axtarış, diqqət və təfəkkür Allahı tanımaq üçün ən yaxşı yollardan biridir.

Quran çoxlu ayələrdə aləmdəki xariqələrə işarə edir və insanlardan istəyir ki, düzgün düşünərək aləmə və onun gözəlliyinə hakim olan nizam-intizam və harmoniyadan alim, qüdrətli və hikmətli Allahı dərk etsin. Quran aləmin varlıqlarından hər birini Allahın ayəsi bilir. Ayə nişanə və əlamət mənasındadır. Əgər insan aləmin varlıqlarına olduğu kimi baxsa, onları yaradanın varlığını dərk edəcəkdir. Quran aləmin varlıqlarının sirlərindən təfərrüatı ilə danışan və bu haq-

da insanlara məlumat verən təbiətşünaslıq kitabı olmasa da, aləmin yaradanını isbat edərkən düşüncə sahiblərinin ağıllarını oyatmaq və onların diqqətini cəlb etmək üçün aləmdəki xariqələrə işarə edir ki, təbiətin sirlərini kəşf etmək üçün axtarış apararaq bu vasitə ilə aləmin xaliqinin varlığını dərk etsinlər, eyni zamanda, yaşayışının ehtiyaclarını təmin etmək üçün və aləmi abadlaşdırmaq üçün təbiətdən faydalansınlar.

Elə buna görə demək olar ki, antropologiya, zoologiya, botanika, geologiya, kosmologiya, fizika və kimya elmləri Allahı tanımaq üçün ən yaxşı yollardan biridir.

Qurani-kərimdə çoxlu ayələr vardır ki, yaranışın xariqələrini sadalamaqla insandakı allahaxtarma fitrətini oyadır ki, alim, güclü və hikmətli xaliqin varlığını dərk etsin və qəlb gözü ilə aləmin yaradanını görsün. Bu ayələri ümumi şəkildə neçə dəstəyə bölmək olar. Hər bölmədə onların bəzi nümunələrinə işarə edək.

**a) İnsanın yaradılışı barəsində diqqət və təfəkkür etməyə çağıran ayələr.**

"فَلْيَنظُرِ الْإِنسَانُ مِمَّ خُلِقَ * خُلِقَ من ماء دافق * يخرجُ مِن بين الصُّلبِ و التَّرائبِ"

***"Elə isə insan nədən yaradıldığına (bəsirət gözü ilə) bir baxsın! O, axıb tökülən bir sudan (nütfədən) yaradılmışdır. (O su kişilərin) bel sümüyündən, (qadınların isə) köks sümüyündən çıxar!"*[1]**

"وَمِنْ آيَاتِهِ أَنْ خَلَقَكُم مِّن تُرَابٍ ثُمَّ إِذَا أَنتُم بَشَرٌ تَنتَشِرُونَ * وَمِنْ آيَاتِهِ أَنْ خَلَقَ لَكُم مِّنْ أَنفُسِكُمْ أَزْوَاجًا لِّتَسْكُنُوا إِلَيْهَا وَجَعَلَ بَيْنَكُم مَّوَدَّةً وَرَحْمَةً إِنَّ فِي ذَٰلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يَتَفَكَّرُونَ"

***"Sizi (atanız Adəmi) torpaqdan yaratması, sonra da sizin (hərənizin) bir insan olub yer üzünə yayılmağınız Onun qüd-***

---

[1] "Tariq", 5

***rət əlamətlərindəndir. Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda (dostluq) sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda (bu yaradılışda) düşünən bir qövm üçün ibrətlər vardır!"***[1]

“وَمِنْ آيَاتِهِ خَلْقُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَاخْتِلَافُ أَلْسِنَتِكُمْ وَأَلْوَانِكُمْ إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّلْعَالِمِينَ *
وَمِنْ آيَاتِهِ مَنَامُكُم بِاللَّيْلِ وَالنَّهَارِ وَابْتِغَاؤُكُم مِّن فَضْلِهِ إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يَسْمَعُونَ “

***"Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir. Şübhəsiz ki, bunda bilənlər (ağıl və elm sahibləri) üçün (Allahın vəhdaniyyətinə, Onun hər şeyə qadir olmasına dəlalət edən) nişanələr vardır! Gecə və gündüz yatıb dincəlməyiniz (gecə istirahət etməyiniz, gündüz əlləşib çalışmağınız), nemətindən ruzi (qismətinizi) axtarmanız da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, (öyüd-nəsihət) eşidənlər üçün bunda ibrətlər vardır!"***[2]

”وَاللَّهُ أَخْرَجَكُم مِّن بُطُونِ أُمَّهَاتِكُمْ لاَ تَعْلَمُونَ شَيْئًا وَجَعَلَ لَكُمُ السَّمْعَ وَالأَبْصَارَ
وَالأَفْئِدَةَ لَعَلَّكُمْ تَشْكُرُونَ“

***"Allah sizi analarınızın bətnlərindən heç bir şey bilmədiyiniz (dərk etmədiyiniz) halda çıxartdı. Sonra sizə qulaq, göz və qəlb verdi ki, (Allahın əmrlərini eşidib, qüdrətini və əzəmətini görüb, vəhdaniyyətini duyub) şükür edəsiniz!"***[3]

"نَحْنُ خَلَقْنَاكُمْ فَلَوْلَا تُصَدِّقُونَ * أفرأيتم ما تمنون * أأنتم تَخْلُقُونَهُ أم نَحْنُ
الْخَالِقُونَ"

---

[1] "Rum", 20, 21
[2] "Rum", 22, 23
[3] "Nəhl", 78

***"(Ey kafirlər!) Biz sizi (yoxdan) yaratdıq. Məgər təsdiq etməzmisiniz? Bəs (bətnlərə) axıtdığınız nütfəyə nə deyirsiniz? Ondan (insan) yaradan sizsiniz, yoxsa Biz?!"*** [1]

هَلْ أَتَى عَلَى الْإِنسَانِ حِينٌ مِّنَ الدَّهْرِ لَمْ يَكُن شَيْئًا مَّذْكُورًا * إِنَّا خَلَقْنَا الْإِنسَانَ مِن نُّطْفَةٍ أَمْشَاجٍ نَّبْتَلِيهِ فَجَعَلْنَاهُ سَمِيعًا بَصِيرًا

***"İnsanın elə bir dövrü olub keçmişdir ki, o, xatırlanmağa layiq bir şey olmamışdır! (Yaxud insanın elə bir dövrü olub keçmişdir ki, o həmin dövrdə xatırlanası bir şey olmasın?!) Həqiqətən, Biz insanı (sonrakı mərhələdə ata-anasının toxumundan ibarət) qarışıq bir nütfədən yaratdıq. Biz onu (dünyada özünü necə aparacağı, hər şeyin xaliqi olan Allaha itaət edib-etməyəcəyi ilə) imtahana çəkəcəyik. Biz onu eşidən, görən yaratdıq".*** [2]

**Ayələrdə incə məqamlar**

Yuxarıdakı ayələrdə mühüm məqamlara işarə olunub ki, insanlar onlar barəsində fikirləşsinlər:

1. İnsan ilk öncə yox idi, sonra qarışıq spermadan təkamülün müxtəlif mərhələlərini keçərək yaranmışdır ki, çox diqqətəlayiqdir.

2. Allah insanların çoxalması və onların rahatlığı üçün, onları cüt (erkək-dişi) yaradıb. Onlar arasında məhəbbət və mehribanlıq yaratmışdır və bu da Allahın nişanələrindən biridir.

3. İnsanlar müxtəlif şəkillərdə və rənglərdə yaranmış və müxtəlif dillərdə söhbət edirlər. Bu da Allahın bariz nişanələrindən biridir. Onun barəsində düşünməliyik.

---

[1] "Vaqiə", 57-59

[2] "İnsan", 1, 2

4. İnsan dünyaya gələrkən bir şey bilmir, sonra göz, qulaq və başqa hiss orqanları ilə, eləcə də qəlb və ruh yolu ilə bilik əldə edir. Bu da diqqətəlayiq olan qəribə nişanələrdən biridir.

5. Yatmaq, istirahət, və ruzi əldə etmək üçün olunan hazırlıqlar da Allahın böyük nişanələrindən biridir.

Əgər insan özünün gözəl quruluşuna baxıb, onun nizam-intizamında və xariqələrində yaxşı düşünsə, başa düşər ki, belə bir gözəl tərkib öz-özünə və təsadüf nəticəsində əmələ gəlməmişdir. Əksinə, alim, güclü və hikmətli bir yaradan onu yaratmışdır.

**b) Bitkilər, meyvələr və insanların azuqəsi barəsində diqqət etməyə çağıran ayələr.**

" وَهُوَ الَّذِيَ أَنزَلَ مِنَ السَّمَاءِ مَاءً فَأَخْرَجْنَا بِهِ نَبَاتَ كُلِّ شَيْءٍ فَأَخْرَجْنَا مِنْهُ خَضِرًا
نُّخْرِجُ مِنْهُ حَبًّا مُّتَرَاكِبًا وَمِنَ النَّخْلِ مِن طَلْعِهَا قِنْوَانٌ دَانِيَةٌ وَجَنَّاتٍ مِّنْ أَعْنَابٍ وَالزَّيْتُونَ
وَالرُّمَّانَ مُشْتَبِهًا وَغَيْرَ مُتَشَابِهٍ انظُرُواْ إِلِى ثَمَرِهِ إِذَا أَثْمَرَ وَيَنْعِهِ إِنَّ فِي ذَلِكُمْ لآيَاتٍ لِّقَوْمٍ
يُؤْمِنُونَ "

*"Göydən su (yağış) endirən Odur. Biz onunla hər bir bitkini yetişdirdik, yaşıl fidanlar göyərtdik, onlardan bir-birinə sarmaşmış (sünbül olmuş) dənələr çıxartdıq. Biz xurma ağacından, onun tumurcuğundan bir-birinə sarmaşmış salxımlar yetişdirdik. (Biz, həmçinin) üzüm bağları, bir-birinə bənzəyən və bənzəməyən zeytun və nar yetişdirdik. (Onlardan hər birinin) bar verdiyi vaxt meyvəsinə və onun yetişməsinə baxın. Şübhəsiz ki, bunda (Allahın Öz qüdrəti ilə yaratdığı bu şeylərdə) iman gətirən bir camaat üçün (Rəbbinizin varlığını sübut edən) dəlillər vardır".*[1]

" وَفِي الأَرْضِ قِطَعٌ مُّتَجَاوِرَاتٌ وَجَنَّاتٌ مِّنْ أَعْنَابٍ وَزَرْعٌ وَنَخِيلٌ صِنْوَانٌ وَغَيْرُ
صِنْوَانٍ يُسْقَى بِمَاءٍ وَاحِدٍ وَنُفَضِّلُ بَعْضَهَا عَلَى بَعْضٍ فِي الأُكُلِ إِنَّ فِي ذَلِكَ لآيَاتٍ لِّقَوْمٍ
يَعْقِلُونَ "

[1] "Ənam", 99

***"Yer üzündə bir-birinə yaxın (qonşu) qitələr (münbit, qeyri-münbit, şirin-şoran, dağlıq-aran yerlər, müxtəlif iqlimli torpaq sahələri), eyni su ilə sulanan üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları vardır. Halbuki Biz yemək baxımından onların birini digərindən üstün tuturuq. Şübhəsiz ki, bunda da anlayıb dərk edən insanlar üçün (Allahın qüdrətinə və vəhdaniyyətinə dələlət edən) əlamətlər vardır".[1]***

**"فَلْيَنظُرِ الْإِنسَانُ إِلَى طَعَامِهِ* أَنَّا صَبَبْنَا الْمَاءَ صَبًّا* ثُمَّ شَقَقْنَا الْأَرْضَ شَقًّا* فَأَنبَتْنَا فِيهَا حَبًّا* وَعِنَبًا وَقَضْبًا* وَزَيْتُونًا وَنَخْلًا* وَحَدَائِقَ غُلْبًا* وَفَاكِهَةً وَأَبًّا * مَّتَاعًا لَّكُمْ وَلِأَنْعَامِكُمْ"**

***"İnsan hələ bir yeməyinə baxsın! (Görsün ki, ona necə ruzi verdik). Həqiqətən, Biz yağışı bol yağdırdıq. Sonra yeri gözəl yaratdıq (yaxşı yardıq), Belə ki, orada dən (dənli bitkilər) göyərtdik; Üzüm və yonca; Zeytun və xurma (bağları); (Ağacları bir-birinə) sarmaşan bağçalar; (Növbənöv) meyvələr və ot (ələf) yetişdirdik. (Bütün bunlar) sizin və heyvanlarınızın istifadəsi üçündür!"[2]***

**" أَفَرَأَيْتُم مَّا تَحْرُثُونَ* أأنتُم تزرعونه أم نحن الزارعونَ*لو نشاءُ لجعلناه حطاماً فظلتم تفكّهونَ"**

***"Bəs əkdiyiniz (toxuma) nə deyirsiniz? Onu bitirən sizsiniz, yoxsa Biz?! Əgər Biz istəsəydik, onu bir saman çöpünə döndərər, siz də mat-məəttəl qalardınız"[3].***

**" وَأَنزَلَ مِنَ السَّمَاءِ مَاءً فَأَخْرَجْنَا بِهِ أَزْوَاجًا مِّن نَّبَاتٍ شَتَّى * كُلُوا وَارْعَوْا أَنْعَامَكُمْ إِنَّ فِي ذَٰلِكَ لَآيَاتٍ لِّأُولِي النُّهَى "**

***"O (böyük Allah) ki, yer üzünü sizin üçün döşəmiş (döşək etmiş), orada sizin üçün yollar salmış, göydən yağmur yağdırmışdır. Biz o yağmurla növbənöv bitkilərdən cütlər yetiş-***

---

[1] "Rəd", 4
[2] "Əbəsə", 24-32
[3] "Vaqiə", 63-65

***dirmişik. (Onlardan nuşcanlıqla) yeyin, həm də heyvanlarınızı otarın. Həqiqətən, bunda (gördüyümüz bu işlərdə) ağıl sahibləri üçün (Allahın vəhdaniyyətinə, qüdrətinə dəlalət edən) əlamətlər vardır!"*** [1]

**Ayələrdəki incə məqamlar**

Yuxarıdakı ayələrdə insanların fikirləşməsi üçün mühüm məqamlara işarə olunmuşdur:

1. İnsanın müxtəlif qida növlərinə ehtiyacı var. Bitkilər və ağaclar bu ehtiyacı təmin edir və onun üçün qida hazırlayır.

2. Bitkilərin bitməsi üçün yağışa ehtiyacı vardır.

3. Bütün ağaclar, bitkilər eyni yerdən və eyni sudan istifadə etsələr də, müxtəlif meyvələr və dənli bitkilər verirlər.

4. Bitkilər və ağaclar heyvanlar kimi cüt şəkildə yaradılmışdır.

5. Meyvələrin, dənli bitkilərin və çəmənliklərin yaranışı çox maraqlıdır. Quran bu ayələrdə insanın diqqətini bitkilər aləminə və botanikaya çəkir ki, insanı bitkilər aləminin heyranedici sirlərindən agah etsin, beləliklə, o, həm yaradan Allahı tanısın, həm də bitkilərdən və onların mənfəətlərindən faydalansın.

**c) Yağışın və suyun əhəmiyyətinə diqqət etməyə çağıran ayələr.**

" إِنَّ فِي خَلْقِ السَّمَاوَاتِ وَالأَرْضِ وَاخْتِلاَفِ اللَّيْلِ وَالنَّهَارِ وَالْفُلْكِ الَّتِي تَجْرِي فِي
الْبَحْرِ بِمَا يَنفَعُ النَّاسَ وَمَا أَنزَلَ اللّهُ مِنَ السَّمَاء مِن مَّاء فَأَحْيَا بِهِ الأرْضَ بَعْدَ مَوْتِهَا وَبَثَّ
فِيهَا مِن كُلِّ دَآبَّةٍ وَتَصْرِيفِ الرِّيَاحِ وَالسَّحَابِ الْمُسَخِّرِ بَيْنَ السَّمَاء وَالأَرْضِ لآيَاتٍ لِّقَوْمٍ
يَعْقِلُونَ "

---

[1] "Taha", 53, 54

***"Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allahın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları onun (Yerin) hər tərəfinə yaymasında, göylə yer arasında ram edilmiş küləyin və buludların bir səmtdən başqa səmtə döndərilməsində, (Allahın hikmət və qüdrətinə dəlalət edən) əlamətlər vardır".***[1]

" أَفَرَأَيْتُمُ الْمَاءَ الَّذِي تَشْرَبُونَ* أَأَنتُمْ أَنزَلْتُمُوهُ مِنَ الْمُزْنِ أَمْ نَحْنُ الْمُنزِلُونَ* لَوْ نَشَاءُ جَعَلْنَاهُ أُجَاجًا فَلَوْلَا تَشْكُرُونَ"

***"Bəs içdiyiniz suya nə deyirsiniz? Onu buluddan endirən sizsiniz, yoxsa Biz?! Əgər istəsəydik, onu acı (bir su) edərdik. Elə isə niyə (Allahın nemətlərinə) şükür etmirsiniz?"***[2]

"اللَّهُ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالأَرْضَ وَأَنزَلَ مِنَ السَّمَاءِ مَاءً فَأَخْرَجَ بِهِ مِنَ الثَّمَرَاتِ رِزْقًا لَّكُمْ وَسَخَّرَ لَكُمُ الْفُلْكَ لِتَجْرِيَ فِي الْبَحْرِ بِأَمْرِهِ وَسَخَّرَ لَكُمُ الأَنْهَارَ"

***"Göyləri və yeri yaradan, göydən yağmur endirən, o yağmurla sizin üçün ruzi olaraq (cürbəcür) meyvələr yetişdirən, əmri ilə dənizdə üzmək (yüklərinizi bir yerdən başqa yerə daşımaq) üçün gəmiləri sizə (sizin mənafeyinizə) tabe və çayları sizə ram edən Allahdır!".***[3]

* * *

[1] "Bəqərə", 164
[2] "Vaqiə", 68-70
[3] "İbrahim", 32

## Aləmdə olan nizam-intizam və harmoniya

Bir kitabı nəzərdə tutun. O, minlərlə hərfdən, sözdən və cümlədən təşkil olunmuşdur. Bu hərflər və sözlərin bir-biri ilə əlaqəsi necədir? Görəsən, qarma-qarışıq və əlaqəsiz şəkildə bir-birinin kənarında qoyulmuşdur? Yoxsa nizam-intizam və xüsusi bir əlaqə ilə bir-birinin ardınca düzülmüşdür?

Kitabı oxuduqdan sonra məlum olur ki, bütün hərflər, kəlmələr, cümlələr və onun müxtəlif hissələri tam surətdə bir-biri ilə əlaqəlidir və vahid bir hədəfi izləməkdədir. Bütün bu hərflər, sözlər nizam-intizam və xüsusi bir tərtiblə bir-birinin kənarında yerləşmişdir. Hər birinin xüsusi yeri var. Aydındır ki, bu hərflərin, sözlərin tənzimlənməsində məqsəd və hədəf olmuşdur. Məlum olur ki, kitabı yazan əqlə və şüura malikdir. Əvvəlcədən öz işindən xəbərdar olub. Öncədən hədəf ilə hərfləri və sözləri belə nizamla tərtib etmişdir. Bu işdə məharəti və bacarığı varmış. Nizamlı bir sistemdə onun bütün komponentləri bir-biri ilə əlaqədə və vahid bir hədəfi izləməkdədir. Bu komponentlərin hər biri xüsusi bir yerdə yerləşmiş və öz öhdəsində olan işi yerinə yetirir. Halbuki, əgər başqa bir yerdə yerləşərsə, yaxud öz vəzifəsini yerinə yetirməzsə, o sistemin işi yarımçıq qalacaq və sonda istənilən nəticə əldə olunmayacaq.

O kitabın təsadüf üzündən və hədəfsiz olaraq yaranmış olmasını, yaxud şüursuz bir varlığın, məsələn, küləyin, qələmi kağızın üstünə çəkmiş olmasını və nəticədə, belə bir kitabın yaranmış olmasını heç fikirləşərsinizmi? Yox. Heç vaxt şüursuz bir varlıq vasitəsi ilə təsadüf nəticəsində belə bir kitabın yazılmış olmasını güman etməzsiniz. Çünki bilirsiniz ki, hər bir fenomenin özünə münasib bir səbəbi olur. Əgər bir kəs bunu güman etsə, siz ona gülər və onun sözünü məntiqsiz hesab edərsiniz. Buna görə də kitabın sözlərindən, hərflərindən, nizam-intizamından və harmoniyasından iki məsələni dərk edirik:

1. Bu kitabı yazan bir müəllif vardır;
2. Onun müəllifi bilikli, ağıllı və bacarıqlı bir şəxsdir və öz işində hədəfi olmuşdur.

Həmçinin nizamla işləyən və müəyyən bir hədəfi izləyən hər hansı bir aparatı gördükdə onu düzəldənin elmli və bacarıqlı olduğunu dərk edirik. O aparatın incə və dəqiq quruluşundan onu düzəldən şəxsin elminin və bacarığının səviyyəsini başa düşürük.

Yaranış aləminin böyük kitabı da hərflərə, sözlərə və cümlələrə malikdir. Varlıqlardan, fenomenlərdən və hadisələrdən hər biri bu böyük kitabın bir hərfini, yaxud bir sözünü və ya bir cümləsini təşkil edir. Aləmin hadisələri və fenomenləri nizamsız və əlaqəsiz deyillər. Əksinə, kitabın hərfləri və sözləri kimi nizam-intizama və harmoniyaya malikdir. Bu böyük kitaba baxanda görürük ki, yaranış kitabının bir kəlməsi sayılan insan bədəninin quruluşunda yüzlərlə incə və nizamlı olan aparat var. Onların hər birinin quruluşunda yüzlərlə zəriflik və incə işlər müşahidə olunur. Bu məcmu bütün hissələri bir biri ilə əlaqəli olan, əməkdaşlıq edərək bir-birinin ehtiyaclarını ödəyən əzəmətli bir sistemi xatırladır. Bədənin müxtəlif aparatlarından hər biri böyük bir zavod kimidir. Bü-

tün bu "zavodlar" bir-biri ilə əlaqəlidir. İnsan bədəninin hissələrinin birlikdə insanın diri qalması və yaşaması üçün nizam-intizam və tam bir harmoniya ilə iş görürlər.

Lakin insan bədəni də təklikdə öz həyatını davam etdirə bilməz. Əksinə, başqa varlıqlar kimi suya, havaya, müxtəlif yeməklərə, ağaclara, bitkilərə, heyvanlara və yerin təbii sərvətlərinə ehtiyaclıdır. İnsan bunlarsız yaşaya bilməz. Bütün bunlar Günəş şüasının saçmasına, yerin nizamlı hərəkətinə, gecə və gündüzün, eləcə də, yay və qış fəsillərinin bir-birinin ardınca gəlməsinə bağlıdır.

Bütün bunlar, aralarında harmoniya və üzvi əlaqə olan vahid bir sistemi təşkil edir. Aləmə - bu böyük xilqət kitabına diqqət edin, onun gözəl və dinamik sözlərinə baxın və bu sözlər arasındakı nizam-intizama və harmoniyaya diqqətlə nəzər salın. Aydın şəkildə görəcəksiniz ki, yaranışın bu böyük məcmusu təsadüfən, hədəfsiz əmələ gəlməmişdir. Şüursuz təbiətin belə bir dəqiq nizam-intizamı yaratmağa və belə həcmli və mənalı bir kitabı yazmağa qüdrəti yoxdur. Aləmi müşahidə etməklə və əşyalar arasında olan əlaqə və harmoniyanı dərk etməklə, onun həqiqi səbəbini tanımaq və elmli, qüdrətli bir yaradan tərəfindən elm, qüdrət və hədəf əsasında yaranmasını başa düşmək olar. Bu qayda ilə haraya baxsanız, hansı bir varlığı araşdırsanız, Allahın elm və qüdrətinin nişanələrini görərsiniz. Bu baxış və təfəkkür tərzi Allahı tanımaq üçün ən yaxşı yollardan biridir ki, "nizam-intizam dəlili" adlanır.

Bir çox Quran ayələrində buyurulub ki, yerin, göyün, ulduzların, heyvanların və bitkilərin vücuda gəlməsi, gecə-gündüzün nizamlı şəkildə yaranması haqqında, eləcə də insanların vücudunun incəlikləri, onların rənglərinin, formalarının və dillərinin müxtəlifliyi barəsində düşünsəniz, aləmin yaradıcısını dərk edəcəksiniz.

* * *

## Təbiətdə su dövranı

Varlıqlar arasında suyun paylanması çox maraqlıdır. Suyun əsl mənbəyi okeanlar, dənizlər və göllərdir. Su bu bərəkətli mənbələrdən yer üzünə paylanılır.

Okeanların, dənizlərin və göllərin suyu Günəş şüasının saçması nəticəsində tədricən buxara çevrilir və göyə qalxır. Buxarlar küləklərin əsməsilə müxtəlif istiqamətlərdə hərəkət edir. Temperatur və atmosfer təzyiqi müəyyən bir həddə çatdıqda buluda, yəni buxar yığınına çevrilərək sürətli, yaxud da yavaş küləklərin əsməsi ilə hərəkət edir və yerin müxtəlif regionlarının üzərində yığışıb yağmağa hazırlaşır. Hündür dağların uca zirvəsində, ucqar meşələrin daxilində olan bitkiləri və ağacları doydurur. Yağış suyu tədricən yerə hopur və yerdə toplanaraq ehtiyac günləri üçün saxlanır. Ehtiyat olunmuş sular bəzən bulaq şəklində dağın ətəyindən qaynayıb çıxır, bəzən də insanlar öz səyləri və zəhmətləri nəticəsində yeraltı suvarma kanalı və ya su quyusu yaradaraq, həyat bəxş edən yeraltı su mənbələrindən istifadə edirlər.

Yağış dənələri xüsusi bir şəraitdə qar şəklinə çevrilərək yumşaq və gözəl şəkildə yerə yağır. Qar bitkilər üçün çox faydalıdır. O, tədricən suya çevrilir və yerin altında ehtiyat

mənbəyi olur, yaxud da çaylarda axmaqla ehtiyaclıların ehtiyacını ödəyir və sonda dənizə tökülür.

Buxarın yuxarıya doğru getmə xüsusiyyəti və onun külək vasitəsi ilə yerini dəyişməsi də diqqətəlayiqdir. Əgər küləyin gücü olmasaydı, buludlar havada necə yayıla bilərdi? Müxtəlif yerlərə necə gedə bilərdi? Əgər Günəş istilik salmasaydı, dəniz suyu buxarlanardımı? Əgər dəniz suyu yalnız yüz dərəcə temperaturda buxarlansaydı, varlıqlara kifayət qədər çata bilərdimi? O vaxt insanlar üçün yaşayış mümkün olardımı? Əgər yağış damcı-damcı yağmasaydı, hansı çətinliklər qarşıya çıxardı? Məsələn, əgər yağış eyni bir yerə və bolsulu çaylar şəklində yağsaydı, nə olardı? Yer tədricən bu suları özünə çəkib ehtiyat saxlaya bilərdimi?

Yağışın və qarın xüsusiyyətlərindən biri də havanı təmizləməkdir ki, bu da maraqlıdır. Əgər qar və yağış havanın zəhərini təmizləməsəydi, rahat bir şəkildə tənəffüs edə bilərdikmi?

İndi yaxşıca diqqət edin! Görün su, qar və yağışın necə də dəyərli xassələri var! Dəniz, Günəş, külək, bulud və yağış necə də nizam-intizamla, dəqiq bir harmoniya ilə bir yerdə və bir-birinin ardınca öz işlərini görür, bizi və digər canlı varlıqları yaşayış vasitələri ilə təmin edir.

Bu nizam-intizam, harmoniya və əməkdaşlıq nəyi sübut edir? Bu, aləmin yaranışında şüurlu bir varlığın rolu olmasına ən yaxşı dəlil deyilmi? Bu nizam-intizam və harmoniya bizə demirmi ki, alim və qüdrətli bir varlıq bütün bunları uzaqgörənliklə yaratmışdır? O, insanı və başqa varlıqları yaratmış, ehtiyacları olan hər bir şeyi etmişdir.

Suyun dəyəri, əhəmiyyəti və xassələri ilə daha çox tanış olduqdan sonra Allahın bu nemətlərin əvəzində bizim üçün müəyyən etdiyi vəzifələrə nəzər salaq. O, bizə əmr edib ki, bu həyat bəxş edən nemətdən istifadə edib Ona şükür və ita-

ət edək, həm özümüz içək, həm də başqalarına içizdirək. Özümüzü və yaşayış mühitimizi onunla təmizləyək. Onu boş yerə işlətməkdən çəkinək. Suyun istifadəsində qənaət edək ki, başqaları su qıtlığı ilə üzləşməsinlər. Çayları, dənizləri və dəniz sahillərini zibilləməyək. Yeraltı suları qorumağa çalışaq, insanların, heyvanların və bitkilərin həyatının bağlı olduğu bu böyük ilahi nemətdən yerin abadlaşdırılması və ümumi ehtiyacların təmin olunması üçün yaxşı istifadə edək.

Uca Allah Quranda buyurur:

" وَجَعَلْنَا مِنَ الْمَاءِ كُلَّ شَيْءٍ حَيٍّ "

***"Məgər kafir olanlar göylə yer bitişik ikən Bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi?!"*[1]**

"اللَّهُ الَّذِي يُرْسِلُ الرِّيَاحَ فَتُثِيرُ سَحَابًا فَيَبْسُطُهُ فِي السَّمَاءِ كَيْفَ يَشَاءُ وَيَجْعَلُهُ كِسَفًا
فَتَرَى الْوَدْقَ يَخْرُجُ مِنْ خِلَالِهِ فَإِذَا أَصَابَ بِهِ مَنْ يَشَاءُ مِنْ عِبَادِهِ إِذَا هُمْ يَسْتَبْشِرُونَ"

***"Buludları hərəkətə gətirən küləkləri göndərib onları göy üzündə istədiyi kimi yayan və topa-topa edən Allahdır. Artıq buludların arasından yağış çıxdığını görürsən. Onu (yağışı) bəndələrindən istədiyinə verən kimi onlar sevinərlər"* .[2]**

"هُوَ الَّذِي أَنْزَلَ مِنَ السَّمَاءِ مَاءً لَكُمْ مِنْهُ شَرَابٌ وَمِنْهُ شَجَرٌ فِيهِ تُسِيمُونَ * يُنْبِتُ لَكُمْ
بِهِ الزَّرْعَ وَالزَّيْتُونَ وَالنَّخِيلَ وَالأَعْنَابَ وَمِن كُلِّ الثَّمَرَاتِ إِنَّ فِي ذَلِكَ لآيَةً لِقَوْمٍ يَتَفَكَّرُونَ"

***"Göydən sizin üçün yağmur endirən Odur. Ondan (o sudan) siz də, içində (heyvanlarınızı) otardığınız ağaclar və otlar da içər. Allah o su ilə sizin üçün əkin (taxıl, bitki), zeytun,***

---

[1]"Ənbiya", 30

[2]"Rum", 48

***xurma, üzüm və bütün başqa meyvələrdən yetişdirir. Düşü-nüb-daşınanlar üçün bunda dəlillər vardır!"[1]***

* * *

[1]"Nəhl", 10-11

## *Bitkilərin yaşıl yarpağı*

Bizim hamımızın qidaya ehtiyacımız var və qidalanmadan yaşamaq və işləmək mümkün deyildir. Ağaclar və bitkilər bizim üçün qida hazırlayır. Bitkilərin yaşıl yarpağı qida hazırlayan kiçik bir zavoddur; iş görür və bizim üçün qida hazırlayır.

Bitkilər, misal olaraq, alma ağacı, suyu və qeyri-üzvi maddələri kökləri vasitəsi ilə yerdən alır və budaq vasitəsi ilə yarpaqlara ötürür.

Havada olan karbon qazı da yarpaqların çox kiçik deşiklərindən daxil olur. Günəşin işığı və enerjisi də yarpaqlara saçır. Bu zaman yaşıl yarpaqların "zavodu" işə düşür və Günəş işığının köməyi ilə qida hazırlayır.

Bitkilər özlərinə lazım olandan artıq qida hazırlayır. Bu qidanın bir hissəsini yaşamaq və böyümək üçün özləri istifadə edir, qalan hissəsini isə bizim üçün ehtiyat yığır.

Qoyunlar və inəklərin də qidaya ehtiyacları var. Onlar yaşıl ot-ələf yeməklə bizə süd, yağ, pendir, qatıq və ət verirlər. Toyuqlar da dən yeməklə bizləri ət və yumurta ilə təmin edirlər.

Bütün heyvanlar bitkilərə ehtiyaclıdır. Onların hamısının yeməyi yaşıl bitkilər vasitəsi ilə təmin olunur. Heç bir insan və heç bir heyvan öz yeməyini bitkilərin köməyi olmadan təmin edə bilməz. Əksinə, hamının bitkilərə ehtiyacı var.

İnsanların bitkilərə və heyvanlara ehtiyacı var. Heyvanlar bitkilərə ehtiyaclıdır və bitkilər qida hazırlayıb özlərini və başqa varlıqları qida ilə təmin etmək üçün suya, torpağa, karbon qazına və Günəş işığına möhtacdır.

Bitkilərin bizə qida hazırlaması üçün aləmə işıq saçan və enerji yayan Günəşi yaradan kimdir? Ağacları və bitkiləri belə nizamlı, harmonik yaradıb onun yaşıl, gözəl yarpaqlarına qida hazırlamaq gücünü verən kimdir?

Hər bir şeydən xəbərdar olan və hər bir işə gücü çatan o alim və qüdrətli şəxs "Allah" dır.

O alim və qadir Allah bizi istədiyi üçün bütün ehtiyaclarımızı öncədən bilib yaratmışdır. Biz də Onu istəyir, nemətlərinə şükür edir, göstərişlərini qəbul edib əməl edirik. Allahdan daha yaxşı kim bizim yaşayışımıza yol göstərən ola bilər?

* * *

## Həzm sistemi

Bizim sağlamlıq, yaşamaq, iş və hərəkət üçün qidalanmağa ehtiyacımız var. Bədənimizin ehtiyaclı olduğu maddələr yediyimiz yeməklərdə mövcuddur. Amma çox zaman qidalar öz ilkin forması ilə bədənimizin hüceyrələri tərəfindən sorulmur, gərək əvvəlcə həzm olunsun. Yeməyin həzmi bu mənadadır ki, həzm sistemində baş verən çoxlu proses və reaksiya nəticəsində bəzi maddələr başqa bir sıra maddələrə, qida molekulları çox kiçik molekullara parçalanır ki, bədənin müxtəlif hüceyrələri tərəfindən sorulsun. Çox mühüm olan bu proses həzm sistemi vasitəsi ilə yerinə yetirilir. Həzm orqanı ağızdan başlayan və anusda qurtaran bir borudan ibarətdir. Qida bu kiçik "zavod"dan keçərək yüz minlərlə çox incə və qəribə reaksiyalar nəticəsində həzm olunur və sorulub istifadə olunur. Başqa bir çox dəqiq işlər də yerinə yetirilir ki, onların hamısını burada qeyd etmək mümkün deyildir. Misal olaraq, onlardan bəzisinə işarə edirik.

Həzm borusu bir neçə hissəyə bölünür. Hər bir hissənin işinə qısa şəkildə aydınlıq gətiririk.

***Ağız.*** Ağızda bir neçə üzv var ki, onların fəaliyyətinin yeməyin həzmində təsiri vardır. Bunlar dodaqlar, xüsusi bir sı-

ra ilə düzülmüş dişlər, çənələr və üç cüt ağız suyu vəzilərindən ibarətdir.

Qida ağıza daxil olduqdan sonra dodaqlarla ağızın "qapı"sını bağlayırıq ki, yemək çölə tökülməsin. Dil ağızda fırlanır və qidanı dişlərin altında yerləşdirir. Aşağı çənə yuxarıya və aşağıya doğru hərəkət edir ki, loğma yaxşı çeynənilsin və yumşalsın. Bütün bu hallarda ağız suyu vəziləri loğmanın üzərinə maye ifraz edir və bunun yeməyin həzmində və onun islanmasında çoxlu təsiri var. Ağız suyu vəzilərinin ifrazı başqa vaxtlarda da davam etdirərək ağızı, dili və dodaqları rütubətli saxlayır, danışmağı və nəfəs çəkməyi asanlaşdırır. Onun dadbilmə hissində də təsiri var.

***Qidanı udmaq.*** Boğazda üç yol var. Burun yolu, nəfəs yolu və mədəyə birləşən qida borusu. Yemək burun və nəfəs yoluna daxil olmamalıdır, yoxsa nəfəs çəkməyə mane olar və insan boğular. Qida ağızda udulmaq üçün hazır olarkən dil onu toplayıb boğaza tərəf yollayır. Həmin vaxt yumşaq damaq yuxarıya tərəf gedir və burun yolunu bağlayır. Nəfəs yolu da qırtlaq qapağı vasitəsi ilə bağlanır. Təkcə açıq yol qida borusudur. Yemək qida borusuna daxil olur və onun divarlarının dalğavari hərəkəti ilə mədəyə tərəf qovulur.

Nəfəs borusunun axır hissəsinin halqavari əzələləri adi halda sıxılır və mədəyə daxil olanların nəfəs borusuna girməsinin qarşısını alır. Amma bu nahiyəyə tüstüşəkilli hər bir dalğanın yetişməsi ilə əzələlərin sıxılması aradan gedir və yeməyin mədəyə daxil olması asanlaşır.

***Mədə.*** Qidalı maddələr bir müddət mədədə qalır. Müxtəlif yemək növlərinin mədədə qalma müddəti arasında fərq vardır. Yemək mədəyə daxil olduqdan sonra onun əzələlərində zəif sıxılmalar olur. Bu sıxılmalar tədricən şiddətlənir və onların sayı daha da çoxalır. Onlar tüstüşəkilli dalğalar formasında qida borusunun aşağısından başlanır və mədə boyu on-

ikibarmaq bağırsağa tərəf gedir. Onikibarmaq bağırsağa yaxınlaşdıqca daha da şiddətlənir və qidalı maddələrin yumşalmasına səbəb olur və onlar mədə şirəsi ilə qarışır. Mədənin daxilini örtən selikli qişada qidanın üzərinə mədə şirəsi ifraz edən vəzilər vardır. Bu prosesdə nişasta qilikozaya və zülallar amin turşusuna çevrilir. Qidalı maddələr daha kiçik molekullara parçalanır və bədənin müxtəlif hüceyrələri tərəfindən sorulur. Qidalı maddələr bu proseslər və reaksiyalar nəticəsində qida horrası adlı xəmir kimi bir maddəyə çevrilir, sonra tədricən onikibarmaq bağırsağa daxil olur.

***On iki barmaq bağırsaq.*** Nazik bağırsağın əvvəli onikibarmaq bağırsaq adlanır. Yemək nazik bağırsağa daxil olmazdan öncə əvvəlcə onikibarmaq bağırsağa daxil olur. Bu yerdə mədəaltı vəzi və öd kisəsi vasitəsi ilə onun üzərinə şirələr ifraz olunur və bunun, qidanın tənzim və həzm olunmasında təsiri vardır.

***Nazik bağırsaq***. Yemək onikibarmaq bağırsaqda dayanmır, oradan nazik bağırsaq vasitəsi ilə sorulur və qana daxil olur. Qanın hərəkəti ilə bədənin bütün hüceyrələrinə çatdırılır. Nazik bağırsağın daxili səthi çoxlu məxmərvari çıxıntılara malikdir ki, onlara "xov" deyilir. Nazik bağırsağın daxili divarı həzm olmuş qidalı maddələri sorub qaraciyərə ötürən böyük və kiçik kapliyar qan damarı şəbəkəsinə malikdir.

***Yoğun bağırsaq***. Yoğun bağırsaq həzm borusunun axır hissəsidir. Qida yoğun bağırsağa daxil olduqda artıq onda faydalı və sorulası bir maddə qalmır. Onda qalan yalnız bir miqdar sudan, duzlardan və bir miqdar yemək maddələrinin həzm olmamış hissəsindən ibarətdir. Böyük bağırsağın divarı, suyu və duzları sorur və axırda diri, ölü bakteriyalara şamil olan yarımöhkəm nəcisi və həzm olunmayan maddələri anus yolu ilə çölə çıxarır.

* * *

## Görmə orqanı

Siz indi bu kitabı göz vasitəsi ilə oxuyursunuz və onun dəyərini tam surətdə dərk edirsiniz. Amma, bəlkə də, indiyə kimi bu kiçik, zərif üzvün quruluşunda olan sirlər, incəliklər və dəqiqliklər barəsində lazımi qədər fikirləşməmisiniz. Göz Allahın ən gözəl və ən qəribə nişanələrindən biridir. Onun yaranışının necəliyinə diqqət etməklə, aləmin yaradıcısı olan alim, qadir Allahın varlığını dərk etmək və Onun sonsuz elm və qüdrətinin bir hissəsi ilə tanış olmaq olar. Gözdəki qəribəliklər o qədər çoxdur ki, hamısını bu yazıda ifadə etmək mümkün deyildir. Lakin bununla belə onlardan bəzisinə işarə edirik. Əvvəlcə gözün quruluşu ilə tanış olaq. Sonra isə bu məlumatlardan istifadə etməklə allahıtanıma dərsi ilə tanış olaq.

**Göz almasının quruluşu**

Çox dəqiq bir fotoaparat kimi, hətta ondan da dəqiq işləyən göz alması, görmənin əsas üzvüdür. Göz alması üç pərdədən təşkil olunmuşdur: sklera (göz almasının qeyri-şəffaf xarici qişası), damarlı qişa və torlu qişa.

***1. Sklera.*** Sklera göz almasının tamamilə bürüyən təqribən bir millimetr qalınlığı olan möhkəm, ağ və saf olmayan bir pərdədir ki, onu qoruyur. Skleranın qabarıq və şəffaf olan və

işığı asanlıqla özündən keçirən ön hissəsi buynuz qişa adlanır.

***2. Damarlı qişa (Narın tüklə örtülmüş rüşeymin xarici pərdəsi).*** Damarlı qişa sklera daxilində olan və gözün daxilini qaranlıq, kiçik bir otağa çevirən nazik və qara pərdədir. Damarlı qişanın daxilində gözə qida çatdıran çoxlu qan damarları var. Həqiqətdə damarlı qişa gözə qida verən pərdə rolunu da oynayır. Damarlı qişanın ön hissəsi dairəvi pərdə şəklindədir ki, gözün buynuz qişasının arxasında yerləşir və qüzeh qişa adlanır.

Qüzeh qişanın ortasında bəbək adlı üç-altı millimetr diametrli bir deşik var. Bəbək işığı tənzimləmək üçün avtomatik yumulub açılır və lazım olan işığı gözün daxilinə yollayır.

***3. Torlu qişa.*** Torlu qişa göz almasının ən daxili qatı və həssas pərdəsidir. Gözün qarşısında təsvir olunan xəyallar bu pərdənin üzərinə düşür. Torlu qişanın daxili səthi öncə rəngli qatla, sonra isə görmə hüceyrələri ilə örtülmüşdür. Görmə hüceyrələri iki növdür. Onlardan bəzisinin silindr şəkilli çıxıntısı vardır və "çöpcük" adlanır. Konus şəkilli çıxıntısı olan digər növ isə "kolbacıq" adlanır. Təqribi hesablamaya əsasən, çöpcüklərin sayı 120 milyon və kolbacıqlar isə 5 milyondur.

Görmə sinirini təşkil edən və beyinə daxil olan iki və daha artıq qütblü neyronlar qatı, sıra ilə görmə hüceyrələrindən sonra yerləşir.

***Sarı ləkə.*** Göz almasının arxa hissəsində torlu qişanın pərdəsi üzərində olan sarı ləkə adlı bir millimetr oval şəkilli batıq vardır. Sarı ləkə, düz göz bəbəyinin qarşısında fotoresepsiya baş verən yerdə yerləşir. Sarı ləkə torlu qişanın ən həssas hissəsidir. Kolbacıqlar sıxılmış formada orada bir yerə yığılır və onlardan hər biri bir sinir lifi vasitəsilə beyindəki görmə mərkəzi ilə əlaqə yaradır. Cismlərin aydın şəkildə görünməsi

üçün avtomatik surətdə gözlərimizi o cismin üzərinə elə fırladırıq ki, onun xəyalı sarı ləkənin üzərinə düşsün.

## Göz almasının işıqsındırıcı mühiti

İşıqsındırıcı mühit göz almasının işığı özündən keçirib torlu qişada toplayan hissələrinə deyilir. İşıqsındırıcı mühit buynuz qişadan, ön kameradan, büllurdan və şüşəyəbənzər cismdən ibarətdir.

*1. Buynuz qişa.* Qabarıq və şəffaf olan buynuz qişa skleranın ön hissəsində yerləşir.

*2. Ön kamera.* Ön kamera buynuz qişa ilə büllur arasındakı fəzanı dolduran şəffaf bir mayedir.

*3. Büllur.* Hər iki tərəfi qabarıq olan büllur, gözün qabaq hissəsində və qüzeh qişanın arxasında yerləşir. Bilməyiniz yaxşı olardı ki, büllur zinn bağları vasitəsi ilə damarlı qişaya birləşir. Büllurun üzəri "kristal" adlı nazik, şəffaf və elastik pərdə ilə bürünmüşdür. Büllur uzun hüceyrələrdən təşkil olunmuşdur ki, onlardan bəzisi nüvəyə malikdir. Büllurun möhkəm və sıx şəkildə yerləşmiş telləri onun nüvəsini təşkil edir.

*4. Şüşəyəbənzər cism.* Şüşəyəbənzər cism göz almasının daxili oyuğunu tamamilə dolduran şəffaf bir maddədir və nazik pərdə şəkilli mühitin bir hissəsində toplanmışdır.

## Əşyaları necə görürük?

Gözümüzün qarşısında olan cismlərdən gözümüzə tərəf işıq şüaları əks olunaraq buynuz qişadan keçib bəbək yolu ilə büllura daxil olur. Daha sonra büllurdan keçərək göz almasının sonunda büllur ilə üzbəüz yerləşən sarı ləkədə əks olunur. Beləliklə, sarı ləkənin kolbacıqlarında həmin cismin kiçilmiş tərs xəyalı alınır. Kolbacıqlar bu xəyalı sinir lifləri vasitəsilə beyindəki görmə hüceyrələrinə çatdırırlar. Bu zaman

insanın ruhu bütün bu təbii proseslər və reaksiyalar nəticəsində əşyaları görə bilir və onların rəngindən, ölçüsündən, uzaqlığından, yaxınlığından xəbərdar olur.

**Göz uyğunlaşması nə deməkdir?**

Öyrəndik ki, əşyalar, onların xəyalı sarı ləkənin həssas nöqtəsindən arxada, yaxud qabaqda olarkən yox, məhz həmin nöqtənin üzərində olarkən aydın görünür. Büllur adi halda altmış metr və daha çox məsafədə yerləşən bir əşyanı, aydın bir şəkildə gözün həssas nöqtəsi üzərinə, yəni sarı ləkənin üzərinə ötürür. Amma görünən şeylə göz arasındakı məsafə nə qədər az olarsa, onun xəyalı da bir o qədər sarı ləkədən arxada əks olunacaq. Nəticədə, əşya aydın şəkildə görünməyəcək.

Amma gözün yaranışında işlənən məharət bu çətinliyi aradan qaldırır. Belə ki, göz büllurunun qabarıqlığı dəyişəndir. Sağlam və təbii göz avtomatik şəkildə öz büllurunu görünən şeyin uzaqlığı və yaxınlığı ilə uyğunlaşdırır və öz qabarıqlığını lazım olan ölçüdə azaldır və çoxaldır. Cismin məsafəsi adi miqdardan az olduqca göz büllurunun qabarıqlığı da bir o qədər çox olur ki, o şeyin təsviri düz sarı ləkənin həssas nöqtəsində əks olunsun. Belə ki, xüsusi kirpik əzələləri gözə təzyiq göstərir və bu təzyiq büllurun zinn bağlarının dartılmasına səbəb olur. Nəticədə, büllurun ətrafları dartılmış olur və onun möhkəm nüvəyə malik olan ortası daha çox qabarır. Yaxın əşyaları görmək üçün büllurun qalınlığı daha da çoxalır və nəticədə, onun fokus məsafəsi dəyişir. Uzaqdakı əşyaları görmək üçün isə, əksinə, büllurun qalınlığı azalır və fokus məsafəsi çoxalır. Bu işi uyğunlaşma adlandırırlar. Uyğunlaşma, əşyaları görərkən gözün yerinə yetirdiyi ən dəqiq və ən sürətli işlərdən biridir. Ətrafımıza baxıb yaxındakı və uzaqdakı əşyaları və mənzərələri müşahidə etdiyimiz hər bir

dəqiqədə əşyaları aydın şəkildə görmək üçün gözün qabarıqlığı yüzlərlə dəfə bir-birinin ardınca dəyişir. İndiyə kimi gözün bu çox zərif və dəqiq işinə diqqət etmişdinizmi?

**Allahı tanıma dərsi**

Öyrəndik ki, bu kiçik cism yüzlərlə daha kiçik üzvlərdən və milyonlarla müxtəlif hüceyrələrdən təşkil olunmuşdur. Hər birinin xüsusi vəzifəsi var və öz vəzifəsini dəqiqliklə yerinə yetirir. Göz zahirdə kiçik bir cism olmasına baxmayaraq, həqiqətdə, diqqətlə və incəliklə daimi olaraq şəkil çəkən əzəmətli bir aparat və vahid bir hədəfi izləyən harmonik və əlaqəli olan bir sistemdir ki, insanın mühüm ehtiyaclarından birini, yəni görməyi təmin edir. Doğrusu, əgər görmə qabiliyyəti olmasaydı, aləm bizim üçün nə qədər qaranlıq və zülmət olardı!

İndi isə bəzi sualları öz əqlimizdən soruşaq və onun cavabını eşidək:

Görəsən, gözdə olan üçqatlı pərdələr öz-özünəmi yaranmış, yoxsa başqa birisi onları xüsusi bir hədəf üçün öncədən nəzərdə tutmuşdur?

Gözün işıqsındırıcı mühiti təsadüfən şəffaf olmuşdur, yaxud başqa birisi onu şəffaf etmişdir ki, işıq oradan keçə bilsin?!

Göz, damarlı qişanın və şüşəyəbənzər cismin şəffaf mayesini necə hazırlayır? Bu iki mayeni xüsusi qayda ilə qatı şəkildə yaradan kimdir? Maye ifraz edən vəzilərin gözün ehtiyacından xəbəri varmı? Bəbək öz-özünəmi əmələ gəlmişdir, ya insan özü işığın keçmə məsaməsini gözün ehtiyacı bilib, onu belə yaratmışdır? Bəbək özü xüsusi bir diametri öncədən özü üçün nəzərdə tutub seçmişdir, yoxsa başqa birisi onun varlığının çertyojunu cızıb onu belə yaratmışdır? Bəbək bilirdimi ki, işığı nizamlamaq üçün yumulub açılmağa ehtiyacı var? Ya

başqa birisi onun ehtiyacından xəbərdar imiş və onu belə yaratmışdır? Sarı ləkə təsadüfi olaraq bəbəyin qarşısında və göz büllurunun mərkəzində yerləşmişdir ki, əşyaların xəyalı onda əks olunsun, yoxsa başqa birisi onu belə yerləşdirmişdir?

Göz qişasının ən həssas hüceyrələri təsadüfi olaraq sarı ləkədə və düz büllur ilə üzbəüz yerləşdirilmişdir, yoxsa başqa birisi onları belə yerləşdirmişdir? Sarı ləkənin hüceyrələrindən informasiyanı alıb beyinə göndərən görmə sinirinin liflərinin onlarla əlaqəli olması təsadüfi bir işdirmi, yoxsa başqa birisi belə bir işi öncədən nəzərdə tutmuşdur? Görmə sinirinin gözdən beyinə getməsi öz-özünə və hədəfsizdirmi, ya burada müəyyən hədəf vardır?

Göz büllurunu bütün bu incəliklə kim yaradıb və onun planını hansı mahir fizik cızıb?

Gözün fizika elmi və büllur barəsində məlumatı var idimi? Büllur özünün əhəmiyyətli rolundan xəbərdardırmı? Büllurun üzərində olan pərdə təsadüfən elastik olmuşdur? Uyğunlaşma prosesini gözün özü büllur üçün mümkün edib hazırlamışdır, ya başqa birisi onun üçün öncədən nəzərdə tutmuşdur?

Nəhayət, bu nizamlı, harmonik, bir-biri ilə bağlı və müəyyən hədəfi olan bu kompleks öz-özünəmi və təsadüfi olaraq əmələ gəlmişdir, yoxsa elmli və qüdrətli bir yaradan onu yaratmışdır? Hər bir ağıl sahibi üçün cavab aydındır. Dəqiq və incə olan görmə orqanını araşdırma bizi onun alim və qüdrətli olan yaradıcısına tərəf yönəldir. Bu incə aparatdan Onun sonsuz elminin və qüdrətinin nişanələrini əyani surətdə müşahidə edirik.

### Görmə orqanının köməkçi üzvləri

Burada ilk öncə görmə aparatının köməkçi üzvləri ilə tanış olaq; o üzvlər ki, onlar olmadan görmə işi naqis olar. Bəzi

sualların üzərində düşünməklə onun xaliqinin axtarışında olacağıq.

Əvvəlcədən işarə etdiyimiz kimi, görmə aparatı iki hissədən ibarətdir:

1. Görmə işini yerinə yetirən göz alması.

2. Gözü qoruyan, hərəkət etdirən və onun gigiyenasını üzərinə götürən köməkçi üzvlər. Bu üzvlər göz çuxurundan, göz qapaqlarından, göz yaşı vəzisindən, gözü fırlandıran əzələlərdən və sinirlərdən ibarətdir. Bunların hər birinin işi ilə tanış olmaq üçün qısa şəkildə onlara işarə edirik.

***1. Göz çuxuru.*** Göz çuxuru, oturacağı qabaqda, baş tərəfi isə arxada olan piramida şəkilli sümükdən olan bir oyuqdur. Göz çuxuru çökük pərdə vasitəsi ilə iki hissəyə bölünür:

a) Göz almasının yerləşdiyi ön hissə;

b) Görmə sinirlərinin, göz almasını fırladan əzələlərin, hiss və hərəkət sinirlərinin, eləcə də qan damarlarının yerləşdiyi arxa hissə. Onların arasında olan bütün fəzanı yağ toxuması doldurur.

***2. Qaşlar.*** Göz çuxurunun yuxarısında yerləşir və gözə tərin tökülməsinin qarşısını alır.

***3. Göz qapaqları.*** Göz qapaqları göz almasının üzərinə çəkilən və sifətin bir hissəsini təşkil edən dəridir. Hər bir göz qapağının üst səthi dəridir, daxili isə əzələ toxumasından və birləşdirici toxumadan ibarətdir. Göz qapağının daxili səthini konyunktiv adlı (göz qapağını gözlə birləşdirən selikli qişa) şəffaf bir toxuma bürüyür. Göz qapaqları əzələləri iki növdür:

1. Özləri yığılaraq göz qapaqlarını yuxarı qaldıran və gözün açılmasına səbəb olan əzələlər.

2. Göz almasının üzərinə göz qapağını çəkən dairəvi əzələlər.

Göz qapaqları göz almasını mühafizə edir və xarici zərrəciklərin gözə daxil olmasının qarşısını alır. Xüsusilə yatan vaxt gözün fəaliyyətinə ehtiyac olmadığı üçün, göz qapaqları gözün üzərini tamamilə bürüyür və ehtimal olunan zərərlərin qarşısını alır. Bundan başqa, göz qapaqlarının daxili kənarında bir sıra dəliklər (25-26 dəlik) vardır ki, bu dəliklərdən göz almasını yumşaq saxlamaq üçün xüsusi bir yağlı maye ifraz olunur. Yuxarı göz qapaqları öz nizamlı və sürətli hərəkətləri ilə göz yaşını gözün bütün hissələrinə çatdırır, müntəzəm olaraq onu yuyur və toz-torpaq vasitəsi ilə çirklənməyə qoymur.

***4. Kirpiklər.*** Göz qapaqları kənarında qısa tüklər şəklində yerləşmişdir.

***5. Göz yaşı vəzisi.*** Hər bir gözün xarici və yuxarı hissəsində göz yaşı vəzisi adlanan bir vəzi vardır. Bu vəzinin işi sudan və bir az duzdan təşkil olunan göz yaşı hazırlamaqdır. Bu vəzilərdən sızılan göz yaşı göz qapaqlarının yaxın səthini, göz almasını həmişə nəmli saxlayır və onu yuyur. Qalmış göz yaşı gözün daxili hissəsində cəmlənir və oradan göz kanalı vasitəsi ilə buruna tərəf axır. Orada tədricən buxarlanaraq nəfəs yolunun havasını nəmli edir.

***6. Gözü fırladan əzələlər.*** Bu əzələlər göz almasını müxtəlif cəhətlərə hərəkət etdirir və aşağıdakılardan ibarətdir:

a) Göz almasını xaricə fırladan xarici əzələlər;

b) Göz almasını daxilə, buruna tərəf fırladan daxili əzələlər. Hər gözün xarici əzələlərinin yığılması, əsasən digər gözün daxili əzələləri vasitəsilə olur və nəticədə, hər iki göz bir yerdə sola və sağa fırlanır.

c) Göz almasını yuxarıya fırladan yuxarı əzələlər;

ç) Göz almasını aşağıya fırladan aşağı əzələlər və s.

*7. Sinirlər.* Torlu qişadan görmə qıcıqlarını alan və elektrik dalğaları şəklində beyinin görmə mərkəzinə köçürən sinirlər, eləcə də başqa bir sıra sinirlər.

**Allahı tanıma dərsi**

İndi isə bəzi suallara öz yanımızda aydınlıq gətirək.

Görəsən, gözün, öz varlığının əhəmiyyətindən, incəliyindən xəbəri var ki, möhkəm sümükdən olan bu göz çuxurunu özü üçün təhlükəsiz yer olaraq seçmişdir? Yoxsa təsadüfi olaraq belə bir təhlükəsiz yerdə yerləşmişdir? Yoxsa başqa birisi belə bir təhlükəsiz yeri onun üçün nəzərdə tutmuşdur?!

Gözün özü tərin qarşısını almaq üçün qaşları öz üzərində yaratmışdır? Ya qaşlar onun ehtiyacından xəbəri olub ona kömək etmək istəmişlər? Yoxsa başqa bir kəs qaşları gözün yuxarısında yaratmışdır?

Göz qapaqları təsadüfi olaraq gözləri mühafizə etmək, yumşaq saxlamaq və yumaq üçün belə olmuşdur? Göz qapaqlarının gözün gigiyenasından xəbəri olub ki, gözün üzərinə yağ sürtür və sürətli hərəkətlə göz yaşı ilə həmişə gözü yuyur? Yoxsa elmli, qüdrətli bir Xaliq onları belə yaratmışdır?

Göz yaşı vəzisi təsadüfi olaraq gözün kənarında qoyulmuşdur? Bu dizinfeksiyaedici mayeni kim hazırlayır? Göz yaşı vəzisi bilirdi ki, göz səthinin dizinfeksiyası üçün şor su lazımdır? Gözün kənarındakı artıq qalan yaşların xaric olduğu dəliklər təsadüfi olaraq yaranmışdır? Ya gözün özü bu dəliyi hazırlamışdır? Göz burunun tənəffüs aparatının rütubətə olan ehtiyacından xəbərdardır ki, artıq qalan göz yaşının kanalını buruna tərəf yönəltmişdir? Yoxsa alim və qüdrətli olan bir yaradan bütün bunları öncədən nəzərdə tutmuşdur?

Göz qapaqlarındakı yağ ifraz edən dəliklər təsadüfən, öz-özünəmi yaranmışdır? Yoxsa göz onlara ehtiyacı olduğu üçün

onları yaratmışdır? Göz qapaqlarının xəbəri var ki, bu yağın ifrazı ilə gözün gigiyenasına necə köməklik etmiş olur?

Gözün əzələləri və qapaqları öz müxtəlifliyi ilə öz-özünə və təsadüfi olaraq yaranmışdır? Ya göz onları yaratmışdır? Yoxsa başqa birisi bunları öncədən nəzərdə tutub yaratmışdır?

Görmə siniri bu bütün incəliklə öz-özünəmi gözü beyindəki görmə mərkəzi ilə əlaqələndirir? Ya şüurlu bir varlıq bu əlaqəni yaratmışdır?

Bir sözlə desək, bütün komponentləri bir-biri ilə sıx şəkildə bağlı olan və vahid bir hədəfi, yəni görmə prosesini izləyən bu harmonik nizamlı kompleks təsadüfən yarana bilərmi?

Bəli, hər bir ağıllı insan cavab verəcək ki, quruluşunda yüzlərlə qanun və minlərlə incəliklər işlənən bu harmonik və nizamlı kompleksin təsadüfən yarana bilməsini ehtimal vermək olmaz. Şübhəsiz, onu alim, qadir olan bir Xaliq yaratmışdır.

Düzgün cavab da elə budur. Göz almasının incə quruluşuna baxanda, gözlə onun köməkçi üzvləri arasında olan əlaqəni, bütün bunların beyinlə olan əlaqələrini, bu məcmunun (gözün) bədənin başqa hissələri ilə olan əlaqəsini və bədənin məcmusunun xarici aləmlə olan əlaqəsini araşdırarkən, bütün aləmin başdan başa nizam-intizam və komponentləri bir-biri ilə əlaqəli olan böyük bir sistem olduğunu görəcək və aydın şəkildə müşahidə edəcəyik ki, bu böyük aləmi əzəmətli, elmli, qüdrətli bir yaradan yaradıb idarə edir.

Əgər diqqətlə və ağlın gözü ilə baxsaq, aləmin əzəmətli yaradıcısının hikmət, qüdrət və elminin nişanələrini hər yerdə müşahidə edər, Onu tanıyar, Ona ürək bağlayar və qüdrəti qarşısında təzim edər, sonsuz nemətlərinə ürəkdən şükür edərik. Onun pak məhəbbəti varlığımızı başdan ayağa bürü-

yər. Yalnız Onu ibadətə layiq bilib sitayiş edər, yalnız Onun göstərişlərini qəbul edər və yalnız Ona təslim olarıq.

* * *

## *Qan dövranı*

Qan dövranı sistemi çox maraqlı və qəribədir. Siz indi bu kitabı oxuyarkən ürəyiniz təqribən dəqiqədə yetmiş dəfə döyünür. Ürək özünün davamlı və dəqiq döyüntüsü ilə bədənizin bütün hüceyrələrinə qida və oksigen çatdırır. Bilirsinizmi, əgər ürək bir neçə dəqiqə hərəkətdən dayanarsa, nə baş verər?

Qan dövranı sistemində (qəlb, arteriya, vena, kapilyar damarlar) araşdırma bizi onun elmli və qüdrətli yaradanının varlığına yönəldir.

Qan bir su kanalı kimi bədənin bütün hüceyrələrinin kənarından keçərək onlara qida və oksigen çatdırır. Qan mayesinin daxilində eritrositlər (qırmızı qan cismciyi) üzür. Hər bir kub millimetr qanda təxminən beş milyon eritrosit və hər bir insanın bədənində təxminən 25000 milyard eritrosit var. Eritrositlərin işi çox dəqiq və maraqlıdır. Eritrositin vəzifəsi oksigeni hüceyrələrə çatdırmaq və karbon iki oksidi onlardan almaqdır. Qan həyat bəxş edən bu vəzifəni yerinə yetirmək üçün daim bədənin damarlarında hərəkətdədir. Bu yolun uzunluğu çoxdur. Bir eritrositin ömrü orta hesabla 120 gündür və bədənin qan hazırlama mərkəzləri vasitəsi ilə müntəzəm olaraq yeni eritrositlər hazırlanır.

Yaxşı olar ki, bir dəstə eritrositlər ilə "elmi bir ekskursiya"

təşkil edək, bacardığımız qədər onların səfər etdikləri müxtəlif bölgələrə "gedək" və qan dövranı sistemində olan əzəmətli nizam-intizamı və dəqiq harmoniyanı müşahidə edək. Bu dəqiq nizam-intizamı və harmoniyanı müşahidə etməklə qəti şəkildə deyəcəyik ki, böyük, elmli və qüdrətli bir yaradan belə bir sistemi yaratmışdır.

**1. Hərəkətin birinci dayanacağı**

Əgər evinizdə ürəyin təsvir olunduğu bir şəkil varsa, onun sol mədəciyinə baxın. Bizim fərz olunan ekskursiyamız şənbə günü səhər saat 9-da özü ilə oksigen götürən bir dəstə eritrositlər ilə başlanır. Sol mədəciyin sıxılması ilə yaranan şiddətli hərəkət bizi "dayanacaq"dan hərəkətə gətirir. Çox təəccüblü və görməli olan, bir neçə qola ayrılan geniş bir kanala çatırıq. Aorta arteriyası öz müxtəlif şaxələri ilə qanı bölüşdürür və hər bir üzv üçün müəyyən bir miqdarda qan yollayır.

**2. Hərəkətin marşurutu**

Arxadan bizə çatan ardıcıl döyüntülər vasitəsi ilə hərəkətimizi davam etdiririk və yol yoldaşımız olan eritrositlərdən soruşuruq:

- Bizim marşurutumuz harayadır?

Deyirlər:

- Beyinə tərəf hərəkət edirik. Ürəyin ardıcıl olaraq sıxılmaları da yeni döyüntülər yaradır və bizi irəliyə doğru aparır. Yol yavaş-yavaş nazikləşir və daha çox nazikləşməyə doğru gedir. O qədər nazik olur ki, onu yüz dəfə böyütsək, bir tük qalınlığında olar. Bu yerə kapilyarlar şəbəkəsi deyilir. Yollar çox nazik və əyri-üyrüdür.

**3.Yol arasında olan qısa dayanacaq**

Yol yoldaşımız olan eritrositlərdən soruşuruq:

- Yolda heç dayanacağıqmı?

Deyirlər:

- Yox, amma bu hüceyrələrin yanında bir az sürəti azaldacağıq. Özümüzlə gətirdiyimiz oksigeni verib və oksidləşmə nəticəsində yaranan karbon iki oksidi alıb geri qayıdacağıq.

Burada gördük ki, eritrositlər özləri ilə gətirdikləri oksigenləri hüceyrələrə verdilər, hüceyrələr təzə bir nəfəs çəkdilər və karbon iki oksidi eritrositlərə verdilər.

Bundan əlavə, gördük ki, hüceyrələr sürətlə artıq maddələri qana tökürlər ki, qan onları özü ilə aparıb uzaqlaşdırsın.

**4. Qayıdan zaman**

Eritrositlərin qırmızı üzü, rəngi göyərmişdir və artıq əvvəlki "əhval-ruhiyyə" onlarda yoxdur. Yaxşı tanıdıqları nazik və əyri-üyrü yollarla geri qayıdırlar.

– Haraya qayıdırsınız?

– Ürəyə tərəf. Qayıdarkən yolda sıxılması nəticəsində yaranan zərbələr bizi arxadan qovur, sanki, bizim gəmimizi irəliyə doğru hərəkət etdirir.

Yavaş-yavaş yol daha da genişlənməyə başlayır və kapilyardan gələrək qara damarlara yetişirik. Təmizlənməmiş qara qan onlardan keçir. Adını sorşduqda deyirlər ki, vena damarıdır. Bu yolun sonunda ürəyə çatırıq.

**5. Sağ qulaqcığa giriş**

Ürəyə çatarkən səfərimiz sona çatdımı? Yox... Yalnız çox qısa müddətli bir fasilə olur. Birdən ayaqlarımızın altından kiçik bir qapı açılır və hamı birlikdə sağ mədəciyə enir. Aydınlıq gətirirlər ki, bu kiçik qapının adı üçtaylı qapaqdır və işi çox həssasdır. Bir tərəfli iş görür və yalnız qulaqcıq tərəfindən mədəciyə tərəf açılır, mədəcikdən qulaqcığa tərəf isə açılmır və tam şəkildə bağlanır, beləliklə, qanın dəhlizə qayıtması üçün heç bir dəlik qalmır.

**6. Şiddətli zərbə**

Üçtaylı qapağın gördüyü iş barəsində fikirləşirdik ki, birdən şiddətli bir zərbə ilə sağ mədəcikdən çölə çıxarılırıq.

- Biz haraya gedirik?
- Ağciyərlərə tərəf.
- Nə üçün?
- Oksigen götürmək üçün.

Bir neçə ardıcıl zərbə ilə ağciyər qovuqcuqlarına (alveollara) çatırıq. Tənəffüs vasitəsilə xaricdən ağciyərlərin içərisinə gəlmiş azad havanın kənarında olan eritrositlər boğucu karbon iki oksidi buraxıb yenidən həyat bəxş edən oksigeni alır, bundan sonra nazik, əyri-üyrü və yavaş-yavaş genişlənməkdə olan yollarla yenidən ürəyə qayıdırlar.

**7. Sol qulaqcığa giriş**

Eritrositlər oksigeni aldıqdan və yüksək əhval-ruhiyyə ilə sol qulaqcığa daxil olduqdan sonra ayaqlarının altında kiçik bir qapı (ikitaylı qapaq) açılır və eritrositlər hərəkətin ilk dayanacağı olan sol mədəciyə enirlər. Tez onlarla xudahafizləşib şiddətli sıxılma ilə ikinci dəfə həmin kanallara aparılmazdan əvvəl öz yol yoldaşımızdan ayrılırıq.

Bu fərz olunan səfərdə qanın iki dövranı ilə tanış olduq:

1. Böyük qan dövranı;
2. Kiçik qan dövranı.

Böyük qan dövranı sol mədəcikdən başlanır və ürək güclü bir nasos kimi qanı bədənin bütün toxumalarına çatdırır. Böyük qan dövranı sağ qulaqcıqda başa çatır. Kiçik qan dövranı sağ mədəcikdən başlanır və qan, damarlardan keçərək ağciyərlərə çatır, karbon iki oksidlə oksigenin mübadiləsindən sonra yenidən sol qulaqcığa qayıdır.

## Tam bir ürək döyüntüsünün mərhələləri

Mədəciklərin bir-biri ilə uyğun və eynizamanlı sıxılmasından sonra qulaqcıqlar açılaraq qanı venalardan özünə tərəf çəkir və get-gedə dolur. Burada ürəyin ümumi genişlənmə mərhələsi başlanır. Bu mərhələdə ürəyin bütün çuxurları istirahət edir.

1. Qulaqcıqların sıxılması ümumi istirahət mərhələsindən sonra yerinə yetirilir və bununla qan qulaqcıqlardan mədəciklərə tərəf aparılır.
2. Mədəciklərin sıxılması qanı bir tərəfdən bədənin toxumalarına və başqa tərəfdən ağciyərlərə qovur.
3. Ümumi istirahət.

Bu üç mərhələ bir yerdə təxminən 0,8 saniyə çəkir və beləliklə, insanın ürəyi bir dəqiqədə təqribən 70 dəfə vurur.

## Allahı tanıma dərsi

Əgər öyrənib tanış olduğumuz qədər ürəyin dəqiq və harmonik fəaliyyətinə baxıb fikirləşsək, məlum olar ki, maraqlı və heyranedici olan bu aparatın elmli və qüdrətli bir yaradıcısı var ki, onu bu gözəllik və dəqiqliklə yaratmışdır.

Daha çox düşünmək üçün ağlımıza müraciət edib aşağıdakı suallara cavab verməsini ondan istəyə bilərik:

1. Ürək bütün bu incəliyi və heyranediciliyi ilə öz-özünə və hədəfsiz yarana bilərdimi?
2. Ürəyin qulaqcıqları və mədəcikləri özlərini öz quruluşlarını və işlərini proqramlaşdırmışdır?
3. Ürəyin taylı qapaqları belə bir xüsusi vəzifəni özləri üçün planlaşdırmış və sonra özlərini yaratmışdır?
4. Arteriya, vena və kapilyarların bu incə sistemləri öz-özünə və təsadüfi olaraq yaranmışdır?

5. Ürək, damarlar sistemi və tənəffüs aparatı arasında olan nizam-intizam, harmoniya və əməkdaşlıq təsadüfi olaraq yaranmışdır?

Sizin düşünərək verdiyiniz cavab aydındır:

- Böyük, alim və qüdrətli olan Allah heyranedici belə bir aparatı yaratmışdır.

* * *

## *Yaranış aləminə bir baxış*

Səhərçağı baxın görün Günəş necə də dağlar arxasından aram-aram çıxır. Səhralara və tarlalara necə bir gözəlliklə nur saçır. Doğrusu, bu nur kürəsinin doğuşu dağlara, səhralara ayrı bir gözəllik və səfa verir. Düşünün ki, əgər Günəş çıxmasaydı, həmişə gecə və qaranlıq olardı. Belə olduğu təqdirdə biz nə edərdik? Düşünmüsünüzmü ki, Günəş bu bütün işığı və istiliyi necə əmələ gətirir? Bilirsinizmi, Günəşin həcmi nə qədərdir?

Günəşin həcmi təxminən milyon dəfə yerdən böyükdür. Yəni əgər Günəşi içi boş bir kürə təsəvvür etsək, yer kürəsi kimi bir milyona yaxın kürəni özündə yerləşdirə bilər. Bu böyük və atəşli kürənin səthinin $6000^0$ C istiliyi vardır. Bilirsinizmi, bu bütün istilik nə üçün yeri və yerdəki əşyaları yandırmır? Günəş yerdən münasib və müəyyən bir məsafədə (150 milyon km.) yerləşdiyi üçün, yalnız lazım olan miqdarda yer kürəsinə işıq və enerji çatdırır.

Heç bilirsinizmi ki, əgər Günəşlə yer arasındakı məsafə bu qədər olmasaydı, nə olardı? Əgər, məsələn, indiki miqdarının yarısı olsaydı, nə olardı? Aydındır heç bir canlı varlıq yer üzərində yaşaya bilməzdi. Günəşin istiliyi bütün bitkiləri, heyvanları və insanları yandırardı. Əgər Günəşin yerlə olan

məsafəsi bu miqdardan daha çox olsaydı, məsələn, əgər indikindən iki dəfə çox olsaydı, nə olardı? Belə olduqda, kifayət qədər işıq və istilik yerə çatmazdı və hər şey soyuqdan məhv olardı. Bütün sular buz bağlayardı, artıq yaşayış mümkün olmazdı. Məlumdur ki, bu məsafə və əlaqə şüurlu şəkildə dəqiq hesabla öncədən nəzərdə tutulub yaranmışdır.

Günəşin işığı və istiliyi vasitəsi ilə buğdanın gözəl sünbülləri inkişaf edir. Günəşin isti şüalarının saçması ilə bütün bitkilər və ağaclar inkişaf edir, biz insanlar üçün meyvə və qida hazırlayır. İstifadə etdiyimiz müxtəlif meyvələr Günəş enerjisi vasitəsi ilə hazırlanmışdır. Həqiqətdə, bitkilərdə və başqa qidalarda ehtiyat olunanlar Günəş enerjisidir ki, biz onlardan qüvvə və enerji alırıq. Heyvanlar da bitkilərdə ehtiyat olunmuş enerjidən istifadə edir və onu heyvan məhsulları şəklində bizə təhvil verirlər. Məsələn, ot-ələf yeyb, bizə süd verirlər. Biz də ət və süddən hazırlanan başqa məhsullardan istifadə edirik.

Siz Günəşin əzəmət və gözəlliyini, onun yerlə dəqiq hesablanmış məsafəsini, bitkilərin, heyvanların və insanların Günəşin istisindən və enerjisindən faydalanmalarını müşahidə edib fikirləşərkən nə başa düşürsünüz? Aləmin bütün hissələrində olan qəribə bağlılığı görüb fikirləşərkən hansı nəticəyə gəlirik? Nizamsız və əlaqəsiz bir məcmu görürsünüz, yoxsa tam şəkildə əlaqəli və harmoniyalı olan bir sistem? Qəti olaraq cavab verəcəksiniz ki, tam şəkildə harmoniyalı olan bir sistemi müşahidə edirəm ki, özüm də onun bir hissəsiyəm. Bu böyük məcmunun əlaqəsindən, nizam-intizamından və dəqiq harmoniyasından nə başa düşürsünüz?

Bu geniş aləmin bütün hissələrində olan nizam-intizam nəyin nişanəsidir? Bu suala ağılsız şəkildə cavab verib demək olarmı ki, bu əzəmətli sistemin xaliqi şüursuz, nadan və qüdrətsiz bir varlıqdır? Belə bir cavabı bizim ayıq vicdanımız heç

vaxt bəyənməz. Əksinə, deyər ki, bu əzəmətli sistemin dəqiq nizam-intizamı, əlaqəsi və harmoniyası onu yaradanın əzəmətinin, qüdrətinin və şüurunun nişanəsidir. O, aləmin varlıqlarını yaradıb, idarə etməyi, yaranmışların hər birinin ehtiyaclarını şüurlu surətdə öncədən nəzərdə tutub bu ehtiyacları təmin etməyi, hər biri üçün müəyyən yol və hədəf təyin etməyi bacarmışdır. O qüdrətli və mehriban xaliq kimdir?

O şüurlu və qüdrətli xaliq bu bütün nemətləri bizim üçün yaradıb və bizim ixtiyarımızda qoyan Allahdır. Günəşi, ayı, yeri bizə xidmətçi yaratmışdır ki, səy, çalışqanlıq və əməkdaşlıqla yer üzünü abadlaşdıraq, bilik əldə etməklə aləmin sirlərini və qəribəliklərini kəşf edib xaliqin əzəmətli nişanələrini görək və onunla minacat edək. Çünki biz insanların ən yüksək və ən gözəl anları öz məbudu ilə dua və minacat etdiyi vaxtdır. Əgər insanın öz yaradanı ilə duası və minacatı olmasaydı, yaşayışın nə dəyəri olardı?

Gecə və gündüzün yaranması barəsində fikirləşin, səhər və axşam, gecə və gündüz Yaradanla minacat edin. Bilirsiniz ki, gecə və gündüz yerin fırlanma hərəkəti nəticəsində əmələ gəlir. Yer hər sutkada bir dəfə öz oxu ətrafında fırlanır. Yerin Günəş tərəfdə yerləşən yarısı işıqlı, digər yarısı isə qaranlıq və gecədir. Yerin fırlanması ilə, sanki, gecə gündüzdə və gündüz də gecədə gizlənir. Gecə-gündüz müntəzəm olaraq bir-birinin ardınca gəlir. Gündüz bitkilər, ağaclar Günəşin isti şüası vasitəsi ilə inkişaf edir. İnsanlar iş, çalışma və xidmətlə məşğul olurlar və axşamın rahatlığında isə istirahət edirlər. Yenidən güc-qüvvə toplayıb minacat edərək sabahın işi, xidməti və ibadəti üçün daha hazırlıqlı olurlar.

Heç düşünmüsünüz ki, əgər yerin öz oxu ətrafındakı hərəkəti bu nizam-intizamla olmasaydı, nə olardı? Yerin bəzi nöqtələri həmişə gecə, qaranlıq, soyuq və buzlu, digər məntəqələri isə həmişə Günəşli, işıqlı və isti olardı. Gecə və gündü-

zün yaranması da elmli, qüdrətli yaradanın qüdrətinin, əzəmətinin və elminin aydın nişanələrindən biridir.

**Üç mühüm məsələ**

1. Yaranış aləminə baxıb düşünmək, onun saysız-hesabsız hissələrinin nizam-intizamı, əlaqəsi və harmoniyasını dərk edib soruşmaq lazımdır: "Kim bu aləmi yaradıb idarə edir?"

2. Bu yaranış aləminin böyük və nizamlı məcmusu şəhadət verir ki, "Mehriban, qüdrətli bir xaliq onu yaradıb idarə edir və o xaliq Allahdır".

3. Şüurlu, qüdrətli Allah bu aləmi yaratmış, bizim inkişafımız və səadətimiz üçün də vəzifələr təyin etmişdir. Bu vəzifələrin əsaslarına işarə edirik:

a) Yaradanımızın əzəmətli və qüdrətli nişanələrinə baxaq və düşünək.

b) Elm əldə etməklə aləmin sirlərini və qəribəliklərini kəşf edək.

c) Onunla minacat edək və Ona ibadət edək.

ç) Çalışma və əməkdaşlıqla yer üzünü abadlaşdıraq və ədalətlə dolduraq.

* * *

## Hər fenomenin səbəbi var.

Siz əllərinizi hərəkət etdirməklə qələmi götürürsünüz, amma sizin dostunuz əlini hərəkət etdirmir və qələmi götürmür. Nə üçün? Çünki siz qələmi götürmək istəmisiniz, amma sizin dostunuzun belə bir iradə və istəyi olmamışdır. Qələmi götürmək istəyi sizdə yaranan yeni bir fenomendir. Bu yeni fenomeni siz yaratmısınız. İradə sizə bağlıdır və sizin ruhunuzun işidir. Əlin hərəkəti də sizə və sizin iradənizə bağlıdır. Siz öncə əllərinizi hərəkət etdirmirdiniz, çünki iradə etməmişdiniz. Sonra isə iradə etdiniz və iradənin ardınca əllərinizi hərəkət etdirərək qələmi götürdünüz. İradə fenomeni sizin "nəticə"nizdir. Əgər siz olmasaydınız, iradə də olmayacaqdır. İradənin varlığı özündən deyil, sizdəndir. Sizinlə iradəniz arasında "səbəb və nəticə əlaqəsi" adlanan xüsusi bir əlaqə var. Siz bu məxsusi əlaqəni öz varlığınızda aydın və tam şəkildə müşahidə edirsiniz və tamamilə ondan xəbərdarsınız.

**Başqa bir misal**

Öncədən gördüyünüz bir dəstə gülü öz zehninizdə canlandırın, indi isə o gülün barəsində düşünün: Bu gülün təsviri sizin zehninizdə əmələ gələn yeni bir fenomendir. Görəsən,

bu yeni fenomen öz-özünəmi əmələ gəlmiş, yoxsa siz onu yaratmısınız? Məlumdur ki, siz onu yaratmısınız. Əgər siz olmasaydınız, gül dəstəsinin təsviri də olmayacaqdı. Zehninizdəki bu təsvir sizin varlığınıza bağlıdır. Yəni bu zehni təsvirin varlığı özündən yox, sizdəndir. Siz səbəbsiniz və zehninizdəki təsvir isə nəticə. Bu xüsusi əlaqəni "səbəb nəticə əlaqəsi" adlandırırlar. Bu əlaqə və bağlılığı siz özünüzdə müşahidə edirsiniz və tam surətdə ondan xəbərdarsınız.

Buna görə də nəticə alırıq ki, siz, eləcə də hər bir insan öz daxilində səbəbiyyəti duyaraq onu intuisiya ilə aydıncasına müşahidə edir.

Bundan əlavə, səbəbiyyət adlı bu xüsusi əlaqəni özünüzlə öz fiziki və zehni işləriniz arasında da görür, onların səbəbi olduğunuz üçün onları özünüzə nisbət verib deyirsiniz: gördüm, eşitdim, toxundum, iylədim, daddım, hərəkət etdim, fikirləşdim və s. Özünüzü səbəb və işlərinizi – görməyi, eşitməyi, toxunmağı, iyləməyi, dadmağı, hərəkət etməyi, fikirləşməyi və s. – özünüzə bağlı olan nəticə bilirsiniz. Bu işlər sizin varlığınızdan qaynaqlanır. Əgər siz olmasanız, sizin işləriniz və hərəkətiniz də olmayacaq.

İnsan səbəbiyyət əlaqəsini, yəni nəticənin səbəbə olan bağlılığını əvvəlcə öz zehni və ruhi fenomenləri və öz hərəkətləri ilə öz varlığı arasında intuisiya ilə duyur, sonra bu qanunu öz varlığından xaricdəki əşyalara da aid edir.

## Səbəbiyyət qanunu prinsipial, qəti və istisnasız bir qanundur.

İnsan daxilində duyduğu səbəbiyyət əlaqəsini xaricdə baş verən fenomenlərə də tətbiq edir. Hər hansı bir mövcudun varlığının başqa bir mövcudun varlığına bağlı olduğunu gördükdə başa düşür ki, bu iki mövcud arasında da səbəbiyyət əlaqəsi vardır. Belə olduqda dərk edir ki, öz yaranışında baş-

qasına ehtiyaclı olan varlıqlar "nəticə", onun yaranışında təsiri olan varlıq isə "səbəb" dir.

İnsan çoxlu axtarış və təcrübələr əsasında bu mətləbi başa düşür ki, özü ilə öz daxili duyğuları arasında olan əlaqə kimi aləmin bəzi varlıqları ilə digər varlıqları arasında da bir növ əlaqə və bağlılıq var. İnsan bu dərin düşüncə əsasında, səbəbiyyət qanununu ümumi və istisnasız qanun olaraq qəbul edir.

İnsan bir işi görməklə arzu olunan nəticəni gözləməsi onun səbəbiyyət qanununu ümumi bir qanun olaraq qəbul etməsinə ən yaxşı dəlildir. Su içməklə susuzluğun və yemək yeməklə aclığın aradan gedəcəyinə inanır. Soyuqdan istiyə və istidən sərin bir kölgəyə pənah aparır. Hər halda gündəlik həyatımızda, bütün hərəkətlərimizdə və gördüyümüz işlərdə səbəbiyyəti qəti və istisnasız bir qanun olaraq qəbul edirik və onun əsasında hərəkət edirik.

**Heç bir fenomen səbəbsiz deyil.**

Əgər otağın qapısı açıqdırsa və siz qapını açanı görmürsünüzsə, nə fikirləşərsiniz? Onun öz-özünə və heç bir səbəb olmadan açılmasını güman edərsinizmi? Əgər bir səs eşitsəniz və çağıranı görməsəniz, nə fikirləşərsiniz? Ehtimal verərsiniz ki, səs təsadüf nəticəsində, yəni heç bir səbəb olmadan meydana gəlmişdir? Əgər hər bir avaz eşidib oxuyanı görməsəniz, nə fikirləşərsiniz? İstilik, yaxud soyuqluq hiss edərkən bunun səbəbsiz olduğunu güman edərsiniz? Bir adam otağınızın şüşəsin, sındırarkən daş atanı görmədikdə nə fikirləşərsiniz? Ehtimal verərsiniz ki, daş öz-özünə yerdən qalxıb heç bir səbəb olmadan sizin otağınızın şüşəsinə dəymişdir?

Sizin bu sualların qarşısında verəcəyiniz cavablar aydındır. Deyəcəksiniz ki, mənim şüurum var və bilirəm ki, aləmin fenomenlərindən heç biri səbəbsiz deyil. Əgər mən hər hansı

bir fenomenin səbəbini tapmamışamsa, bu heç də onun səbəbsiz olması demək deyildir. Buna görə də, həmin fenomenin həqiqi səbəbini tapana qədər axtarışı davam etdirəcəksiniz. Əgər fenomenlərdən birinin səbəbini tapmasanız, deməyəcəksiniz ki, onun heç bir səbəbi yoxdur. Əksinə, deyəcəksiniz ki, bu fenomenin səbəbi mənim üçün məlum deyil.

Alimlər və ixtiraçılar ümumi səbəbiyyət qanununu qəbul etdikləri üçün labaratoriyalarda əşyaların səbəbini tapmaq üçün çoxlu səylər edirlər. Təcrübə əsnasında yeni bir fenomenlə rastlaşan zaman qəti surətdə bilirlər ki, bu yeni fenomenin səbəbi var və elə buna görə də, onun səbəbini tapmaq üçün yeni təcrübələrə əl atırlar və o yeni fenomenin səbəbini tapana qədər axtarışı davam etdirirlər.

**Aləmin də səbəbi var.**

Öyrəndik ki, səbəb-nəticə qanunu qəti pirinsipial, zəruri və istisnasız bir qanundur. Heç bir fenomen səbəbsiz deyil və aləmin fenomenlərindən hər birinin səbəbi var. Bu ümumi qanun hamının faktiki olaraq qəbul etdiyi bir qanundur.

- Hər fenomenin səbəbi var. Həmin səbəbin özünün də (əgər fenomendirsə) səbəbi vardır. Buna əsasən, bütün yaranış aləmi fenomen və ehtiyaclı olduğu, həmçinin özündən (müstəqil) varlığı olmadığı üçün, üstün bir səbəbə ehtiyaclıdır. Ümumiyyətlə, başqasına ehtiyaclı olmaq fenomenin ilkin xüsusiyyətidir. İstər böyük, istərsə də kiçik, hər bir fenomen başqasına ehtiyaclı və bağlıdır, varlığı da özündən deyil. Əgər varlığı özündən olsaydı, həmişə var olardı və ehtiyaclı da olmazdı. Fenomenlər aləminin var olmağa ehtiyacı vardır. Bu cəhətdən də, bütün ehtiyaclı və məhdud mövcudlara varlıq bəxş edən üstün və zəngin bir varlığa ehtiyaclıdır.

Varlıq aləminin mənbəyi hesab olunan və heç bir məhdudiyyəti olmayan nöqsansız, ehtiyacsız olan o üstün və misil-

siz varlıq Allahdır. Aləmi yaradan, həmişə onu öz qayğısı ilə idarə edib bəsləyən Odur. Əgər bir an Onun feyzi və mərhəməti kəsilsə, hər şey məhv olar.

**İrad:**

Dediniz ki, hər bir fenomenin səbəbə ehtiyacı var. Buna görə, Allahın da səbəbə ehtiyacı var. Bəs Allahın səbəbi kimdir? Başqa bir sözlə desək: Bütün varlıqları Allah yaratmışdır. Bəs Allahı kim yaratmışdır?

**Cavab:**

Bəli, dedik ki; "Hər bir fenomenin səbəbə ehtiyacı var". Amma demədik; "Hər bir varlığın səbəbə ehtiyacı var". Buna görə, ehtiyaclı və məhdud olan hər bir fenomenin varlığı səbəbə ehtiyaclıdır. Uca Tanrı isə ehtiyacsız və kamil bir varlıqdır ki, Onun səbəbə heç bir ehtiyacı yoxdur. Varlığı Onun zatının eynidir. Ehtiyaclı deyil ki, başqa birisi Onun ehtiyacını ödəsin.

Başqa sözlə, bir şeyin səbəbə ehtiyacı olmağının səbəbi onun məhdud və fəqir olmasıdır. Uca Allahın nöqsanı və məhdudiyyəti yoxdur ki, səbəbə ehtiyaclı olsun. Əksinə, O, tam şəkildə zəngindir. Ondan üstün bir varlıq yoxdur ki, Onun səbəbi olsun. Əgər O, başqa birisinin nəticəsi olsaydı, elə həmin şeyə də ehtiyaclı olardı. Belə olduğu təqdirdə isə, Allah olmazdı. O, öz zatına, varlığına əsaslanır və başqaları Ona söykənir. Allah ən üstün və ən yüksək varlıqdır.

Quranda buyurulur:

"يَا أَيُّهَا النَّاسُ أَنْتُمُ الْفُقَرَاءُ إِلَى اللَّهِ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ"

***"Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə (heç nəyə, o cümlədən sizin ibadətinizə) möhtac deyildir. O (hər cür), şükrə (tərifə) layiqdir!"[1]***

---

[1] "Fatir", 15

**Allahı sübut edən dəlillərin izahı**

İnsan aqil və düşüncəli olduğu üçün təfəkkür və dəlillə aləmin hərəkətlərini başa düşə bilər. İndiyə kimi Allahı tanımaq üçün iki dəlil ilə tanış olmuşduq: Nizam-intizam və səbəbiyyət dəlili ilə. İndi isə bu iki dəlili araşdırıb müqayisə edirik.

Nizam-intizam dəlili barəsində dedik ki, yaranış aləmi nizam-intizam, harmoniya və tam bir əlaqə əsasında qurulmuşdur. Hər bir nizam-intizam və harmoniyanı proqramlaşdıran bilikli və bacarıqlı bir memar olmalıdır. Deməli, bu aləm də bilikli və bacarıqlı bir yaradanın məxluqudur.

Nizam-intizam dəlilində əvvəlcə aləmin ayrı-ayrı hissələrinə hakim olan nizam-intizam, harmoniya və dəqiq proqrama nəzər salırıq, bundan sonra isə "hər bir proqramı planlaşdıran bilikli və bacarıqlı bir şəxs olmalıdır" qanununu nəzərə almaqla nəticə alırıq ki, aləmdə olan bu əzəmətli nizam-intizamın bilikli və bacarıqlı bir yaradanı vardır.

Səbəb-nəticə dəlilində isə bu aləmin fenomenləri arasında olan nizam-intizama və harmoniyaya yox, fenomenlərin zatına, varlığına və hər fenomenin səbəbə olan xüsusi ehtiyacına baxırıq. Hər bir insanın inandığı səbəbiyyət qanununa əsasən, məsələni belə ifadə edirik:

Yaranan fenomenlərin varlığı özündən deyildir. Əksinə, başqa bir şeyə bağlı və ehtiyaclıdır. Fenomenlərin ehtiyaclı olduğu həmin şey "səbəb" adlanır.

Bu aləm də müxtəlif fenomenlərin məcmusundan təşkil olunub. Deməli, bu aləmin də səbəbi var.

Səbəbiyyət dəlilində deyilir ki, yaranan hər bir fenomenin varlığı başqa birinə bağlı və ehtiyaclıdır. Varlığı özündən deyil, başqa səbəbdən qaynaqlanır. Aləmdəki bütün varlıqların bütövlükdə fenomen və yaranmaqda olduqlarını nəzərə alaraq, qəti şəkildə demək olar ki, onlar əzəmətli, qüdrətli bir mən-

bədən və sonsuz bir varlıqdan qaynaqlanırlar ki, o sonsuz olan qüdrət Allah adlanır.

Həm nizam-intizam və həm də səbəbiyyət dəlilinin rolu əqlin gözündən və insanın fitrətindən qəflət tozunu silmək və saf fitrətlə, ayıq əqllə həqiqətlərə baxaraq, ən aşkar aydınlıqları görməsinə və uca qadir Allaha olan imanını gücləndirməsinə şərait yaratmaqdır.

Ayıq insanlar isə pak fitrətləri ilə qadir və ulu Yaradana elə inanırlar və bu mövzu onlar üçün o qədər aydındır ki, ən kiçik dəlilə belə ehtiyacları yoxdur. Bu pak fitrətli və ayıq insanlar bütün şeylərin böyük Allahın qüdrətinə və məğlub olmayan iradəsinə söykəndiyini görürlər. Bütün çətinliklərdə Ona pənah aparırlar. Heç vaxt ümidsizliyə düçar olmurlar. Çünki bilirlər ki, hər bir fenomen hər nə qədər güclü olsa da, yenə böyük Allaha ehtiyaclı və Onun iradəsi altındadır. Bu pak fitrətli və ayıq insanlar bütün şeyləri Allaha ehtiyaclı gördükləri üçün, böyük Allahdan başqa, heç bir şeyin qarşısında təslim olmurlar. Onun vilayətindən və göstərişlərindən başqa, heç bir vilayəti və göstərişi qəbul etmirlər. Dünya yaşayışını əbədi Axirət səadəti üçün izzətlə və qələbə ilə başa vururlar.

Sonda bu məqamı qeyd etməyi lazım bilirəm ki, aləmin Yaradıcısını isbat etmək üçün, fəlsəfi və kəlami kitablarda çoxlu dəlillərdən istifadə olunub, amma mətləbin müxtəsər olması üçün bu miqdarla kifayətlənirik.

Quranda buyurulur:

“ رَبُّكُمْ رَبُّ السَّمَاوَاتِ وَالْأَرْضِ الَّذِي فَطَرَهُنَّ ”

*"Rəbbiniz göylərin və yerin Rəbbidir ki, onları yaratmışdır".*[1]

* * *

[1] "Ənbiya", 56

## *Allahın sifətləri*

Keçmiş dərslərdən aydın oldu ki, bu aləmi yaradan və idarə edən bir səbəb vardır. Bu bölümdə isə Allahın sifətləri ilə tanış olacaq və Onu daha yaxşı tanıyacaqıq. Allahın sifətləri iki qismə bölünür: kamal (camal) sifətləri və cəlal sifətləri.

Varlığın kamilliyindən, özəlliklərindən olan, heç bir nöqsana və məhdudiyyətə səbəb olmadan onun ontoloji dəyərini artıran hər bir sifətə kamal və camal sifəti deyilir. Məsələn, qüdrət, həyat, eşidən, görən, iradə edən, danışan, rəhman, rəhim və s.

Məsələn, dərk olunan obyektin dərk edən şəxsin yanında hazır olmasından və onun üçün aşkar olunmasından ibarət olan elm kamillik sifətidir. Elm sözü heç bir nöqsan və məhdudiyyətə səbəb olan bir məna ifadə etmir. Bu sifət xarakterizə etdiyi varlıqların nöqsanlı olmasına səbəb olmur.

Elm sifətinin məhdud varlıqlarda olması da mümkündür, lakin bu cür məhdud varlıqlar məhdud olduqlarına görə deyil, varlıq olduqlarına görə bu sifətlə xarakterizə olunurlar. Eləcə də, qüdrət və həyat sifəti də kamillik sifətlərindən hesab olunur. Uca Allah bütün bu sifətlərə malikdir və onlarla vəsf olunur. Kamal sifətlərini sübuti sifətlər də adlandırırlar.

Alimlər Allahın kamal sifətlərini isbat etmək üçün bir çox dəlillər gətirmişlər. Onların daha sadə olan ikisinə işarə edirik:

***Birinci dəlil:*** Elm, qüdrət, həyat və bu kimi kamal sifətlərindən hesab olunan sifətlərin xaricdə olması göstərir ki, bəzi məxluqlar bu sifətlərə malikdirlər. Deməli, kamal sifətləri də xaricdə olan bir fenomendir. Öncə deyildiyi kimi, hər bir fenomen onu yaradan səbəbə möhtacdır. Həmin səbəb, elə yaranış aləminin Allahıdır. Buna görə, aləmin fenomenləri öz varlıqlarında uca Tanrıya bağlı olduğu kimi, varlığın xüsusiyyətlərində və kamal sifətlərində də Allaha bağlıdırlar. O, bu kamal sifətləri onlara əta etmişdir. Digər tərəfdən də kamal sifətləri bağışlayan şəxsin özü, o kamal sifətlərinə ən yüksək dərəcədə malik olmalıdır. Məxluqlara elm, qüdrət və həyat verən Allahın özünün o sifətlərə malik olmaması mümkün deyildir. Əgər özünün olmasaydı, başqalarına necə əta edə bilərdi?

***İkinci dəlil:*** Bu dəlil nizam-intizam dəlilinə əsaslanır. Siz keçmiş dərslərdə yaranış aləminin bir sıra dəqiq nizam-intizamı və xariqələri ilə tanış oldunuz və bildiniz ki, onların yaranışında nə qədər zəriflik və gözəllik olmuşdur, necə bir (qırılmaz) əlaqə və dəqiq harmoniya ilə yaranıb idarə olunur. Əlbəttə, aləmin bütün fenomenləri gözəl və harmoniyalıdır. Belə bir heyranedici nizam-intizam və harmoniyanı araşdırdıqdan sonra aydın şəkildə başa düşülür ki, onların yaradıcısı da alim, qüdrətli və diri olmalıdır. O, bu dəqiq nizam-intizamı elmi, qüdrəti ilə yaradıb, onu elmlə və müəyyən hədəf üçün yaratmışdır.

Belə bir dəqiq və gözəl nizam-intizamın varlığı onun yaradıcısının elmli, qüdrətli və canlı olmasına ən gözəl şahiddir. Məgər şüursuz maddə və təbiət, belə bir harmoniyalı və gözəl olan bir sistemi yarada və idarə edə bilərmi? Elə isə, necə ehtimal vermək olar ki, bu əzəmətli aləm, bu bütün sirləri, qə-

ribəlikləri, dəqiq nizam-intizamı və harmoniyası ilə şüursuz və iradəsiz təbiət tərəfindən yaradılsın.

* * *

## Allahın kamal sifətləri

Keçmiş dərslərdə səbəblə nəticənin əlaqəsinin necəliyini və nəticənin səbəbə olan ehtiyacının sirrini açıqladıq və onu isbat etdik. Aydın oldu ki, nəticə öz kamal sifətlərini, gözəlliklərini öz səbəbindən almışdır. Səbəb bütün bu kamillik sifətlərinə, gözəlliklərə ən üstün şəkildə malikdir. Buna görə də, göylərin, yerin uca xaliqi və həqiqi səbəbi olan Allah göydə və yerdə olan məxluqların bütün kamal sifətlərinə və gözəlliklərinə malikdir.

Elm, qüdrət və həyat bir sıra məxluqlarda olan kamal sifətləridir. Görmək, eşitmək və danışmaq insanlarda olan kamal sifətləridir.

Bilikli və məlumatlı insanı biliyinə və məlumatına görə, biliksiz və məlumatsız şəxsdən üstün və kamil bilirik. Qüdrətli və güclü şəxsi qüdrəti və gücü olduğu üçün, qüdrətsiz və gücsüz şəxsdən daha üstün bilirik. Görən və eşidən insan, onda bu iki sifət olduğu üçün, görməyən, eşitməyən insandan üstün hesab olunur.

Buna görə deyə bilərik ki, bəzi məxluqların məhdud şəkildə malik olduqları həyat, elm, qüdrət, görmə, eşitmə və digər sifətlər dəyər və kamal sifətləri hesab olunur. Məsələn, insa-

nın bədəni həyata malikdir. Amma bu həyat hər cəhətdən məhduddur. Əgər yemək yeməsə, ölər. Əgər nəfəs alıb-verməsə, ölər. Həyatının əvvəli, axırı və müəyyən həddi var.

İnsan görəndir, amma onun görməyi məhduddur. Uzaq məsafələri görə bilmir, bir anda bütün aləmi müşahidə edə bilmir, qaranlıqda görə bilmir və s. Məxluqlarda olan kamal sifətlərlərin hamısı məhduddur.

Məxluqlarda kamal sifətləri və gözəllikləri müşahidə etməklə dərk edirik ki, bütün məxluqların xaliqi və həqiqi səbəbi olan Allah, bütün kamal sifətlərinə malikdir. Çünki əgər malik olmasaydı, bu kamal sifətləri məxluqlara verə bilməzdi. Amma uca Tanrının malik olduğu kamilliklərin heç birinin həddi-hüdudu yoxdur.

Allahın aləmdə olan bütün kamilliklərə malik olduğunu dərk etdiyimiz üçün, Onu kamal sifətləri ilə vəsf edərək deyirik: Allah diri, bilən, qadir, görən, eşidən, danışan, mərhəmətli, bağışlayan və zəngindir. Amma, biz, adətən bütün bu sifətlərin məhdud mənası ilə rastlaşdığımız üçün Allahı nöqsanlardan uzaq bilərək (nəzih edərək) vəsf edib deyirik: Allah diridir, amma bizim kimi yox. Bizim diriliyimiz məhdud, nöqsanlı və aradan gedəndir. Allahın diriliyi isə kamil şəkildədir. Allah alimdir, amma Onun elmi bizim elmimiz kimi məhdud və nöqsanlı deyil. Bizim elmimiz zatımızdan ayrıdır. Bəzən bir şeyi bilirik, bəzən bilmirik. Buna görə də, həmişə Allahı vəsf edərək "Allahu əkbər" və "Subhanəllah" cümlələrini deyir və bununla Allahın hər cür məhdudiyyət və nöqsandan pak olduğunu bildiririk.

## Allahı və Onun sifətlərini təsəvvür etmək olarmı?

Təsəvvür etmək dedikdə, Allaha və Onun sifətlərinə öz düşüncəmiz çərçivəsində baxmaq nəzərdə tutulur. Aydındır ki, biz səmanın mənzərəsini təsəvvür edə bilərik, Günəşin

batmasını təsəvvür edə bilərik, ata-ananın çöhrəsini, öz ata, ya da anamızın məhəbbətini təsəvvür edə bilərik. Allah və Allahın sifətlərini həmin şəkildə təsəvvür edə bilərikmi? Təsəvvür edib zehnimizdə canlandırdığımız şeylərə baxarkən görürük ki, zehnimizə gələn hər bir şey məhduddur. Amma hər cəhətdən sonsuz olan varlıq heç vaxt bizim məhdud zehnimizdə yerləşə bilməz. Buna görə, Allahın kamal sifətləri barəsində, məsələn, Onun qüdrəti barəsində fikirləşərkən deməliyik ki, "Allah daha böyükdür. Allah pakdır, nöqsanlardan uzaqdır (münəzzəhdir)". Yəni Allah daha üstün və daha yüksəkdir və hər bir nöqsandan, eybdən pak və uzaqdır.

***Bənzətmə!*** Dənizi görməyən bir kəs üçün dənizi necə təsvir edərsiniz?

Fərz edin ki, sizin dostlarınızdan biri dəniz görməmişdir. Dənizi onun üçün necə təsvir edərsiniz? Onun gördüklərindən və bildiklərindən kömək almaq məcburiyyətində qalacaqsınız. Məsələn, əgər o kiçik bir hovuz, yaxud yağış suyu ilə dolu olan bir çuxur görmüş olsa, ona deyərik ki, dəniz də belə bir gölməçədir, amma bu gölməçələrdən çox böyük və çox dərindir. Deyərik ki, dəniz də su ilə dolu bir çuxurdur. Amma bu çuxurların əksinə olaraq, daha dərin, daha genişdir. Əlbəttə, bu izahla yenə də dənizi görməyən bir kəs dənizin genişliyini aydın şəkildə təsəvvür edə bilməz. Ona demək lazımdır ki, dəniz sənin təsəvvür etdiyindən daha böyük və daha genişdir.

Uca Tanrının kamal sifətləri barəsində də məsələ təxminən belədir. Onun hər bir kamalından kiçik bir damla görürük ki, yüzlərlə hədd və nöqsanla birgədir. Amma ümumi şəkildə başa düşürük ki, uca Tanrının bütün kamal və camal sifətləri hədsiz-hüdudsuz, nöqsansızdır. Buna görə məxluqlarda olan hər hansı bir kamal sifəti gördükdə hər bir həddi və qeyd-şərti ondan götürüb Allaha nisbət veririk. Ən üstün ka-

millik sifətlərini Allaha məxsus bilirik. Əlbəttə, Allah Onu tanımayanların vəsf etdiklərindən daha üstün və daha yüksəkdir.

سبحان الله عما يصفون الا عبادالله المخلصين

***"Allah Ona aid edilən sifətlərdən tamamilə uzaqdır! Allahın müxlis bəndələri isə istisnadır".[1]***

**Allahı görmək olarmı?**

Göz bəzi şeyləri görmək qabiliyyətinə malikdir: Məsələn, məktəbin bağçasında olan ağacı və ağacın altında bitən gülü görür. Bizim gözümüz bütün məxluqlar arasında yalnız cismlərdən bəzilərini müşahidə edə bilir. Gözlərin önündə yerləşən cismlər, onlardan gözə lazımi miqdarda işıq çatdıqda göz vasitəsilə dərk olunurlar.

Amma göz daha uzaqda olan və ya onun gözünün önündə olmayan cismlərin çoxunu müşahidə etməyə qadir deyil. Göz göylərin yüksəkliklərində və dənizlərin dərinliklərində olan bütün cismləri görə bilərmi? Bundan əlavə, çoxlu şeylər var ki, həqiqətən mövcuddurlar, amma gözlə görünmürlər. Məsələn, sizin elminiz, əqliniz və məhəbbətiniz var. Amma bunların gözlə görünən özlədir, yoxsa onların təsirləri?

Əgər Allahı gözlə görə bilsəydik, şübhəsiz, Allah da cism olardı. Başqa cismlər kimi müəyyən bir yerdə olardı və başqa məkanda olmazdı. Belə olduğu təqdirdə, məxluq olardı. Başqa məxluqlar kimi məhdud və məkana ehtiyaclı olardı. Başlanğıcı və sonu olan cismlər kimi başlanğıcı və sonu olardı və dəyişikliklərə məruz qalardı. Əgər Allah cism olsaydı, bir yerdə olardı, başqa yerdə olmazdı və olmadığı yerdəki şeyləri də yarada və görə bilməzdi. Əgər Allah cism olsaydı, başqa cismlər kimi yaranmış olardı və xaliq ola bilməzdi. Onlardan

---
[1] "Saffat", 159-160

üstün ola bilməzdi ki, onları yaratsın. Buna görə də, Allah cism olmadığı üçün gözlə görünmür. Yalnız insanın ağlı Onun varlığının nişanələri olan mövcudları müşahidə etməklə Onun varlığını dərk edir. Gözlər Onu görməz, amma O, gözlərə nəzarət edir. Hər yerdə hazır və hər şeydən xəbərdardır.

**Bəzi kamal sifətləri**

***1. Qüdrət.*** Allah qadirdir. Yəni mümkün olan hər bir şeyi etməyə qadirdir, yerinə yetirə bilər. İşlərini elm, ixtiyar və iradə ilə yerinə yetirir. Bir işi yerinə yetirməkdə, ya da tərk etməkdə məcbur deyil. Qüdrəti hədsiz-hüdudsuz və sonsuzdur. Quranda buyurulur:

" إِنَّ اللَّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ "

***"Həqiqətən, Allah hər şeyə qadirdir".***[1]

***2. Elm.*** Yəni bütün şeyləri bilir və aləmin bütün varlıqlarına elmi və əhatəsi var. Heç bir şey Ondan gizli deyil. Hətta bəndələrinin fikirlərindən və niyyətlərindən də xəbərdardır.

Quranda buyurulur:

" قُلْ إِن تُخْفُوا مَا فِي صُدُورِكُمْ أَوْ تُبْدُوهُ يَعْلَمْهُ اللَّهُ وَيَعْلَمُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الأَرْضِ وَاللَّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ "

***"(Ya Rəsulum!) De: "Ürəklərinizdəkini gizli də saxlasanız, aşkara da çıxartsanız (fərqi yoxdur), Allah onu bilir. Çünki O, göylərdə və yerdə nə varsa (hamısını) bilir. Allah hər şeyə qadirdir!"***[2]

***3. Həyat.*** Allah diridir. Yəni işlərini elm, iradə və qüdrət ilə yerinə yetirən bir valıqdır. Allahın həyatı onun insanlar

---

[1] "Bəqərə", 20

[2] "Ali-İmran", 29

kimi tənəffüs etməsi, hərəkət etməsi, yemək yeməsi və inkişaf etməsi mənasında yox, Öz işlərini elm, iradə və qüdrətlə yerinə yetirməsi mənasındadır.

**4. *İradə*.** Allah iradəlidir. Yəni işlərini iradə və ixtiyarla yerinə yetirir. Yandırmaqda heç bir ixtiyarı olmayan atəş kimi deyildir. İstədiyi və iradə etdiyi işi yerinə yetirir və istəmədiyini yerinə yetirmir. İstəmək və iradə etmək, iş görən üçün kamillik hesab olunur. Kamilliyin son dərəcəsinə malik olan Allah belə bir kamaldan məhrum ola bilməz. Quranda da iradə Allaha nisbət verilmişdir.

Quranda buyurulur:

" إِنَّمَا قَوْلُنَا لِشَيْءٍ إِذَا أَرَدْنَاهُ أَن نَّقُولَ لَهُ كُن فَيَكُونُ"

***"Biz hər hansı bir şeyi (yaratmaq) istədikdə ona sözümüz: "Ol!" deməkdir. O da dərhal olar".*[1]**

"إِنَّ اللَّهَ يُدْخِلُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ إِنَّ اللَّهَ يَفْعَلُ مَا يُرِيدُ"

***"Həqiqətən, Allah, iman gətirib yaxşı işlər görənləri altından çaylar axan Cənnətlərə daxil edər. Allah istədiyini edər".*[2]**

**5. *Eşidən*.** Allah eşidəndir. Yəni səslərdən və eşidilənlərdən xəbərdardır və heç bir şey Ona gizli deyildir.

**6. *Görən*.** Allah görəndir. Yəni bütün hadisələri və görməli əşyaları görür və onların hamısına nəzarət edir. Quranda da çoxlu yerlərdə eşitmək və görmək Allaha nisbət verilmişdir. Misal olaraq, Allah buyurur:

" إِنَّ اللَّهَ يَأْمُرُكُمْ أَن تُؤدُّواْ الأَمَانَاتِ إِلَى أَهْلِهَا وَإِذَا حَكَمْتُم بَيْنَ النَّاسِ أَن تَحْكُمُواْ بِالْعَدْلِ إِنَّ اللَّهَ نِعِمَّا يَعِظُكُم بِهِ إِنَّ اللَّهَ كَانَ سَمِيعًا بَصِيرًا"

---

[1]"Nəhl", 40

[2]"Həcc", 14

***"Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman, ədalətlə hökm etmənizi əmr edir. Həqiqətən, Allahın bununla (belə bir tapşırıqla) sizə verdiyi öyüd necə də gözəldir! Əlbəttə, Allah (hər şeyi) eşidəndir, görəndir!"[1]***

*7. **Danışan:*** Allah danışandır. Yəni öz həqiqətlərini və məqsədlərini başqaları üçün aşkar edə və başa sala bilər. Bunlar kamal və sübuti sifətlərdən bəziləridir ki, uca Tanrı onlarla vəsf olunur.

Allahın başqa sifətləri və adları da vardır ki, hələlik onlara işarə etmirik.

**Lazım olan bir xatırlama**

Allahın sifətləri bizim sifətlər kimi naqis və məhdud deyildir. Bizim həm özümüz, həm də sifətlərimiz məhdud olduğu üçün, maddi hisslər və alətlər olmadan heç bir işi yerinə yetirə bilmərik. Qüdrətimiz var, amma əzalarımızın köməyi olmadan heç bir işi yerinə yetirə bilmərik. Eşitmə qüvvəmiz var, amma qulaq və sinirlər olmadan eşidə bilmərik. Görmə qüvvəmiz var, amma gözün və sinirlərin köməyi olmadan görə bilmərik. Allahın isə həm özü, həm də sifəti kamilliyin son dərəcəsində olduğu üçün, gözsüz görür, qulaqsız eşidir, əzalarsız iş görür, hiss, sinir və beyin olmadan başa düşür. Çünki görməyin, eşitməyin yeganə yolu göz, qulaq və sinirlər vasitəsilə deyildir. Görmə və eşitmənin həqiqəti budur ki, görməlilər və eşitməlilər şəxs üçün, hətta hiss üzvlərinin rolu olmasa belə, aşkar olsun. Biz də əgər nöqsanlı olmasaydıq, gözün və qulağın rolu olmadan görə və eşidə bilərdik. Belə bir idrak, doğrudan da, görmək və eşitmək sayılardı. Amma yaranış aləmi Allahı zat və sifətlər baxımından kamalın son

---

[1]"Nisa", 58

dərəcəsində olduğu üçün işləri də kamil və qeyri-məhduddur. Bizdə olan ehtiyaclar Onda yoxdur.

Həmçinin biz nöqsanlı olduğumuz üçün, öz məqsədlərimizi başa salmaq üçün dildən, ağızdan və hərflərin məxrəcindən istifadə etməyə məcburuq. Amma uca Tanrı danışmaq və öz məqsədini çatdırmaq üçün dilə və ağıza ehtiyacı yoxdur. Başqa yolla öz məqsədlərini çatdırır və elə o özü də bir növ danışmaqdır. Çünki danışmağın yeganə yolu şəxsin öz məqsədlərini dil və ağız vasitəsilə çatdırması deyil. Əgər həmin iş dilin və ağzın rolu olmadan yerinə yetirilərsə, yenə də danışmaq adlanır.

Buna görə, Allahın sifətlərinin bizim sifətlərimizlə çoxlu fərqləri vardır.

* * *

## Cəlal sifətləri

Allahın nöqsandan və məhdudiyyətlərdən uzaq olduğunu göstərən hər bir sifət cəlal sifəti adlanır. Cəlal sifətlər inkar-edici sifətlər də adlandırılır. Çünki onların məfhumu Allahda nöqsanların olmasını inkar etməkdir. Allahın zatı kamil və sonsuz bir varlıqdır. Onda heç bir nöqsan və məhdudiyyət yoxdur. Bu cəhətə görə, zəruri varlıqdır. Onun üçün yoxluq təsəvvür oluna bilməz. Bütün kamal sifətlərinə malikdir. Heç bir kamal sifətinin Onda olmaması mümkün deyil. Əksinə, hər cür nöqsan və eybdən pak və münəzzəhdir. Ondan nöqsanları inkar edən sifətlər cəlal sifətləri adlanır. Cəlal sifətləri çoxdur, lakin biz onlardan bəzisinə işarə edirik.

***1. Allah cism deyil.*** Cism uzunluğu, eni, hündürlüyü, forması olan və öz həcmi miqdarında məkan tutan bir şeydir. Xüsusi bir məkanı olmadan mövcud ola bilməz. Həmin dəlilə görə Allah cism deyil. Çünki əgər cism olsa, yerləşmək üçün məkana ehtiyacı olacaq. Belə bir möhtac varlıq isə heç vaxt zəruri varlıq ola bilməz. Çünki zəruri varlığın zərurəti ehtiyac və məhdudiyyətlə uyğun gəlmir. Allah məkanların xaliqidir. Belə bir varlığın necə məkana ehtiyacı ola bilər?

***2. Allah görünən deyil.*** Yəni gözlə görünmür. Çünki təkcə cismlər və onların xassələri gözlə görünə bilər. Öncə isbat et-

dik ki, Allah cism deyil. Buna görə, heç vaxt görünməz. Böyük Allah nə bu dünyada və nə o dünyada gözlə görünməz. O, maddi xüsusiyyətlərdən uzaq olan qeyri-məhdud bir varlıqdır. Belə bir varlıq maddi gözlə necə görünə bilər? Göz müəyyən bir məsafədə onun qarşısında yerləşən şeyi müşahidə edə bilər. Halbuki Allahın varlığı qeyri-məhdud və məkansızdır. Bəlkə də, burada bir şəxs deyə bilər ki, əgər Allah varsa, gözlə, yaxud başqa hiss orqanlarından biri ilə hiss olunmalıdır. Belə bir varlığı necə qəbul edək ki, duyğu orqanlarından heç biri ilə hiss olunmur? Cavabında deyirik: Varlıq aləmi təkcə hiss olunan əşyalardan ibarət deyildir. Biz elə bu maddi aləmdə duyğu orqanlarının əhatə dairəsindən xaricdə olan yüzlərlə, minlərlə əşyalar görürük. Məgər siz Yerin cazibə qüvvəsini və elektrik enerjisini görürsünüzmü? Məgər bir atomda olan elektronların, protonların varlığını və onların hərəkətini müşahidə edə bilirsinizmi? Məgər canlı bir varlıqda həyatı görürsünüz? Məgər heyvanın və insanın ruhunu müşahidə edə bilirsiniz? Məgər ananın öz övladına olan məhəbbətini görürsünüz? Havada olan bütün səsləri eşidirsiniz? Eləcə də yüz minlərlə bu cür misallar.

Bütün bu əşyalar maddi və cismanidirlər. Bunlar duyğu orqanlarının heç biri ilə hiss olunmurlar. Amma siz onların varlığını qəbul edirsiniz. Çünki təsir və nişanələrini müşahidə edirsiniz.

Bəs belə olduğu təqdirdə, maddədən, zamandan və məkandan üstün olan aləmin yaradıcısını müşahidə etməyi ummaq olarmı? Məhdud olmayan bir varlıq bizim məhdud orqanlarımızda necə yerləşə bilər. Amma Onun əlamətlərini, nişanələrini yaranış aləminin gözəlliklərində və heyranediciliyində müşahidə edirik, beləliklə bizdə, Onun varlığına iman və yəqin yaranır.

Qurani-Məciddə də buyurulub ki, uca Tanrı gözlə görünmür. Belə ki, buyurulur:

" لاَّ تُدْرِكُهُ الأَبْصَارُ وَهُوَ يُدْرِكُ الأَبْصَارَ وَهُوَ اللَّطِيفُ الْخَبِيرُ "

***"Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edər. O, lətifdir (cismlikdən uzaqdır), (hər şeydən) xəbərdardır!"***[1]

3. ***Allah elmsiz deyil***[2]***:*** Kamal sifətləri bəhsində isbat olundu ki, elm varlıq üçün bir kamaldır ki, Allah onunla xarakterizə olunur. Allahın varlığı sonsuz olduğu kimi, elmi də sonsuzdur. Bütün hallarda hər bir şeyə elmi var. Onun varlığında heç bir nöqsan və cəhalət yoxdur. Buna görə, uca Tanrı elmsiz deyil. Quranda buyurulur:

"إِنَّ اللّهَ لاَ يَخْفَى عَلَيْهِ شَيْءٌ فِي الأَرْضِ وَلاَ فِي السَّمَاء"

***"Yerdə və göylərdə heç bir şey Allahdan gizli qalmaz".***[3]

4. ***Allah aciz deyil.*** Öncə kamal sifətləri bəhsində isbat olundu ki, qüdrət bir kamaldır və Allahda bu kamal vardır. Allahın varlığı sonsuz olduğu kimi, Onun qüdrəti də hədsiz və sonsuzdur. Mümkün olan hər bir işə qadirdir. Buna görə də, Allah mümkün olan hər hansı bir şeyi yerinə yetirməkdə aciz deyil.

5. ***Heç bir təsirə məruz qalmır.*** Allahda heç bir dəyişiklik yoxdur. Qocalmır və xəstələnmir. Onda unutqanlıq, yatma və yorğunluq ola bilməz. Bir işi yerinə yetirməkdən peşman olmur. Çünki bu cür sifətlər cismin və maddənin xüsusiyyətlərindəndir. Və əvvəlcə isbat olundu ki, Allah cism və maddə deyil. Deməli, bu hadisələr Ona şamil olunmur. Buna görə

---

[1] "Ənam", 103

[2] Əslində, bu ifadə ərəb dilində "cahil deyil" şəklində işlənir. Ərəb dilində cəhl elmin müqabilindədir. Amma dilimizdə bu söz yaxşı məna vermədiyi üçün mətndə onu "elmsiz deyil" şəklində verməli olduq.— Red.

[3] "Ali-İmran", 5

də, Onun elmi, eşitməsi, görməsi, iradəsi, digər kamal sifətləri elə olmalıdır ki, Onun dəyişikliyə uğramasına səbəb olmasın.

Quranda buyurulur:

"اللّهُ لاَ إِلَهَ إِلاَّ هُوَ الْحَيُّ الْقَيُّومُ لاَ تَأْخُذُهُ سِنَةٌ وَلاَ نَوْمٌ"

***"Allahdan başqa, heç bir tanrı yoxdur. (Zatı və kamal sifətləri ilə hər şeyə qadir olub, bütün kainatı yaradan və idarə edən, bəndələrini dolandıran və onların işlərini yoluna qoyan) əbədi, əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər".***[1]

***6. Allahın məkanı yoxdur.*** Heç bir yerdə deyil. Nə yerdə, nə də göydə. Çünki cism deyil ki, məkana ehtiyacı olsun. O, məkanların xaliqidir və onlardan əvvəl var olmuşdur. Allah maddədən uzaq olan mücərrəd bir varlıqdır. Bütün varlıqlara əhatəsi var. Xüsusi bir məkanı yoxdur. Hər bir yerə əhatəsi olan sonsuz bir varlıqdır. Hər yerdə hazırdır və bizlərə nəzarət edir. Onun üçün məkan məhdudiyyəti yoxdur.

Dua vaxtı əllərimizi göylərə tərəf qaldırmağımız Allahın səmada olması mənasına gəlmir. Bununla yalnız öz kiçikliyimizi bildirir və özümüzü onun qarşısında pərişan və utanan bir dilənçi kimi göstəririk.

Məscidi və Kəbəni Allahın evi adlandırmağımız buna görədir ki, orada Allaha ibadət olunur. Özü, onları Allahın evi adlandırmaqla onlara şərafət vermişdir.

***7. Allah möhtac deyil.*** Allah sonsuz və hər cəhətdən kamil olan bir varlıqdır. Varlığının heç bir nöqsanı və həddi yoxdur. Buna görə zəruri varlıqdır. Onun barəsində yoxluq təsəvvür olunmur. Çünki başqa bir şeyə ehtiyacı yoxdur. Bütün kamal sifətləri Ondandır. Onun zatı bütün kamal sifətlərinə malikdir. Onda olmayan heç bir kamal yoxdur. Buna görə də, Allah heç bir kəsə və heç bir şeyə möhtac deyil. Onun,

---

[1]"Bəqərə", 255

bəndələri üçün vəzifələr təyin etməsi və dini müdafiə üçün cihad etməyi onlardan tələb etməsi, onların ibadətinə və cihadına ehtiyacı olduğu üçün deyildir. Əksinə, insanların özlərinin ruhi təkamülə və Axirət səadətinə nail olmaq üçün dinə, ibadət və Allah yolunda olan cihada ehtiyaclıdırlar. Mərhəmətli Allah, peyğəmbərləri göndərməklə şəriət və qanunlar təyin etmiş və onların ehtiyaclarını təmin etmişdir. Bəndələr dindarlıqları ilə Allaha minnət qoya bilməzlər, əksinə, kəramətli Allah, peyğəmbərlər göndərməklə və şəriət hökmləri ilə insanları hidayət etməklə onlara minnət qoymuşdur.

Allahın xums və zəkatı vacib edərək insanlardan yoxsullara kömək etmələrini və xeyriyyəçilik işlərində, ümumi mənafe üçün çalışmalarını tələb etməsi, Onun, insanların maddi köməklərinə ehtiyacı olduğuna görə deyildir. Əksinə, bu kimi işlər cəmiyyətin idarə olunmasında zəruri və xalqın xeyrinə olduğu üçündür.

Bundan başqa, böyük Allah, bəndələrinə lütf edib cəmiyyətin öz xeyri üçün olan bu maddi köməkləri ən böyük ibadətlərdən biri hesab etmişdir ki, əgər Allaha itaət qəsdi ilə yerinə yetirilərsə, ruhun təkamülünə səbəb olar və insana Axirət aləmində ondan yüzlərlə dəfə artıq mükafat verilər.

***8. Allah zalım deyil.*** Allah heç kəsə və heç zaman zülm etməz. Çünki ehtiyacı yoxdur ki, zülm etsin. Bu barədə daha ətraflı şəkildə ədalət bölümündə oxuyacaqsınız.

Quranda buyurulur:

"إِنَّ اللَّهَ لَا يَظْلِمُ مِثْقَالَ ذَرَّةٍ وَإِن تَكُ حَسَنَةً يُضَاعِفْهَا وَيُؤْتِ مِن لَّدُنْهُ أَجْرًا عَظِيمًا"

***"Həqiqətən, Allah (heç kəsə) zərrə qədər zülm etməz. Əgər yaxşı bir əməl baş verərsə, onu (onun savabını) ikiqat artırar və öz tərəfindən də (bu əməlin sahibinə) böyük mükafat verər!"***[1]

---

[1] "Nisa", 40

9. ***Allahın şəriki yoxdur.*** Allahın nə varlıqların yaranışında, nə aləmin idarə olunmasında və nə də ibadətdə şəriki vardır. Ondan başqa pərəstiş edilməyə layiq olan məbud yoxdur (Buna görə də digər yalançı məbudlara ibadəti qadağan etmişdir.). Bu mövzunu dəlili ilə birlikdə daha ətraflı şəkildə tövhid bölümündə oxuyacaqsınız.

* * *

# *Tövhid*

*(təkallahlılıq)*

Tövhid bütün səmavi dinlərin, xüsusən, İslam dininin bünövrəsidir. Peyğəmbərlər insanları təkallahlılığa dəvət etmiş, şirk və çoxallahlılıqla mübarizə aparmışlar. Əziz İslam Peyğəmbəri öz dəvətini tövhidlə başlamışdır. O, dəvətinin ilk mərhələsində buyurmuşdur:

"قولوا لا اله الاالله تفلحوا"

***"Allahdan başqa, məbud yoxdur- deyb nicat tapın".***

İslam dininin təlimləri, hökmləri və qanunları tövhid prinsipinə əsaslanır. Qurani-Məcid tövhid məsələsinə xüsusi diqqət yetirmişdir. Bu mövzuda o qədər çoxlu ayələr var ki, Quranı şirklə mübarizə və tövhid kitabı adlandırmaq olar. Qurani-kərim şirki yeganə bağışlanmayan günah hesab etmişdir.

Quran buyurur:

"إِنَّ اللّهَ لاَ يَغْفِرُ أَن يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَلِكَ لِمَن يَشَاء"

***"Şübhə yoxdur ki, Allah Özünə şərik qoşanları əfv etməz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar".***[1]

Tövhidin müxtəlif qismləri var ki, bir neçə dərsdə onlara qısa şəkildə işarə olunacaq.

---

[1]"Nisa", 48

## Zatda tövhid

Zatda tövhid deyildikdə aləmin bütün məxluqlarının tək xaliq tərəfindən yaranması nəzərdə tutulur. Ondan başqa yaradan yoxdur. Allah adlandırdığımız o uca varlıq təkdir. Ehtiyacsız varlıq təkdir, aləmdəki bütün varlıqlar Ona bağlı və ehtiyaclıdır.

"قُلْ هُوَ اللَّهُ أَحَدٌ"

***"Ya Peyğəmbər! de: O Allah birdir".*[1]**

"قُلْ إِنَّمَا هُوَ إِلَٰهٌ وَاحِدٌ وَإِنَّنِي بَرِيءٌ مِّمَّا تُشْرِكُونَ"

***"De: O, tək bir Tanrıdır. Mən sizin Ona şərik qoşduqlarınızdan tamamilə kənaram!"*[2]**

Fəlsəfə və Kəlam kitablarında yaranışında tövhid üçün müxtəlif dəlillər gətirilmişdir. Amma burada onları təfərrüatı ilə qeyd etməyə ehtiyac yoxdur. Əgər zəruri, xalis və hüdudsuz varlığın mənasını yaxşı düşünsək, belə bir varlığın birdən artıq ola bilməyəcəyini təsdiq edərik. Varlıqlar iki qisimdirlər: məhdud və qeyri-məhdud.

Məhdud varlığın həddi-hüdudu var. Başqa əşyaların varlığı və kamillikləri onda yoxdur. Misal üçün, insanın varlığı, insan olmaqla məhduddur. Həmin cəhətə görə, bitki və cansız əşyalar kimi başqa şeylərin xüsusiyyətlərinin Ondan uzaq olduğunu demək olar. Demək olar: "insan bitki deyil", "insan cansız deyil" və s. Onlar da insan deyillər. Belə varlıqlar özü-özlüyündə varlığa malik deyillər. Ehtiyaclıdırlar və öz varlığını başqasından almalıdırlar. Bu kimi məhdud varlıqların sayının birdən çox olması mümkündür. Məsələn, insan məhdud olduğu üçün, milyonlarla insanın var olması mümkündür. Eləcə də, heyvanlar, bitkilər, cansızlar və s.

---

[1]"İxlas", 1

[2]"Ənam", 19

İkinci qisim isə qeyri-məhdud varlıqdır. Belə bir varlığın həddi-hüdudu yoxdur. Əksinə, mütləq və hüdudsuzdur. Hüdudsuz və nöqsansız olduğu üçün bütün kamal sifətlərinə malikdir və elə həmin cəhətə görə, mütləq şəkildə ehtiyacsız və özü-özlüyündə zəngindir. Odur ki, ondan daha üstün və daha zəngin varlıq yoxdur ki, ona ehtiyacı olsun. Belə bir varlığın çox ola bilməsi təsəvvür edilmir. Sonsuz bir varlığın qarşısında başqa bir sonsuz varlıq təsəvvür etmək olarmı ki, aləmin yaranmasında və idarə olunmasında onun şəriki olsun? Çünki ikinci ehtimal olunan zat, əgər birinci zatın bütün kamal sifətlərinə malik olsa, onun eyni, özü olacaq. Əgər kamal sifətlərinin bəzisi onda olmasa, məhdud və ehtiyaclı olacaq və belə bir varlığı Allahın şəriki saymaq olmaz. Deyilmiş sözlərdən belə bir nəticə alırıq ki, aləmin bütün varlıqları məhdud, ehtiyaclı və Allaha bağlıdır. Yalnız bir hüdudsuz və mütləq varlıq var. O, təkdir və şəriki yoxdur.

## Sifətlərdə tövhid

Allahın sifətlərində tövhid deyildikdə, uca Tanrının sifətlərinin Onun zatı ilə eyni olması, Onun zatına əlavə olunmaması nəzərdə tutulur. Mətləbin daha aydın olması üçün bir neçə məsələyə işarə edək.

1. Varlıqların zatı və sifətləri var. Misal üçün, ağ bir kağız nəzərdə tutun. Deyirik ki, bu kağız ağdır. Bu misalda "kağız" zatdır və "ağ" sifətdir. Kağızın ağ olması da, ağ olmaması da mümkündür. Ağlıq kağızın sifətidir və müstəqil bir varlığı yoxdur. Ağlıq kağızdan başqa bir şeydir və onun zatını təşkil etmir. Elə buna görə də, kağız ağ olmaya bilər.

Başqa bir misal: Bir alim insan nəzərdə tutun. Burada iki şey vardır: insan və elm. İnsan zatdır və elm onun sifəti. Elm insanın zatından sayılmır, onun zatına əlavə olunan bir sifətdir. Əgər elm insanın zatı olsaydı, onu öyrənməyə ehtiyac ol-

mazdı. Deməli, elm insanın zatının eyni və onun zatının bir hissəsi deyil.

2. Öncə deyildiyi kimi, uca Allah bütün kamal sifətlərinə malikdir. Hüdudsuz bir varlıq olduğu üçün, bütün kamal sifətləri onda olmalıdır. Əks təqdirdə, nöqsanlı, məhdud və səbəbə ehtiyaclı olan nəticə olacaq. Elm, qüdrət, həyat, eşitmək və görmək kimi kamal sifətləri ilə də tanış oldunuz.

Burada bu sual qarşıya çıxır ki, Allahın sifətləri necədir? İnsandakı kimi Allahın sifətləri Onun zatına əlavə olunubmu? Görəsən, uca Tanrının zatında elm, qüdrət, eşitmək və görmək yoxdur və bu sifətlər Onun zatına insanlarda olduğu kimi əlavə olunub? Yoxsa Allahın sifətləri başqa cürdür? Əgər keçmiş mətləbə diqqət etsəniz, bu sualın cavabını aydın şəkildə taparsınız.

Mətləbin aydın olması üçün deməliyik ki, uca Allah hüdudsuz, mütləq və sonsuz bir varlıqdır. Belə bir varlıqdan kamal sifətləri ayrı ola bilməz. Əks təqdirdə, məhdud, naqis və möhtac olar. Buna görə də, elm, qüdrət, həyat və başqa kamal sifətləri uca Allahın eyni ilə zatıdır və zata əlavə olunmayıb. Bu cəhətdən də, həmişə bu sifətlərə malik olub və onu əldə etməyə ehtiyacı olmayıb. Uca Allah hüdudsuz varlıqdır və elmin, qüdrətin və həyatın özüdür (eynidir). Onun zatı zəruri varlıq olduğu kimi, elmi, həyatı, qüdrəti də zəruri, ehtiyacsız və hüdudsuzdur. Vahid bir varlıq olsa da, hüdudsuz bir varlıqdır ki, bütün bu həqiqətləri (elm, həyat, qüdrət və s.) bəsit şəkildə özündə ehtiva edir və bu müxtəlif anlayışları Ona aid etmək olar. Uca Allahın sifətləri və bu sifətlərlə vəsf olunan zatı bir-birindən ayrı deyil, əksinə, Onun müqəddəs zatı və kamal sifətləri bir-birinin eynidir və hüdudsuz, mütləq olan vahid bir varlıqla mövcuddurlar.

Əli ibn Əbu Talib (ə) "Nəhcül – Bəlağə" adlı kitabda bu dəqiq mənaya işarə edərək buyurur:

"İxlasın ən üstün dərəcəsi (zata əlavə olunan) sifətləri Allahdan inkar etməkdir. Çünki hər bir sifət özünün vəsf olunandan başqa bir şey olmasını bildirir. Hər bir vəsf olunan da özünün sifətdən başqa bir şey olmasını çatdırır. Odur ki, Allahı (zata əlavə olunan sifətlərlə) vəsf edən şəxs, sifətləri Onunla eyni səviyyədə tutmuş olur".[1]

**Yaranışda tövhid**

Yaranışında olan tövhid bu mənadadır ki, uca Allah zat baxımından yeganə və şəriksiz olduğu kimi, yaratma baxımından da yeganədir və Ondan başqa yaradan yoxdur. Əvvəlki dərslərdə oxudunuz ki, varlıqlar iki qisimdir.

1. Varlığı zatı ilə eyni olan və başqasına ehtiyacı olmayan varlıq;

2. Öz zatında varlığı olmayan varlıqlar. Bunlar varlığı zatı ilə eyni olan ehtiyacsız varlığa möhtacdırlar. Varlığı zatı ilə eyni olan tək ehtiyacsız varlıq isə Allahdır. Buna görə, aləmin bütün fenomenləri öz varlığında tək Allaha möhtacdırlar və Ondan başqa, varlıq verən yoxdur. Mümkün varlıqlar vücuda gəlməkdə Allaha ehtiyaclı olduğu kimi, varlıqlarının qalmasında, davam etməsində, işlərində və təsirlərində də ehtiyacsız olan həmin zata bağlı və Ona ehtiyaclıdırlar. Əgər var olmaqlarında müstəqil deyillərsə, deməli, işdə və təsir etmədə də müstəqil deyillər.

Onların hamısına varlıq verib, varlıqlarına təsir qüvvəsi verən Allahdır. Buna görə də, hər bir şey Allahdandır və Ondan başqa xəlq edən, yaradan yoxdur və yaranışda olan tövhid həmin mənayadır.

**"لا حول ولا قوة الا بالله العليّ العظيم"**

---

[1]"Nəhcül-bəlağə", 1-ci xütbə:
و كمال الإخلاص له نفي الصفات عنه لشهادة كل صفة أنها غير الموصوف و شهادة كل موصوف أنه غير الصفة فمن وصف الله سبحانه فقد قرنه.

***"Uca və əzəmətli Allahdan başqa, heç bir güc və qüdrət yoxdur".***

Şübhəsiz ki, aləmdə olan fenomenlərin təsir və işgörmə qabiliyyətləri vardır. Məsələn, Günəşin işığı və hərəkəti ilə bitkilər böyüyür. Bitkilər heyvanlar və insanlar üçün qida hazırlayırlar. Buna bənzər yüzlərlə, minlərlə təsirləri təbiət aləmində müşahidə edirik. Bu kimi təsirlər inkar olunası deyil. Amma bunların heç biri yaradan və varlıq verən deyildir. Allahın onlara verdiyi təsir qüvvəsi təbii proseslər nəticəsində üzə çıxır. Maddi mövcudlara varlıq verən və onların varlıqlarına xüsusi təsir qüvvəsini bəxş edən Allahdır. Alimlər, tədqiqatçılar öz tədqiqatları və təcrübələri ilə çox qəribə yeni əşyalar yaradırlar, amma azacıq diqqət etməklə aydın olur ki, onlar da varlıq verən deyillər. Onların ən mühüm işi yalnız maddi əşyalarda olan sirləri kəşf etməkdir. Bu sirləri isə aləmin yaradıcısı onların varlığında qoyub. Biz maddi aləmdəki səbəbləri və onların təsirlərini inkar etmirik, yalnız onların müstəqil təsirə malik olmasını inkar edirik. Bu sözlərin məcmusundan belə bir nəticə alırıq ki, Allahın zatı tək olduğu kimi, yaratma və xəlq etmədə də təkdir və şəriki yoxdur. Qurani-kərim bildirir ki, Ərəb yarımadasının müşrikləri də yaranışda olan tövhidi qəbul etmişlər.

"وَلَئِن سَأَلْتَهُم مَّنْ خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ وَسَخَّرَ الشَّمْسَ وَالْقَمَرَ لَيَقُولُنَّ اللَّهُ فَأَنَّى يُؤْفَكُونَ"

***"(Ya Rəsulum!) Həqiqətən, əgər (Məkkə müşriklərindən): "Göyləri və yeri kim yaratmış, Günəşi və Ayı kim ram (öz əmrinə, insanların mənafeyinə kim tabe) etmişdir?" - deyə soruşsan, onlar mütləq: "Allah!" - deyə cavab verəcəklər. Elə isə onlar (Tövhiddən, yalnız Allaha ibadət etməkdən) niyə döndərilirlər?"***[1]

---

[1]"Ənkəbut", 61

"وَلَئِن سَأَلْتَهُم مَّن نَّزَّلَ مِنَ السَّمَاءِ مَاءً فَأَحْيَا بِهِ الْأَرْضَ مِن بَعْدِ مَوْتِهَا لَيَقُولُنَّ اللَّهُ"

***"Həqiqətən, əgər sən (Məkkə müşriklərindən): "Göydən yağmur endirib quruduqdan sonra onunla yerə təzədən can verən kimdir?" - deyə soruşsan, onlar mütləq: "Allahdır!" – deyə cavab verəcəklər".*** [1]

"أَفِي اللَّهِ شَكٌّ فَاطِرِ السَّمَاوَاتِ وَالأَرْضِ"

***"Məgər göyləri və Yeri yaradan Allaha da şübhə etmək olarmı?!"*** [2]

"قُلِ اللَّهُ خَالِقُ كُلِّ شَيْءٍ وَهُوَ الْوَاحِدُ الْقَهَّارُ"

***"De: "Allah hər şeyin xaliqidir. O birdir, qəhr edəndir (hər şeyə gücü yetən, hər şeyə qalib gələndir!)"*** [3]

"هُوَ اللَّهُ الْخَالِقُ الْبَارِئُ الْمُصَوِّرُ لَهُ الْأَسْمَاءُ الْحُسْنَى"

***"O, (hər şeyi) yaradan, yoxdan var edən, (hər şeyə) surət verən Allahdır. Ən gözəl adlar (əsmayi-hüsna) ancaq Ona məxsusdur".*** [4]

Bu kimi ayələrdən başa düşülür ki, Ərəb yarımadasının müşrikləri və Qurani-kərimin xitab etdiyi şəxslər yaranışın Allah tərəfindən olduğunu bilirdilər və bu cəhətdən müşrik deyildilər. Amma dünyanın başqa məntəqələrindəki müşriklərin də həmin əqidəyə malik olmaları və yaranışda olan tövhidi qəbul etmələri bu ayələrdən çıxmır. Əksinə, o zaman dünyanın başqa yerlərində "yaranışda şirk"ə inananlar da var idi. Necə ki, atəşpərəstlər Ahuraməzdaya və Əhrimənə inanır, Ahuraməzdanı xeyir allahı, Əhriməni isə şər allahı bilirdilər. Amma zatı tövhid mövuzusunda bu əqidənin puç olduğu isbat olundu.

---

[1] "Ənkəbut", 63
[2] "İbrahim", 10
[3] "Rəd", 16
[4] "Həşr", 24

## Rübubiyyətdə (idarəetmədə) tövhid

Öncə dedik ki, uca Allah zat baxımından yeganə olduğu kimi, yaratmada da təkdir və şəriki yoxdur. Burada isbat olunacaq ki, O, aləmin idarə olunmasında da təkdir və şəriki yoxdur. Əvvəlcə rübubiyyət sözünün mənasını açıqlayaq, sonra isə mətləbi izah edib, ona dəlil gətirək.

Leksik baxımdan "rəbb", ixtiyarında bir şey olan və həmin şeyin işlərini qaydaya salan və idarə edən şəxsə deyilir. İdarəetmə də bu mənadadır. İxtiyarında tarla olan və bu tarlanın bütün lazım olan işlərini yerinə yetirən şəxsi misal göstərmək olar. Bağban tarlanın rəbbi[1] və idarə edənidir. Bağban tarlanın xaliqi deyil, yalnız onun sahibi və idarə edənidir. Və ya əgər bir binanı bir şəxsin ixtiyarında versələr və onun işlərinin idarəsini ona tapşırsalar, həmin şəxs o binanın sahibi və idarəçisi olar. Yaxud mal-qaranın müxtəlif işlərinin idarəsini bir insan öhdəsinə götürsə, onun sahibi və idarə edəni hesab olunar.

Burada bu sual qarşıya çıxır ki, aləmi idarə etmək kimin öhdəsindədir? Aləmi yaradan və onun yaranışında şəriki olmayan Allah özü, təkmi aləmi idarə edir, yoxsa aləmin bütün varlıqlarını, yaxud onların bəzilərini idarə etməyi müəyyən şəxslərin və ya başqa əşyaların öhdəsində qoyub və Özü ona dəxalət etmir? Burada haqqıda danışacağımız məsələ bundan ibarətdir. Qurandan və tarixdən aydın olur ki, Ərəb yarımadasının müşrikləri zatda və xaliqiyyətdə (yaratmada) olan tövhidi qəbul edirmişlər. Amma rübubiyyətdə tövhidi qəbul etmir, başqa şəxsləri və əşyaları aləmi idarə etməkdə Allahın şəriki bilirdilər. Ərəb yarımadasının müşrikləri başqa ölkələrin müşrikləri kimi düşünürdülər ki, Allah aləmin idarəsini görünməyən qüvvələrin, məsələn, mələklərin, cinlərin insan

---

[1] Burada "rəbb" deyildikdə onun leksik mənası nəzərdə tutulur.

allahının, heyvan allahının, dəniz və səhra allahının, bitki allahının, insanın, müqəddəs ruhların və şər ruhların öhdəsinə qoyub və onlar müstəqil formada təbiət aləmini idarə edirlər. Buna inandıqlarına görə də, böhran və təhlükə zamanı çətinliklərin həll olunmasında öz problemləri ilə əlaqədar olan qeybi qüvvəyə pənah aparırdılar. Onların diqqətini cəlb etmək üçün ibadətlə və nəzir-niyazla məşğul olurdular. Xurafatdan başqa bir şey olmayan bu qeybi qüvvələr onların gözü qarşısında olmadığı üçün, ağacdan, daşdan, metallardan büt adlı heykəllər düzəldir, ibadət vaxtı diqqətlərini onlara tərəf yönəldir və onların qarşısında təzim edirdilər. Həqiqətdə isə hədəfləri qeybi qüvvələrə və allahlara ibadət etmək idi.

Amma Qurani-kərim rübubiyyətdə və iradəetmədə olan şirki batil bir əqidə hesab edir və idarəetməni də uca Allaha məxsus bilir. Bu barədə çoxlu ayələr vardır ki, onlardan bəzisinə işarə edirik:

”اللّهُ الَّذِي رَفَعَ السَّمَاوَاتِ بِغَيْرِ عَمَدٍ تَرَوْنَهَا ثُمَّ اسْتَوَى عَلَى الْعَرْشِ وَسَخَّرَ الشَّمْسَ
وَالْقَمَرَ كُلٌّ يَجْرِي لأَجَلٍ مُّسَمًّى يُدَبِّرُ الأَمْرَ يُفَصِّلُ الآيَاتِ لَعَلَّكُم بِلِقَاء رَبِّكُمْ تُوقِنُونَ“

***"Gördüyünüz göyləri dirəksiz olaraq yüksəldən, sonra ərşi yaradıb hökmü altına alan (ərş üzərində bərqərar olan), müəyyən vaxta (dünyanın axırına - Qiyamətə) qədər (səmada) dolanan Günəşi və Ayı ram edən, bütün işləri yoluna qoyan, ayələri müfəssəl izah edən məhz Allahdır. (Bütün bu dəlillərdən sonra) Rəbbinizlə qarşılaşacağınıza (Qiyamət günü dirilib haqq-hesab üçün hüzurunda duracağınıza), bəlkə, inanasınız!"***[1]

”إِنَّ رَبَّكُمُ اللّهُ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالأَرْضَ فِي سِتَّةِ أَيَّامٍ ثُمَّ اسْتَوَى عَلَى الْعَرْشِ
يُدَبِّرُ الأَمْرَ مَا مِن شَفِيعٍ إِلاَّ مِن بَعْدِ إِذْنِهِ ذَلِكُمُ اللّهُ رَبُّكُمْ فَاعْبُدُوهُ أَفَلاَ تَذَكَّرُونَ “

[1]"Rəd", 2

***"Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşə ucalan (ərşi hökmü altına alan), hər işi yerinə qoyan (səhmana salan) Allahdır. Onun izni olmadan heç bir şəfaət edən ola bilməz. Bu, Rəbbiniz olan Allahdır. Ona ibadət edin. Məgər öyüd-nəsihət qəbul etməyəcəksiniz?"[1]***

Məcazi mənada işlənən "Ərşə ucalmaq" sözü aləmi idarə etmək üçün ona tam hakim olmaq mənasını verir. Bu isə elə rübubiyyət deməkdir. Odur ki, rübubiyyət Allaha məxsusdur və O, bu cəhətdən də təkdir. Digər səbəblərin təsiri Onun icazəsi ilədir.

Bir sıra başqa ayələrdə bu mətləbə işarə olunmuşdur.

"بَل رَّبُّكُمْ رَبُّ السَّمَاوَاتِ وَالْأَرْضِ الَّذِي فَطَرَهُنَّ "

***"Rəbbiniz göylərin və yerin Rəbbidir ki, onları yaratmışdır".[2]***

"قُلْ أَغَيْرَ اللّهِ أَبْغِي رَبًّا وَهُوَ رَبُّ كُلِّ شَيْءٍ"

***"De: Allah hər şeyin Rəbbi olduğu halda, heç mən Ondan başqa Rəbbmi istərəm?"[3]***

"الْحَمْدُ لِلّهِ رَبِّ الْعَالَمِينَ"

***"Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur".[4]***

Buna görə, uca Allah həm zat, həm də yaratmaq baxımından tək olduğu kimi (əvvəlcədən onun dəlili ilə tanış oldunuz), aləmi idarə etməkdə də təkdir və şəriki yoxdur. Aləmi Özü idarə edir və aləmin işlərini idarə etməyi (görünən və görünməyən) heç bir kəsə və heç bir şeyə tapşırmamışdır. Mətləbin fəlsəfi dəlili yaranışda olan tövhiddə deyildi. Orada dedik ki, aləmin mümkün varlıqları öz varlıqlarında və işlərində varlığı zatı ilə eyni olan və başqalarına ehtiyacı olma-

---

[1]"Yunus", 3
[2]"Ənbiya", 56
[3]"Ənam", 164
[4]"Fatihə", 2

yan bir varlığa ehtiyaclıdır. Belə bir varlıq uca Tanrıdan başqa bir şey deyil. Burada da deyilir: Aləmin (görünən və görünməyən) bütün fenomenləri öz varlıqlarında üstün və zəngin bir varlığa ehtiyaclı olduğu kimi, işlərində və təsirlərində də həmin ehtiyacsız varlığa ehtiyaclıdırlar, Ona tam şəkildə bağlıdırlar.

Allah aləmin fenomenləri arasında müstəqil və ehtiyacsız varlıq yoxdur ki, aləmi idarə etməyi ona tapşırmış olsun. Aləmdəki əşyalar arasında səbəb-nəticə əlaqəsini və onların bir-birinə təsir qoymasını müşahidə edərkən, onları öz işlərində müstəqil bilməməli və belə təsəvvür etməliyik ki, aləmin işlərini idarə etmək onlara həvalə olunmuşdur. Quranda deyildiyi kimi, vasitələr və səbəblər Allahın izni ilə iş görürlər. Mələklər uca Allahın məxluqlara vücud bəxş etməsində vasitəçi olaraq təsir göstərmələrinə baxmayaraq, öz təsirlərində müstəqil deyillər. Necə ki, maddi səbəblər də nəticələrin vücuda gəlməsinə təsir göstərir, amma müstəqil formada yox. Bu səbəblər həm öz varlıqlarında, həm də göstərdikləri təsirdə uca Allaha ehtiyaclı və bağlıdırlar.

## İbadətdə tövhid

İbadətdə tövhid deyildikdə ibadətin tək Allaha məxsus olması nəzərdə tutulur. İbadətdə tövhid peyğəmbərlərin ən mühüm şüarı olmuşdur. Quran buyurur:

"وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَّسُولاً أَنِ اعْبُدُوا اللّهَ وَاجْتَنِبُوا الطَّاغُوتَ"

*"Biz hər ümmətə: Allaha ibadət edin, Tağutdan çəkinin! - deyə peyğəmbər göndərmişdik!"*[1]

"وَمَا أَرْسَلْنَا مِن قَبْلِكَ مِن رَّسُولٍ إِلَّا نُوحِي إِلَيْهِ أَنَّهُ لَا إِلَهَ إِلَّا أَنَا فَاعْبُدُونِ"

---

[1]"Nəhl", 36

***"(Ya Rəsulum!) Səndən əvvəl elə bir peyğəmbər göndərmədik ki, ona: "Məndən başqa heç bir tanrı yoxdur. Buna görə də, yalnız Mənə ibadət edin!" - deyə vəhy etməyək".*** [1]

İbadət məbud qarşısında bəndəlik, sitayiş və xüsusi şəkildə təzim etmək deməkdir. Bu şərtlə ki, bu ritual əməllər məbudun üluhiyyətinə, yaxud rübubiyyətinə və ya xaliqiyyətinə etiqad üzündən yerinə yetirilsin, Üluhiyyət, rübubiyyət və xaliqiyyət uca Allaha məxsus olduğu üçün, ibadət də ona məxsus olmalıdır. Başqa heç bir varlığın belə bir məqama ləyaqəti yoxdur. İbadətdə olan tövhidin mənası budur.

İbadətdə tövhidin əksi, ibadətdə olan şirkdir. Quranda bildirilir ki, bir dəstə insanlar Allahdan başqasına, məsələn, mələklərə, qeybi qüvvələrə, Günəşə, Aya və ulduzlardan bəzisinə sitayiş edərək onların qarşısında təzim, nəzir-niyaz edib qurban kəsirmişlər. Onların ibadəti bu əqidədən qaynaqlanır ki, qarşısında təzim etdikləri şeyləri aləmi idarə etməkdə və insanların ehtiyaclarını təmin etməkdə təsirli və müstəqil bilirdilər. Onların nəzərini cəlb etmək üçün ibadət, nəzir-niyaz edir və qurban kəsirdilər. Daşdan, ağacdan və metaldan düzəlmiş olan bütlərin qarşısında təzim etmələri isə buna görə idi ki, onları qeybi varlıqların simvolu hesab edirdilər. Öz puç əqidələrinə görə onlara ibadət etməyi Allaha yaxınlaşmaq vasitəsi hesab edirdilər. Halbuki onlar heç nəyə qadir deyildi. Quran müşriklərin bu ibadətini məzəmmət edir və buyurur ki, aləmin bütün işlərini idarə edən tək Allaha ibadət edin.

Quran deyir:

"قُلْ أَتَعْبُدُونَ مِن دُونِ اللّهِ مَا لاَ يَمْلِكُ لَكُمْ ضَرًّا وَلاَ نَفْعًا"

---

[1] "Ənbiya", 25

***"De: Allahı qoyub sizə nə bir zərər, nə də bir xeyir verən şeylərəmi ibadət edirsiniz?"[1]***

"إِنَّ الَّذِينَ تَعْبُدُونَ مِن دُونِ اللَّهِ لَا يَمْلِكُونَ لَكُمْ رِزْقًا"

***"Sizin Allahdan başqa ibadət etdikləriniz sizə ruzi verməyə qadir deyillər".[2]***

"وَإِنَّ اللَّهَ رَبِّي وَرَبُّكُمْ فَاعْبُدُوهُ هَذَا صِرَاطٌ مُّسْتَقِيمٌ"

***"(İsa sonra belə dedi:) Allah mənim də, sizin də Rəbbinizdir. Yalnız Ona ibadət edin. Bu, doğru yoldur!"[3]***

"يَا أَيُّهَا النَّاسُ اعْبُدُواْ رَبَّكُمُ الَّذِي خَلَقَكُمْ وَالَّذِينَ مِن قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ"

***"Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış Rəbbinizə ibadət edin ki, müttəqi olasınız (Allahdan qorxub pis əməllərdən çəkinəsiniz)!"[4]***

"يَا قَوْمِ اعْبُدُواْ اللَّهَ مَا لَكُم مِّنْ إِلَهٍ غَيْرُهُ"

***"Ey camaatım! Allaha ibadət edin. Sizin Ondan başqa heç bir tanrınız yoxdur".[5]***

"وَيَعْبُدُونَ مِن دُونِ اللَّهِ مَا لاَ يَضُرُّهُمْ وَلاَ يَنفَعُهُمْ وَيَقُولُونَ هَؤُلاء شُفَعَاؤُنَا عِندَ اللَّهِ"

***"Onlar Allahı qoyub özlərinə nə bir xeyir, nə də bir zərər verə bilən bütlərə ibadət edir və: "Bunlar Allah yanında bizdən ötrü şəfaət edənlərdir!" - deyirlər".[6]***

"وَمَا أُمِرُواْ إِلاَّ لِيَعْبُدُواْ إِلَـهًا وَاحِدًا"

***"Onlara ancaq bir olan Allaha ibadət etmək əmr olunmuşdu".[7]***

---

[1] "Maidə", 76
[2] "Ənkəbut", 17
[3] "Məryəm", 36
[4] "Bəqərə", 21
[5] "Əraf", 59
[6] "Yunus", 18
[7] "Tövbə", 31

"قُلْ إِنَّمَا أُمِرْتُ أَنْ أَعْبُدَ اللَّهَ وَلَا أُشْرِكَ بِهِ "

***"De: Mənə Allaha ibadət etmək, Ona şərik qoşmamaq əmr olunmuşdur".*** [1]

Göründüyü kimi, Qurani-kərim onların üluhiyyətini, rübubiyyətini və xaliqiyyətini inkar etməklə, onlara olunan ibadəti faydasız hesab edir, ibadəti aləmin yeganə rəbbi və idarə edəni olan Allaha məxsus bilir. Keçən dərslərdə bu mətləbin fəlsəfi dəlilləri ilə tanış oldunuz və onları təkrar etməyə ehtiyac yoxdur.

İbadət sadəcə olaraq təzimin son dərəcəsi demək deyildir. Yalnız o təzim ibadət sayılır ki, təzim olunan varlığın üluhiyyətinə, rübubiyyətinə, yaxud xaliqiyyətinə etiqad üzündən olsun. Odur ki, mələklərin Adəm (ə) üçün etdiyi səcdə Quranda deyildiyi kimi, ibadət və şirk deyil.

Quran deyir:

"وَإِذْ قُلْنَا لِلْمَلَائِكَةِ اسْجُدُوا لِآدَمَ فَسَجَدُوا إِلَّا إِبْلِيسَ قَالَ أَأَسْجُدُ لِمَنْ خَلَقْتَ طِينًا"

***"Yenə yadına sal ki, bir zaman mələklərə: "Adəmə səcdə edin!" - deyə əmr etmişdik. İblisdən başqa, hamısı səcdə etmişdi. İblis: "Sənin palçıqdan yaratdığına mən səcdə edərəmmi?!"- demişdi".*** [2]

Məlumdur ki, Adəm peyğəmbər (ə) üçün olunan səcdə ibadət və şirk sayılmır, çünki Allah heç vaxt şirkə əmr etmir. Həmçinin həzrət Yusifin qardaşlarının və ata-anasının onun qarşısında etdikləri səcdə ibadət və şirk deyildir. Quranda buyurulur:

"وَرَفَعَ أَبَوَيْهِ عَلَى الْعَرْشِ وَخَرُّوا لَهُ سُجَّدًا "

***"(Yusif) ata-anasını taxt (öz taxtının) üstünə qaldırdı. Onlar (ata-ana və on bir qardaş) hamısı (hörmət əlaməti ola-***

---

[1] "Rəd", 36

[2] "İsra", 61

***raq) onun qarşısında səcdəyə qapandılar. (Allah onları bir-birinə qovuşdurduğu üçün şükür səcdəsi etdilər)".*[1]**

Məlum olur ki, Adəm peyğəmbərə mələklərin, Yusif peyğəmbərə ata-anasının və qardaşlarının etdikləri səcdə ibadət və şirk olmamışdır. Çünki, mələklər, Yusifin qardaşları və ata-anası Adəmə və Yusifə (ə) üluhiyyət, xaliqiyyət və rübubiyyət qəsdilə yox, ehtiram qəsdilə səcdə etmişlər.

Kəbənin qara daşını (əl-Həcərul-əsvədi) öpmək, ona əl sürtmək, Kəbənin ətrafına təvaf etmək Kəbə qarşısında son dərəcədə təzim sayılsa da, şirk hesab olunmur. Müqəddəs İslam şəriəti bütün bunları Allaha ibadət hesab edərək onlara əmr etmişdir. Buna görə də, İslam Peyğəmbərinin (s) pak məzarını ziyarət etmək, zərihini (qəbrini əhatə edən metal örtüyü) öpmək və dua etmək də şirk hesab olunmur. Həmçinin müqəddəs imamların da məzarını ziyarət etmək, onların zərihini öpmək, onların pak ruhlarına təvəssül etmək və Allahın bu seçilmiş bəndələrindən dua və şəfaət tələb etmək şirk hesab olunmur. Çünki bütün zəvvarlar bilirlər ki, əziz Peyğəmbər (s) və müqəddəs imamlar Allahın bəndələri və Ona ehtiyaclıdırlar. Onlara olunan ehtiram onların üluhiyyət ya xaliqiyyətinə olan etiqaddan irəli gəlmir. O müqəddəs məzarlarının ehtiram olunması bu səbəbə görədir ki, o məzarların əziz Peyğəmbərin (s) və onun seçilmiş övladlarının müqəddəs ruhları ilə bir növ bağlılığı var. Hədislərdə onlara ehtiram etmək, qəlblərdə yaşatmaq, onlara qarşı sədaqətli olmaq və itaət etmək sifariş olunmuşdur.

O müqəddəs ruhlara təvəssül etmək şəriətdə mötəbər dəlillərlə isbat olunduğu təqdirdə, həqiqətdə şəriət göstərişlərinə itaət etmək və Allaha yaxınlaşmaq üçün vasitədir. Siz gündəlik işlərinizdə təbii səbəblərdən istifadə edirsiniz və bu,

---

[1]"Yusuf", 100

şirk deyil. Allahın övliyalarının müqəddəs ruhlarına təvəssül etmək də qeyri-təbii səbəblərdən ola bilər. Amma hər halda, nə təbii səbəblər, nə də qeyri-təbii səbəblər təsir etməklərində müstəqil deyildir və hər hansı birinə təvəssül etmək şirk hesab olunmur.

* * *

## Ədalət

Ədalət kamal və fel sifətlərindəndir. Bu mənada ki, Allahın bütün işləri ədalət əsasında yerinə yetirilir. O, zülm etməz. Allahın ədaləti ümumi müsəlmanların qəbul etdiyi islami əqidədir. Hərçənd onun təfsirində mütəkəllimlər (kəlamçılar) arasında fikir ayrılığı var və bu fikir ayrılığı onları ədliyyə və əşəri adlı iki qrupa bölmüşdür.

Qurani-kərimdə ədalət sifəti Allah üçün isbat olmuş, zülm isə Ondan inkar olunmuşdur. Quranda deyilir:

"شَهِدَ اللّهُ أَنَّهُ لاَ إِلَهَ إِلاَّ هُوَ وَالْمَلاَئِكَةُ وَأُوْلُواْ الْعِلْمِ قَآئِمَاً بِالْقِسْطِ لاَ إِلَهَ إِلاَّ هُوَ الْعَزِيزُ الْحَكِيمُ"

***"Allah Özündən başqa, heç bir tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa-ədalətlə boyun qoyaraq (haqqa tapınaraq) o qüvvət, hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər".*** [1]

" وَتَمَّتْ كَلِمَتُ رَبِّكَ صِدْقاً وَعَدْلاً لاَّ مُبَدِّلِ لِكَلِمَاتِهِ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ"

***"Rəbbinin sözü düzgün və ədalətli şəkildə tamam oldu. Onun sözlərini dəyişdirə biləcək bir kimsə yoxdur. O, (hər şeyi) eşidəndir, biləndir!"*** [2]

---

[1] "Ali-İmran", 18
[2] "Ənam", 105

" إِنَّ اللّهَ لاَ يَظْلِمُ مِثْقَالَ ذَرَّةٍ وَإِن تَكُ حَسَنَةً يُضَاعِفْهَا وَيُؤْتِ مِن لَّدُنْهُ أَجْرًا عَظِيمًا"

***"Həqiqətən, Allah (heç kəsə) zərrə qədər zülm etməz. Əgər yaxşı bir əməl baş verərsə, onu (onun savabını) ikiqat artırar və öz tərəfindən də (bu əməlin sahibinə) böyük mükafat verər!"[1]***

Ədalətin yaxşı və zülmün pis iş olmasında şəkk yoxdur. Bütün insanlar ədaləti bəyənirlər və adil şəxsi tərifləyirlər. Zülmü pis bilirlər və zalımı pisləyirlər. Ədalət üçün müxtəlif təriflər söylənib ki, onları burada qeyd edib araşdırmağa imkan yoxdur.

Ən gözəl tərif də Nəhcül-bəlağənin bəzi sözlərində qeyd olunub. Həzrət Əli (ə) ədalətin fəziləti barəsində buyurub: "Ədalət hər bir şeyi öz yerində qərar verməkdir".[2]

Ədalət, yəni hər haqq sahibinin haqqını özünə verməkdir.[3]

Hər bir insanın öz yaranışına uyğun xüsusi hüquqları var ki, onlara ehtiram etmək başqa insanların vəzifəsidir. Məsələn, işləmək və əmək haqqı almaq hüququ, təhlükəsizlik və azadlıq hüququ, yaşamaq hüququ, elm öyrənmək hüququ, evlənmək və övlad sahibi olmaq hüququ və onlarla başqa hüquqlar. Adil, insanlarla ünsiyyətdə olarkən onların hüquqlarını möhtərəm sayan və bu hüquqlara təcavüz etməyən kəsə deyilir. Allahın ədalətinin isbatı üçün iki cür dəlildən istifadə etmək olar.

**1. Quran ayələri**

Uca Tanrı çoxlu ayələrdə ədalətə və insafa riayət etməyə sifariş edib və zülm etməkdən çəkindirib.

Nümunə üçün üç ayə gətiririk.

" إِنَّ اللّهَ يَأْمُرُ بِالْعَدْلِ وَالإِحْسَانِ"

---

[1]"Nisa", 40

[2]"Təsnifi Nəhcül-bəlağə" səh. 131, " العدل يضع الا مور مواضعها"

[3] "اعطاء كل ذى حق حقه"

***"Həqiqətən, Allah (Quranda insanlara) ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara (haqqını) verməyi buyurar".[1]***

"يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُونُوا قَوَّامِينَ بِالْقِسْطِ شُهَدَاءَ لِلَّهِ"

***"Ey iman gətirənlər! Ədalətdən möhkəm yapışan Allah şahidi olun!"[2]***

"وَلَا تَحْسَبَنَّ اللَّهَ غَافِلًا عَمَّا يَعْمَلُ الظَّالِمُونَ إِنَّمَا يُؤَخِّرُهُمْ لِيَوْمٍ تَشْخَصُ فِيهِ الْأَبْصَارُ"

***"(Ya Rəsulum!) Allahı zalımların etdikləri əməllərdən əsla qafil sanma! (Allah) onların cəzasını yubadıb elə bir günə saxlayar ki, həmin gün gözləri hədəqəsindən çıxar".[3]***

Allah onlarla ayədə bəndələrini ədalətə və insafa riayət etməyi əmr edib və zülm etməkdən çəkindirib. Mümkün deyil ki, Özü bəndələrinə zülm edə.

**2. Əqli dəlil**

Başqalarının hüquqlarına əhəmiyyət verməyən və onlara zülm edən şəxs ya zülmün pisliyini başa düşmür, ya məzlumlardan aldığı şeylərə ehtiyaclıdır və öz ehtiyacını ödəmək üçün onların əllərinin zəhməti ilə qazandığını qəsb edir, ya onların hüquqlarına riayət etmək qüdrəti yoxdur, ya paxıldır və bir şeyi başqalarına verməyə paxıllıq edir, yaxud da intiqam və boş-boşuna əyləncə qəsdilə zülm edir.

Amma uca Allah barəsində bu ehtimallardan heç birini vermək olmaz. Çünki əvvəlcə deyildi ki, uca Allah alim və hikmətlidir. Öz işlərini elm və hikmətlə yerinə yetirir və Onun varlığında "cəhl" (elmsizlik) yoxdur. Bütün kamal sifətlərinə malikdir və Onda heç bir nöqsan yoxdur. O, bütün kamal sifətlərinin mənbəyidir və nöqsanı yoxdur ki, başqalarına zülm etməklə öz nöqsanı və çatışmazlığını ödəsin. Allah sə-

---

[1] "Nəhl", 90
[2] "Nisa", 135
[3] "İbrahim", 42

xavətlidir. Başqalarına kamal sifətləri bağışlamaqla Ondan bir şey azalmır ki, başqalarına mənfəət verməkdə paxıllıq etsin. Mütləq qüdrət sahibidir və başqalarına kamal sifətləri verməkdə aciz deyil.

Buna görə də, zülm bütün əql sahibləri üçün qəbahəti aydın olan pis iş olduğu üçün uca Allah zülm etməz. Hər bir varlığa, o cümlədən insana onun varlığının istedadına və tutumuna uyğun kamal sifətləri bağışlayır və heç kəsin haqqını zay etmir.

**Yaranışda ədalət**

Yaranışda olan ədalət bu mənadadır ki, varlıq aləmində varlıqların yaranışında istedadlara və ləyaqətlərə riayət olunub. Uca Allah (bəndənin özü ləyaqətini itirmədikcə) öz feyzini heç kimdən əsirgəmir və (bir hikmətli səbəb olmadan) ayrıseçkiliyə yol vermir. Bu sözün aydın olması üçün bir neçə məsələyə işarə edək:

***Birinci məsələ:*** Varlıq aləminin fenomenlərini iki qismə bölmək olar: mücərrəd aləm və maddi aləm.

a) Mücərrəd aləm. Mücərrəd mövcudlar hərəkət və təkamül etməyən varlıqlardır. Allah onlara əldə edə biləcəkləri bütün kamillikləri əvvəlcədən vermişdir. Maddi və cismani deyillər, gözlə görünmürlər, məhv olmurlar. İlahinin feyz vasitələridir və Allaha itaətsizlik etmirlər.

Bu görünməyən varlıqlar şəriət dilində mələklər, Allahın qoşunları, dünyanın işlərini idarə edənlər, ruzi bölənlər, ərş, kürsü, lövh, qələm adları ilə tanınmışlar. Bu kimi təriflərdən belə başa düşülür ki, aləmlərin yaradıcısı olan Allahla məxluqlar arasında gözlə görünməyən vasitələr var. Daha aydın desək, yaranış sistemi xüsusi bir tərtib və nizam-intizamla yaranıb və idarə olunur. Mələklər Allahın ontoloji göstərişlərinin icraçısıdırlar və Onun əmrindən çıxmırlar:

"لَا يَعْصُونَ اللَّهَ مَا أَمَرَهُمْ وَيَفْعَلُونَ مَا يُؤْمَرُونَ"

***"Mələklər Allahın verdiyi əmrlərə asi olmurlar və Onun buyurduqlarını yerinə yetirirlər".*[1]**

Mələklərdən hər birinin xüsusi bir məqamı və vəzifəsi vardır:

"وَمَا مِنَّا إِلَّا لَهُ مَقَامٌ مَّعْلُومٌ"

***"Bizdən (mələklərdən) elə birisi yoxdur ki, onun müəyyən bir məqamı olmasın!"*[2]**

Mələklərin vəzifələri onların ontoloji xüsusiyyətləri ilə bağlıdır və şərti olaraq onlara tapşırılan bir iş deyildir. Bu mənada ki, onlardan hər birinin xüsusi bir varlığı var ki, onların vəzifələri o varlıqdan qaynaqlanır. Mələklər öz varlıqlarında və gördükləri işlərində müstəqil deyillər, yalnız vasitədirlər və ehtiyacsız, qadir, alim, hikmətli Allaha ehtiyaclı və bağlıdırlar.

b) Maddi aləm. Maddi varlıqlar mücərrəd varlıqların əksinə olaraq, maddə və surətdən[3] ibarətdir. Onlar maddi cəhətdən dəyişir və hərəkət edib təkamülə doğru gedir. Maddənin surətləri dəyişərək bir-birini əvəz edir, amma maddə özü qalır. Maddədə hərəkət nəticəsində yeni surəti qəbul etməyə hazırlıq yaranan zaman ona yeni surət verilir. Misal olaraq, bir alma ağacını nəzərdə tutun. Bu ağac maddə və surətdən ibarətdir. Onun surəti inkişaf edən və bar verən alma ağacı olmaqdan ibarətdir. Onun maddəsi isə alma ağacı surətini qəbul edən materiyadan ibarətdir. Alma ağacının maddəsinin əvvəlcə başqa bir surəti vardı. Məsələn, öncə alma çəyirdəyi idi, sonra bu alma çəyirdəyi, hərəkət və inkişaf nəti-

---

[1]"Təhrim", 6

[2]"Saffat", 164

[3] İslam fəlsəfəsində surət deyilərkən cismlərin mahiyyətini təşkil edən substansiya nəzərdə tutulur.

cəsində ağac olmaq qabiliyyətini tapır. Həmin ağac quruduqdan sonra surəti dəyişilir və torpaq surətinə çevrilir. Maddə isə elə əvvəki maddədir, amma artıq alma ağacında olan təsirlərə malik olmur. Maddə və surətin vəziyyəti və onların dəyişməsi elə bu yolla davam edir.

Maddi aləm çox genişdir və bəşərin onlardan tam və düzgün məlumatları yoxdur. Bizim məlumatımız müxtəlif bitkilər, heyvanlar, mədənlər, su, hava, işıq, istilik kimi yerdə olan bəzi varlıqlar barəsindəki və müəyyən qədər də Günəş və bəzi ulduzlar haqqındakı biliklə məhdudlaşır. Amma insanı heyrətləndirən əzəmətli qalaktikalar, sabit və hərəkət edən ulduzlar barəsində düzgün və tam məlumatımız yoxdur. Əzəmətli və gizli atomlar aləmindən də düzgün məlumatımız yoxdur. Tədqiqatçılar atomların sirlərini kəşf etməyə çalışıb, bu yolda böyük kəşflərə nail olsalar da, kəşf olunmamış sirlər kəşf olunmuşlardan milyonlarla dəfə çoxdur.

Amma ümumi şəkildə demək olar ki, bütün bunlar maddi aləmin fonemenlərindəndir və çox uzun illər boyu təbii proseslər nəticəsində təkamülə çatıb, surətini dəyişmiş və onlarda yeni potensiallar yarandığı zaman, yeni surət qəbul etmişdir. Bu ümumi hərəkətin gələcəyi barəsində də dəqiq və tam məlumatımız yoxdur.

***İkinci məsələ: ümumi səbəbiyyət qanunu.*** Öncə səbəb və nəticənin mənası ilə tanış oldunuz. Nəticə öz zatında varlığı olmayan fenomenə deyilir. Varlıq və yoxluq onun üçün eynidir və elə buna gorə də səbəbə ehtiyaclıdır. Səbəb o şeydir ki, nəticənin varlığı ona bağlıdır. Hər bir səbəb ilə nəticə arasında xüsusi bir əlaqə və uyğunluq var. Hər nəticə hər səbəbdən əmələ gəlmir və hər səbəb hər nəticənin mənşəyi ola bilməz. Səbəb əgər özü də fenomen olarsa, o da başqa bir səbəbə ehtiyaclı olacaq. Bu qayda ilə əgər onun səbəbi, səbəbinin səbəbi və s. özləri də fenomen olarsa, onlar da başqa bir səbəbə ehti-

yaclı olacaq. Nəhayət, bu səbəb-nəticə silsiləsi özü fenomen olmayan bir səbəbə, yəni varlığın eyni özü olan və ehtiyacsız zata çatacaq. O zəruri varlıq və səbəblər səbəbi isə Allahdır.

Buna görə, səbəbiyyət qanunu varlıq aləminə hakim olan və ona nizam-intizam bağışlayan ümumi və istisnasız bir qanundur. Uca Allah səbəblər və nəticələr yolu ilə aləmi yaradıb, idarə edir. Aləmdə nizam-intizam və qanun vardır və uca Allahın yaratma göstərişi ilə idarə olunur.

Quranda buyurulur:

"إِنَّا كُلَّ شَيْءٍ خَلَقْنَاهُ بِقَدَرٍ * وَمَا أَمْرُنَا إِلَّا وَاحِدَةٌ كَلَمْحٍ بِالْبَصَرِ"

***"Şübhəsiz ki, Biz hər şeyi müəyyən ölçüdə yaratdıq. Bizim buyurduğumuz bir göz qırpımında yerinə yetər!"***[1]

Bu qanunauyğunluq sistemində hər bir fenomenin qaçılmaz olan xüsusi bir yeri vardır ki, əgər başqa cür olsaydı, bütün yaradılış aləminin nizam-intizamı bir-birinə dəyərdi.

İndi isə insanın yaranışında olan ilahi ədalətə izah verək. İnsanın yaranışında olan ədalət bu mənadadır ki, həm insanların yaranışı, həm də onlardan hər birinə verilən xüsusiyyətlər ədalətə və onların istedadlarına, ləyaqətinə uyğundur. Allah taala heç kimdən öz feyzini əsirgəməmiş və ayrıseçkilik salmamışdır.

Məsələyə aydınlıq gətirək. İnsan təbiət aləminin varlıqlarından biridir. Bitkilər kimi qidalanır, inkişaf edir, çoxalır və heyvanlar kimi hissiyyatı, şüuru vardır və iradəsi ilə hərəkət edir. Buna görə, insanı bitki və heyvanların bir növü adlandırırlar. Amma insanda heyvanlarda və bitkilərdə olmayan bir üstünlük var. İnsan, heyvanlarda görünməyən əql və təfəkkürə malikdir. Bu fərqlənmənin mənşəyi onun mücərrəd olan ruhudur ki, insanın insanlığı ona bağlıdır. Fəlsəfi terminlə

---

[1] "Qəmər", 49-50

"insanın növ baxımından surəti" adlanır. İnsan da başqa maddi varlıqlar kimi, maddə və surətdən ibarətdir.

İnsanın maddəsi əvvəlcə başqa bir surətə malik olur, sonra isə mücərrəd ruhu qəbul edir. Hər bir maddənin ruh qəbul etməyə ləyaqəti yoxdur. Bitki, və ya heyvan surətini qəbul edən maddələr birbaşa ruh qəbul edə bilməzlər. Təkcə insan sperması insan ruhunu qəbul edə bilər. O da çoxlu dəyişiklik və təkamüllərdən sonra baş verir. Sperma da əvvəlcədən sperma deyildi, sperma olmazdan qabaq başqa bir şəkildə idi. Tədricən hərəkət və təkamül nəticəsində sperma olur. Kişi sperması münasib bir yerdə, yəni ana bətnində yerləşir və qadın sperması ilə birləşdikdən sonra insan olmaq potensialı onda yaranır və ruh ona verilir. Bu belə də olmalıdır, çünki uca Allah paxıl deyil.

Amma insanlar da zəka, yaddaş, rəng, boy, sağlamlıq və ya eyb cəhətdən eyni deyillər. Əksinə, çoxlu fərqli cəhətləri var. Bu fərqli cəhətlər də onların ata-analarının, babalarının spermasının xüsusiyyətlərinin, valideynlərin, xüsusilə ananın hamiləlik və süd vermək dövründə qidalanma tərzinin, yaşayış mühitinin, ata, ana və babaların sağlamlıq və ya xəstəliyinin nəticəsidir. Hər bir spermaya bu qeyd olunan səbəblər nəticəsində formalaşan potensialına uyğun olaraq müəyyən xüsusiyyətlərə malik olan ruh verilir. Səbəbiyyət qanununa əsasən, ruhun bu xüsusiyyətlərlə yaranması zəruridir.

Buna görə, hər bir insanın səbəbiyyət qanunu sistemində xüsusi bir yeri vardır və hər bir insan öz maddəsinin xüsusi potensialına uyğun şəkildə yaranma qabiliyyətinə malik olmuşdur. Bu şəkildə, zülm, ayrıseçkilik olmadan varlıq və vücudi kamillik sahibi olmuşdur. Əgər belə olmasaydı, bütün aləmə hakim olan səbəbiyyət qanunu pozular, yaranış sistemi dağılar və var ola bilməzdi.

Buna görə də, aləmin və insanın yaranışında olan ədalət bu mənadadır ki, aləmin fenomenləri, o cümlədən insanlar istedadlarına uyğun olaraq var olma ləyaqətini tapırlar. Elə həmin miqdarda onlara varlıq və kamal verilmiş, Allah öz feyzini əsirgəməmiş və ayrıseçkilik salmamışdır.

**Allahın ədaləti və ona olunan iradlar**

Ədalət İslamın mühüm məsələlərindən biridir ki, həmişə kəlami və fəlsəfi kitablarda müzakirə obyekti olmuşdur. Filosoflar və İslam alimləri onu qəbul edərək müdafiə etmiş, bir qrup isə əksinə, Allahın ədalətini inkar edib, ona şübhə ilə yanaşmışlar. Bu haqda çoxlu iradlar irəli sürmüşlər. Məsələn, dağıdıcı zəlzələləri, viranedici selləri, naqis və əlil uşaqların dünyaya gəlməsini, insanlar arasında müşahidə olunan fərqlilikləri, ayrı-seçkilikləri, yırtıcı, zərərli heyvanları və bu kimi başqa şeyləri yaranış aləmində ədalətin olmamasına dəlil hesab etmiş, bu yolla aləmin yaradanının varlığına və məada (Qiyamətdə dirilməyə) da şəkk etmişlər.

Buna görə, ədalət məsələsinin müzakirə olunması və indiki şəraitdə olunan etirazlara cavab vermək zəruri hesab olunur. Ədalət mövzusunu ortalığa atıb ona olunan iradlara cavab vermək, fəlsəfə və kəlamın mühüm məsələlərindən biridir ki, fəlsəfi və kəlami kitablarda təfərrüatı ilə araşdırılmış və sübut olunmuşdur. Təəssüflər olsun ki, o çətin məsələnin izahı bu kiçik yazıda mümkün deyil. Amma bəzi iradlar cavabsız qalmasın deyə, qısa və sadə cavablar verməyə çalışacağıq. Ən mühüm iradları və onların cavablarını dörd mərhələdə araşdıracağıq.

***1) Təbii fəlakətlər və bəlalar.*** Viranedici zəlzələlər, dağıdıcı sellər, qorxulu tufanlar və bu kimi, adətən, çoxlu can və mal itkisi ilə nəticələnən təbii fəlakətlər Allahın ədaləti ilə uy-

ğundurmu? Nə üçün Allah bu hadisələrin qarşısını almır? Nə üçün aləmi belə yaratmışdır?

Qısa olaraq demək olar ki, bu kimi hadisələr, o cümlədən təbii hadisələr özünəməxsus amillərin və səbəblərin nəticəsidir. Digər tərəfdən, öncə deyildiyi kimi, uca Allah səbəb-nəticə qanunu əsasında təbiət aləmini və maddi varlıqları yaratmış, aləmə nizam-intizam vermiş və onu idarə edir. Bu mənada yox ki, əvvəl varlıqları yaratmış və sonradan səbəb-nəticə əlaqəsini onlara vermişdir, əksinə, səbəbiyyət onların varlığının zatındadır və onlar arasında genetik əlaqə var. Səbəb və nəticələrdən hər birinin özünəməxsus yeri var. Onlardan hər hansı birinin səbəb-nəticə sistemindən götürülməsi bu sistemin bütövlükdə aradan getməsi deməkdir. Misal üçün, ədədlərin ardıcıllığına baxın. Ədədlərin hər biri (1, 2, 3 və s.) özünün xüsusi yerində yerləşib. Beş ədədi on ədədinin yerində və ya əksinə, on ədədi beş ədədinin yerində yerləşə bilməz. Ədədlərin silsiləsinin məcmusundan, məsələn, beş ədədini silə bilmərik. Onun silinməsi bütün ədədlərin silinməsi deməkdir.

Yaranışın nizam-intizamı da belədir. Hər bir fenomen özünün xüsusi yerində yerləşmiş və özünün səbəb və nəticələri ilə genetik əlaqədədir. Bu silsilə sonda səbəblər səbəbinə, yəni varlığı zatı ilə eyni olan və başqasına ehtiyacı olmayan uca Allaha bağlanır. Varlıq aləminin fenomenlərinin məcumusu Onun iradəsi ilə əmələ gəlmiş və idarə olunur, amma ayrı-ayrı iradələrlə yox, Quranda deyildiyi kimi, bəsit bir iradə ilə.[1]

Buna görə, zəlzələ təbii bir hadisədir və mütəxəssislərin sözünə görə, çoxlu mənfəətləri var ki, təbiət aləmində zəruri bir iş hesab olunur. Mütəxəssislər deyirlər ki, əgər zəlzələ olmasaydı, dağ olmazdı və əgər dağ olmasaydı, yağış və qar ol-

---

1 وَمَا أَمْرُنَا إِلَّا وَاحِدَةٌ كَلَمْحٍ بِالْبَصَرِ ("Qəmər", 50)

mazdı, əgər yağış olmasaydı, bitki, heyvan və insanın yaşayışı mümkün olmazdı.

Şübhəsiz ki, zəlzələlərdən bəzisi can və mal xəsarəti ilə nəticələnir ki, təbiətdəki əşyaların bir-birinə maneçilik və əngəl törətməsindən yaranır. Uca Allahdan gözləmək olmaz ki, zəlzələ zamanı özü birbaşa işə qarışıb onların qarşısını alsın. Çünki onların qarşısının alınması, onun səbəbini aradan qaldırmaq yolu ilə olmalıdır və bu da yaranışda olan nizam-intizamın pozulmasına səbəb olar.

Zəlzələnin zərərlərinin qarşısını almaq, insanın öz öhdəsinə qoyulmuşdur. Allah insana əql və zəka verib ki, elm əldə etməklə zəlzələnin səbəblərini, amillərini təcrübə etməklə tanısın, təbiəti cilovlamaqla zərərlərin qarşısını alsın və ya minimum həddə çatdırsın. Zəlzələ olan yerlərdə ev tikməsin, binaları zəlzələyə qarşı davamlı tiksin. Necə ki, bəzi ölkələr bu işin həllində böyük müvəffəqiyyətlərə nail olmuşlar.

Dağıcı sellər haqqında da həmin sözü demək olar. Sel güclü yağışların yüksəklikdə yerləşən bölgələrə yağması, yerin enişli olması və suyun axıcı olması nəticəsində yaranır. Buna görə də, xüsusi şəraitdə selin axması xüsusi səbəblər nəticəsində yaranan təbii bir hadisədir. Yağışın yüksəkliklərə yağması, yerin enişli olması və suyun axıcı olması Allahın böyük nemətlərindəndir ki, bitkilərin, heyvanların və insanların yaşamasına şərait yaradır. Bütün bunlar hamısı öz yerində yaxşıdır. Heç indiyə kimi fikirləşmisinizmi ki, yağış yüksəklikdə yerləşən bölgələrə yağmasaydı, yer enişli olmasaydı və suyun təbiəti axıcı olmasaydı, bizim yaşayışımız necə olardı? Şübhəsiz ki, bəzi hallarda bunlar sellərin axıb mal və can xəsarəti yetirməsi ilə də nəticələnə bilər. Bu kimi xəsarətlərin qarşısını almaq isə əql sahibi olan insanın öhdəsinə qoyulmuşdur. Sel gəlməsi ehtimal olunan yerlərdə ev tikməməli, binalarını selə qarşı dözümlü tikməlidirlər. Əgər insanlar bu

işlərdə səhlənkarlıq edib zərər çəksələr, təqsir onların özündədir.

**2) *Əlil və nöqsanlı doğulan uşaqlar.*** Allahın ədalətinə olan iradlardan biri də nöqsanlı uşaqların doğulmasıdır. Buna misal olaraq, anadangəlmə kar, kor, lal, iflic, əlil, dəli və s. formada dünyaya gələn uşaqları göstərmək olar. Allahın ədalətinə irad edənlər deyirlər: "Ömür boyu çətinliklə yaşayan və ata-anaları da qulluq etməkdən cana gələn bu kimi nöqsanlı uşaqların doğulması Allahın ədaləti ilə uyğundurmu? Nə üçün onlar başqa uşaqlar kimi sağlam deyillər? Axı nə üçün Allah onları yaradırdı? Bu zülm deyilmi?

Bu iradın cavabında deyə bilərik ki, bu kimi uşaqların doğulması ya ata-ananın spermasında olan və nəsillikcə onlara irsi olaraq keçən çatışmazlıqlardan, ya ata-ananın, xüsusilə ananın hamilə olduğu və uşağa süd verdiyi dövrdə düzgün qidalanmamasından, ya rüşeymin ana bətnində zəhərli və ziyanverici maddələr içərisində böyüməsindən, yaxud da hamiləlik və doğum zamanı ananın bətninin aldığı zərbədən irəli gəlir. Hər halda, körpədəki naqislik insan surətini qəbul edən maddədəki nöqsana aiddir. Allah bu cür uşaqlara naqis vücud yox, sadəcə vücud verir. Lakin onların vücudunu qəbul edən maddənin qabiliyyəti bundan artıq olmamışdır. Onların hər birinin maddəsinin xüsusi qabiliyyəti və tutumu isə özünəməxsus səbəblərin nəticəsidir.

Burada iki sual qarşıya çıxır:

1) Allah bu maddənin naqis olduğunu bildiyi halda, nə üçün ona insan vücudu verir?

2) Məgər Allah belə bir maddəyə sağlam surət verməyə qadir deyilmi?

Birinci sualın cavabında deyə bilərik ki, öncə deyildiyi kimi maddi əşyaların varlığı onların maddəsində yaranan xüsusi qabiliyyətə və istedada aiddir. Maddədə olan hər bir is-

tedada uyğun olaraq ona ruh verilir. Ruhu qəbul etməyə istedadı olan maddəyə ruh verilməlidir. Ruh xeyir və kamaldır, odur ki, Allah onu bəxş edəcəkdir. Məsələ yalnız bundadır ki, əgər bir maddə normal cismi inkişaf qabiliyyətinə malik olarsa, inkişaf edər və əgər onda nöqsan olarsa, kamil inkişafdan məhrum olacaq.

İkinci sualın cavabında da deyə bilərik ki, öncə deyildiyi kimi, uca Allah varlıqları səbəblər vasitəsi ilə yaradıb idarə edir. Elə bu yolla da aləmdə nizam-intizamla vücuda gəlmişdir. Uca Allahdan gözləmək olmaz ki, bəzən şəxsən özü vasitə olmadan dəxalət etsin və potensialı olmayan maddəyə təbii səbəblərin rolu olmadan düzgün inkişaf edən bir cism versin. Belə olduqda, bəzi vəziyyətlərdə səbəbiyyət qanunu və yaranış aləmində olan nizam-intizam pozulmalıdır. Belə bir iş də mümkün deyil. Bir cümlədə demək olar ki, Allahın qüdrətində şəkk-şübhə yoxdur, amma Onun qüdrəti mümkün olmayan işlərə aid olmur. Səbəb-nəticə sisteminin pozulması isə mümkün olmayan işlərdəndir.

Buna görə, şikəst olan uşaqlarda müşahidə olunan naqisliklər ruhu qəbul edən spermadakı nöqsandan irəli gəlir. Bu nöqsan özü də xüsusi səbəblərin nəticəsidir. Bu, maddi aləmin ayrılmaz xüsusiyyətlərindəndir və maddi varlıqların bir-birinə qarşı törətdiyi əngəl və maneçilikdən doğur. Onların qarşısını almaq təbii səbəblərin qarşısını almaqdan başqa bir yolla mümkün deyil. Allah insana əql verib ki, elmi tədqiqat və təcrübə ilə bu nöqsanların yaranma səbəblərini və amillərini kəşf edib övladın olmasında və hətta həyat yoldaşının seçimində istifadə etsin. Yaşayış mühitində, eləcə də hamiləlik və doğum günlərində qidalanma zamanı gigiyena qaydalarına tam şəkildə riayət etməklə, nöqsanlı doğulan uşaqların çoxunun qarşısını almaq olar.

Burada deyə bilərsiniz ki, ata-ana və ekoloji məsələlərə baxan idarələr öz vəzifələrinə əməl etmədikdə, uşaq naqis və əlil dünyaya gələrsə, uşağın nə günahı var ki, ömür boyu çoxlu çətinliklərə dözsün?

Cavabında deyirik: Əlbəttə, onun günahı yoxdur. Uca Allah da belə bir şəxsin bacarığından artıq onun üzərinə vəzifə qoymur. O, insandır və ruhi təkamül hər bir insan üçün öz istedad və səyi miqdarında müyəssər olur. Onun çətinliklərə səbir etməsi də qətiyyən mükafatsız qalmayacaq. Ölümdən sonra Axirət aləmində onların nəticəsini görəcək. Ata, ana və ona başqa qulluq edənlərin də yaxşı mükafatı olacaq.

***3) Fərqliliklər və ayrıseçkiliklər.*** Yaranışın adilanə olmasına olan iradlardan biri də insanlar arasında fərqliliklərin olmasıdır. Məsələn, dərinin rəngində olan fərqlilik, gözəllik, çirkinlik, zəka, yaddaş, cismi zəiflik-güclülük və bu kimi başqa işlər. Deyirlər: bütün insanlar yaşama və yaşayışın nemətlərindən istifadə etmə hüququna malik olduğu halda, nə üçün fərqli yaradılıblar? Nə üçün insanlara zəka və yaddaş bərabər verilməmişdir? Məgər çirkin şəxslərin nə günahı var ki, çirkin yaradılıblar? Bu kimi fərqliliklər, rəva olunmayan ayrı-seçkiliklər zülm deyilmi?

Cavabda demək olar ki, qeyd olunmuş fərqliliklər ya ata-ananın spermasında olan və nəsillikcə irsən keçən fərqliliklərdən, ya onların yaşayış mühitinin vəziyyət və şəraitindən, yaxud ata-ananın, xüsusilə, hamiləlik dövründə ananın qidalanma tərzindən irəli gəlir. İnsanların fərqlilikləri onların təbiətlərinin fərqli istedadlarının nəticəsidir. Bir cümlədə deyə bilərik ki, fərqlilikləri inkar etmək olmaz. Amma bu o demək deyil ki, bunlar rəva olmayan ayrı–seçkilik hesab olunur. Ayrı-seçkilik o yerdə olur ki, istedad cəhətindən bərabər olan iki spermaya başqa-başqa vücudi kamal verilsin. Qeyd olunan hallarda isə belə deyil.

***4) Ziyanverici heyvanlar.*** Bəzən deyirlər ki, zəhərli və yırtıcı heyvanları, eləcə də insanların və bəzi heyvanların həyatı üçün təhlükəli olan mikrobları, virusları və s. ziyanverici heyvanları yaratmaq Allahın ədaləti ilə uyğun gəlmir. Bu zərərverici heyvanların olmasının nə xeyri var? Üumiyyətlə, onlar nə üçün yaranmışdır?

Cavabda deyə bilərik: Allahın səxavəti və feyzi tələb edir ki, müəyyən bir vücudun potensialına malik olan hər bir maddəyə onun qabiliyyətinə uyğun olan vücud verilsin. Əgər hər hansı bir maddədə yırtıcı və zərərli heyvan potensialı olarsa, heyvani ruh ona verilər və əgər mikrob olmaq potensialı olarsa, mikrob varlığı ona verilər. Bu kimi ziyanverici heyvanların varlığının insanlar və başqa heyvanlar üçün zərərli olmasına baxmayaraq, onların özü üçün xeyir və kamaldır. Əqrəbin varlığının insanlar üçün zərəri olsa da, onun özü üçün xeyir və kamaldır. Bundan əlavə, bu kimi heyvanların varlığının bir sıra faydaları var, hərçənd biz insanlar hələ onların faydalarından xəbərdar deyilik. Bizim məlumatımızın olmaması, onların faydasız olması demək deyil.

Uca Allah insana əql verib ki, başqa varlıqların, o cümlədən zərər verən heyvanların faydalarından istifadə etsin və onların ehtimal olunan ziyanlarının qarşısını alsın. İnsan gigiyenaya riayət etməklə və mikrob əleyhinə olan maddələrdən istifadə etməklə, mikroblarla mübarizə apara və onların təsirlərini məhv edə bilər. Buna görə, zərər verən heyvanların varlığının yaranışda olan ədalətlə ziddiyyət təşkil etdiyini söyləmək doğru deyildir.

* * *

## Peyğəmbərlikdə ədalətin rolu

Uca Allahın feli sifətlərindən biri də ədalətdir. Yəni ki, Allahın bütün işləri adilanədir. Heç kəsə zülm etməz. Bu prinsip varlıqların yaranışına aid olmaqla yanaşı, öncə işarə etdiyimiz kimi, nübüvvət, imamət və məad kimi digər əqidə prinsiplərinin də bünövrəsi və əsası sayılır. İlahi ədalətin zəruri olmasında şəkk edən şəxs, nübüvvət, imamət və məadı da isbat edə bilməyəcək. Nübüvvət mövzusunda dörd məsələdə Allahın ədalətinə istinad olunur.

***1) Allahın insanlar üçün qanunlar təyin edib, onları peyğəmbərlər vasitəsi ilə göndərməsinin zəruriliyi.*** Bu məsələ ümumi peyğəmbərlik adlanır. Bu məsələdə deyilir:

a) Fəlsəfə və kəlam elmlərində isbat olunmuşdur ki, insan vahid bir həqiqət olsa da, onun varlığının müxtəlif cəhətləri vardır. Bir tərəfdən təbii, maddi cismə və onun xassələrinə malikdir. Digər tərəfdən bioloji varlıqdır və bu cəhətdən qidalanır, böyüyür. Başqa tərəfdən isə heyvani ruha, hiss və hərəkətə malikdir. Amma onun varlığının ən ali mərtəbəsi mücərrəd ruhudur ki, onun insanlığı ona bağlıdır.

b) Sübut olunmuşdur ki, insanın maddi bədəni parçalanıb aradan getsə də, ruhu, ölüm zamanı dünya həyatından Axirət həyatına köçür ki, əbədi Axirət aləmində öz yaxşı əməllərinin mükafatını və pis işlərinin cəzasını alsın.

c) İnsanın bu dünyada iki növ yaşayışı var. Biri onun bədəninə aid olan bioloji həyat, digəri onun insani ruhuna aid olan batini həyat.

ç) İnsanın ruhi həyatı onun əqidəsinə, əxlaqına, yaxşı və ya pis əməllərinə bağlıdır. Əgər dünyada düzgün əqidə, yaxşı əxlaq və layiqli əməllərlə insanlığın düzgün olan yolunda hərəkət edərsə, onun ruhu kamilləşmiş olar. Bu aləmdən köçdükdən sonra xoşbəxt həyatı olar. Əgər batil əqidə, pis əxlaq və nalayiq əməllərlə insanlığın doğru olan yolundan uzaqlaşsa, yırtıcı heyvan səviyyəsinə enəcək. Axirət aləmində çətin və ağrılı bir həyatı olacaq.

Qurani-kərim çoxlu ayələrdə dini düzgün yol, Allahı hidayətçi və peyğəmbərləri Cənnətlə müjdələyən, Cəhənnəmlə qorxudan olaraq tanıtdırır.

Misal üçün:

"قُلْ إِنَّنِي هَدَانِي رَبِّي إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ دِينًا قِيَمًا"

***"(Ya Rəsulum) De: Şübhəsiz, Rəbbim məni doğru yola, həqiqi (düzgün) dinə yönəltdi!"***[1]

"وَلَهَدَيْنَاهُمْ صِرَاطًا مُّسْتَقِيمًا"

***"Və onları düz yola yönəldərdik".***[2]

"وَاللَّهُ يَهْدِي مَن يَشَاءُ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ"

***"Allah dilədiyini doğru yola (islam dininə) yönəldər".***[3]

"قُل لِّلَّهِ الْمَشْرِقُ وَالْمَغْرِبُ يَهْدِي مَن يَشَاءُ إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ"

***"De: Şərq də, Qərb də Allahındır. O, istədiyi şəxsi doğru yola yönəldər".***[4]

"وَإِنَّ اللَّهَ رَبِّي وَرَبُّكُمْ فَاعْبُدُوهُ هَذَا صِرَاطٌ مُّسْتَقِيمٌ"

---

1"Ənam", 161
2"Nisa", 68
3"Nur", 46
4"Bəqərə", 142

***"Allah mənim də, sizin də Rəbbinizdir. Yalnız Ona ibadət edin. Bu, doğru yoldur!"***[1]

"وَمَا أَرْسَلْنَاكَ إِلَّا مُبَشِّرًا وَنَذِيرًا"

***"(Ya Rəsulum!) Biz səni yalnız (möminlərə Cənnətlə) müjdə verən və (kafirləri Cəhənnəm əzabı ilə) qorxudan bir peyğəmbər olaraq göndərdik!"***[2]

Göründüyü kimi, onlarla bu cür ayələr dini və şəriəti düzgün yol və uca Allahı isə hidayətçi olaraq tanıtdırır. Hidayət, yol göstərmə mənasındadır və əgər yol olmasa, yol göstərmə də mənasız olar. Din düzgün əqidə, əxlaq və şəriət qanunlarının məcmusundan ibarət olan düzgün yoldur. Namazlarda daimi olaraq, Allahdan istəyirik ki, bizi düzgün yola hidayət etsin.

"اِهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ"

***"Bizi doğru yola hidayət et".***

Bütün bu deyilənləri nəzərə almaqla nəticə alırıq ki, insanı yaradıb, onun üçün kamilliklər müəyyən edən, kamalsevərlik hissini onun vücuduna qoyan, ruhi kamallara çatmaq üçün onun üçün xüsusi yol nəzərdə tutan və bu yolu keçmək üçün insanın köməyə və hidayətə ehtiyacı olduğunu bilən Allah, onu qətiyyən cəhalət və çaşqınlıq içərisində buraxmaz. Ehtiyaclı insanı özbaşına buraxmaq, zülm və pis iş sayılır. Alim, qadir, hikmətli və zəngin Allah isə zülm və pis iş etməz. Ümumi peyğəmbərlik mövzusunu sübut etmək üçün lütf qaydasından istifadə olunsa da, gördüyünüz kimi, Allahın ədalətinə də etiqad çox mühümdür. Əgər ədalət məsələsi qəbul olunmazsa, peyğəmbərliyin zəruri olmasını sübut etmək üçün, təkcə lütf qaydasından istifadə etmək kifayət deyildir və bu qayda, olunan iradlara cavab vermir.

---

[1] "Ali-İmran", 151

[2] "Furqan", 56

***2) Peyğəmbərlərin üstün xüsusiyyətləri.*** Peyğəmbərlik mövzusunda sübut olundu ki, peyğəmbərlərin bir sıra üstün sifətləri vardır. Onlardan üçü ən mühümdür:

a) İnsanların ehtiyacı olduğu şəriət qanunlarına, doğru etiqada və yaxşı əxlaqa tam şəkildə elmi olmalıdır.

b) Məsum, yəni səhvdən, unutqanlıqdan və günahdan pak olmalıdır.

c) Özünün peyğəmbər olmasını sübut etmək üçün, lazım olan yerlərdə qeyri-adi işlər (möcüzə) etməyə qadir olmalıdır.

İlahiyyatçılar bu üç üstünlüyün peyğəmbərdə olmasını zəruri bilirlər. Onlar bunun isbatı üçün, adətən, lütf qanununa istinad ediblər. Belə ki, Allahın lütfü, peyğəmbərlərin insanları hidayət etməkdə daha artıq müvəffəq olmaları üçün onlarda bu üç məziyyətin olmasını tələb edir.

Amma fikrimcə, bu məsələdə ilahi ədalət prinsipindən istifadə etmək daha yaxşıdır. Yəni bütün və ya bəzi hökmlərdən xəbərsiz olan, dinin təbliğində səhvə yol verməsi mümkün olan, ya öz peyğəmbərliyini isbat etmək üçün möcüzəsi olmayan peyğəmbərlər göndərmək Allahın ədaləti ilə uyğun deyil. Çünki bu cür peyğəmbərlər göndərmək insanların düzgün yola hidayət olunmasında səhlənkarlıq deməkdir, bu isə alim, qadir və hikmətli Allahdan uzaqdır.

***3) Dini vəzifələrin təyin olunması insanların gücü həddindədir.*** Kəlam elmində isbat olunmuşdur ki, şərii hökmlər və vəzifələr bəndələrin qüdrəti və gücü çatacaq həddə olmalıdır. Bu məsələnin isbatı üçün həm ayə və hədislərə, həm də əqli dəlillərə istinad olunur:

"لا يُكَلِّفُ اللَّهُ نَفْسًا إِلَّا وُسْعَهَا"

***"Allah heç kəsi bacardığından artıq işə məcbur etməz".***[1]

[1] "Bəqərə", 286

"لَا يُكَلِّفُ اللَّهُ نَفْسًا إِلَّا مَا آتَاهَا"

***"Allah bir hökmü öz bəndələrinə çatdırmayınca, onlardan o hökmü yerinə yetirməyi tələb etməz".*[1]**

"وَجَاهِدُوا فِي اللَّهِ حَقَّ جِهَادِهِ هُوَ اجْتَبَاكُمْ وَمَا جَعَلَ عَلَيْكُمْ فِي الدِّينِ مِنْ حَرَجٍ "

***"Allah yolunda layiqincə cihad edin. O (Öz dini üçün) sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı".*[2]**

"مَا يُرِيدُ اللَّهُ لِيَجْعَلَ عَلَيْكُم مِّنْ حَرَجٍ وَلَكِن يُرِيدُ لِيُطَهِّرَكُمْ "

***"Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak, təmiz etmək istər".*[3]**

Hədislərdə də bu mətləbə işarə olunmuşdur. Misal üçün:

Həzrət Peyğəmbər (s) buyurub: "İslamda ziyan və ziyan yetirmək yoxdur. İslam müsəlmanların mənfəətlərini artırır və onlara pislik yetirmir".[4]

Həmçinin buyurmuşdur: "Bəndənin məcbur olduğu işi Allah halal etmişdir".[5]

Bu kimi ayələr və hədislərdən bir ümumi hökm çıxır ki, uca Allah hökmlərin və vəzifələrin qoyulmasında bəndələrin qüdrətini nəzərə almış, onlar üçün çətin, dözülməz hökm təyin etməmişdir. Bu qanuna əsaslanaraq, bəndələrin zərər, yaxud məşəqqətinə səbəb olacaq şəriət hökmləri onlara vacib edilmir. İmamlar (ə) özləri də bu cür istisnaların bəzilərinə işarə etmişlər. Bu istisnaların bir çox nümunələrinə Əhlibeytin (ə) hədislərində və fəqihlərin fətvalarında rast gəlmək olar.

---

[1]"Talaq", 7
[2]"Həcc", 78
[3]"Maidə", 6
[4]"Mizanul-hikmət", 2-ci cild, səh 180 " لا ضرر و لا ضرار السلام فالاسلام يز يد لامسلم خيرا"
[5]"Biharul-ənvar", 75-ci cild, səh. 413 "كلما اضطر اليه العبد فقد احله الله له و اباحه اياه"

Misal üçün, İslamın mühüm və zəruri hökmlərindən biri, mübarək Ramazan ayının orucudur ki, onun haqqında çoxlu təkidlər olmuşdur. Amma oruc tutmaq çox çətin olan kəslərə yeməyə icazə verilmişdir. Məsələn, oruc tutmaq zərərli olan xəstələrə, doğuma yaxın günlərdə özlərinə, yaxud bətnindəki uşağa oruc ziyan olan hamilə qadınlara, şəriət baxımından müsafir sayılan şəxslərə, oruc tutmaq çətin olan qoca kişilərə və qoca qadınlara yeməyə icazə verilmişdir. Əlbəttə, bu çətinlik Ramazan ayından sonra aradan qalxarsa, onlar oruclarının qəzasını tutmalıdırlar. (Heç bir şəkildə oruc tutmağı bacarmayan) Qoca kişi və qoca qadınlara isə qəza da vacib deyildir. Digər şəriət hökmlərində də məsələ eynilə bu cürdür. İstisna olmuş bu hökmlərin çoxu hədislərdə gəlmişdir. Xüsusi ayə və ya hədis olmayan yerlərdə isə yuxarıda qeyd olunan "dində çətin vəzifə yoxdur" qanunundan istifadə etmək olar.

Bu qanunun isbatı üçün ayələr və hədislərdən əlavə, "lütf" qaydasına da istinad edilmişdir. Bu izahla ki, Allahın öz bəndələrinə lütfü olan, onlara təyin etdiyi vəzifələrdə heç bir məşəqqət və çətinlik ola bilməz.

Bütün bunlardan əlavə, bu məsələdə "ilahi ədalət" prinsipindən də istifadə etmək olar. Bu izahla ki, insanlara onların gücü çatmayacağı çətin və məşəqqətli vəzifələr təyin etmək pis işdir. Hikmətli və elmli Allah isə heç vaxt pis iş görməz.

Qeyd etmək lazımdır ki, İslam şəriətində elə hökmlər var ki, ilk baxışda çətin və məşəqqətli nəzərə çarpır. Buna misal olaraq, çətinlikdən əlavə, bəzi döyüşçülərin yaralanması, hətta şəhid olması ilə nəticələnən cihadı göstərmək olar. Amma bu mühüm məsələyə diqqət etməliyik ki, cihad və Vətənin müdafiəsi hamı tərəfindən qəbul olunan məntiqi bir işdir və bəşərin ictimai yaşayışının zəruri məsələlərindən hesab olunur. Bu hökm təkcə İslamda yox, bütün səmavi dinlərdə və bütün xalqlarda vardır. Hər bir kəs öz əqidəsinin, ideallarının,

ölkəsinin və xalqının düşmən hücumuna məruz qaldığını gördükdə, vətənin müdafiəsinə qalxıb, müdafiə etməyi özünə vəzifə bilir. Belə bir işi nəinki məşəqqətli və insan qüdrətindən kənar hesab etmirlər, hətta iftixar və başucalığıyla fədakarlıq göstərir, öz öldürülən adamlarını şəhid bilir və onları əzizliklə yad edirlər. İslamda da belədir. Ayə və hədislərdə Allah yolunda cihad edib fədakarlıq göstərmə, yaxşı bir iş kimi bəyənilib və şəhidlərin yüksək məqam sahibi olduqları göstərilib.

***4) Ölümdən sonrakı aləmdə Allahın ədaləti.*** Peyğəmbərlər tarix boyu həmişə məad və Qiyamət günündən xəbər vermişlər. Uca Allah tərəfindən möminlərə və xeyirxah insanlara Behişt nemətləri vədəsi vermiş, bu vasitə ilə imana və yaxşı işlərə həvəsləndirmiş, kafirlərə və pis iş görənlərə Cəhənnəm və Axirət əzabları vədə vermişlər. Peyğəmbərlərin çağırışının əsası bu şəkildə idi və elə bu vasitə ilə möminlərə, xeyirxah insanlara ümid verir, kafirləri və zülmkarları isə qorxudurdular. Burada belə bir məsələ ortaya çıxır ki, Allah Axirət aləmində öz vədələrinə mütləq əməl edəcəkmi? Yoxsa vədəsinə əməl etməyəcək, əksinə möminləri və yaxşı insanları Cəhənnəmə, kafirləri, zalımları isə Cənnətə aparacaq. İlahi ədalət nəzəriyyəsinin tərəfdarları deyirlər: "Ədalətli və hikmətli Allah öz vədələrinə mütləq əməl edəcəkdir. Çünki vədəyə əməl etməmək pis işdir, pis iş isə Allahdan uzaqdır".

Quranın bir çox ayələrində də bu mətləb aşkar şəkildə göstərilmişdir.

"وَنَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ فَلَا تُظْلَمُ نَفْسٌ شَيْئًا"

*"Biz Qiyamət günü üçün ədalət tərəzisi quraraq. Heç kəsə əsla haqsızlıq edilməz".*[1]

"فَالْيَوْمَ لَا تُظْلَمُ نَفْسٌ شَيْئًا وَلَا تُجْزَوْنَ إِلَّا مَا كُنْتُمْ تَعْمَلُونَ"

[1]"Ənbiya", 47

***"Bu gün heç kəsə heç bir haqsızlıq edilməyəcəkdir. Siz ancaq etdiyiniz əməllərin cəzasını çəkəcəksiniz!"*[1]**

" لاَ يُكَلِّفُ اللّهُ نَفْسًا إِلاَّ وُسْعَهَا لَهَا مَا كَسَبَتْ وَعَلَيْهَا مَا اكْتَسَبَتْ "

***"Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər (bir işə mükəlləf edər). Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir."*[2]**

"وَاتَّقُواْ يَوْمًا تُرْجَعُونَ فِيهِ إِلَى اللّهِ ثُمَّ تُوَفَّى كُلُّ نَفْسٍ مَّا كَسَبَتْ وَهُمْ لاَ يُظْلَمُونَ"

***"Allaha tərəf qaytarılacağınız gündən qorxun! (O gün) hər kəsə gördüyü əməlin əvəzi veriləcək və (haqsız yerə) zülm olunmayacaqdır!"*[3]**

Burada mühüm və dəqiq bir məqama işarə etməyi lazım bilirəm. Ayələrdən və hədislərdən aydın olur ki, Axirətdəki mükafat və cəzalar şərti xarakter daşımır. Əksinə, insanın dünyadakı pis və ya yaxşı əxlaqının və əməllərinin batini surətidir. Cənnət nemətləri insanın dünyada olan yaxşı əxlaqının və layiqli rəftarının batinidir ki, bu aləmdə əsası qoyulub, Axirət aləmində isə aşkar olur. Cəhənnəm və Axirət əzabları da bu cürdür.

Quranda buyurulur:

يَوْمَ تَجِدُ كُلُّ نَفْسٍ مَّا عَمِلَتْ مِنْ خَيْرٍ مُّحْضَرًا وَمَا عَمِلَتْ مِن سُوَءٍ تَوَدُّ لَوْ أَنَّ بَيْنَهَا وَبَيْنَهُ أَمَدًا بَعِيدًا وَيُحَذِّرُكُمُ اللّهُ نَفْسَهُ وَاللّهُ رَؤُوفٌ بِالْعِبَادِ

***"O gün (Qiyamət günü) hər kəs etdiyi yaxşı və pis əməlləri qarşısında hazır görəcək və günahları ilə özü arasında çox uzaq məsafə olmasını arzulayacaqdır. Allah sizi Öz əzabından çəkindirir, çünki Allah bəndələrə (Öz bəndələrinə) mərhəmətlidir!"*[4]**

---

[1] "Yasin", 54
[2] "Bəqərə", 286
[3] "Bəqərə", 281
[4] "Ali-İmran", 30

Buna görə, insanın bu aləmdəki layiqli və nalayiq rəftarı, yaxşı və pis əxlaqı onun vücudunun ayrılmaz bir hissəsinə çevrilir. Həmişə Qiyamətə qədər onunla olur və onlarla da Allahın hüzuruna gələcək. Cənnət nemətləri yaxşı əxlaqdan və saleh əməldən yaranır. Cəhənnəm və Axirət əzabları isə pis əxlaqdan və nalayiq rəftarlardan yaranır.

* * *

## İmanın əxlaq və rəftarda təsiri

Tövhid, nübüvvət və məad məsələsi praktiki həyatdan uzaq və təsirsiz bir şey deyildir. Əksinə, imanla əməl bir-birindən ayrılmazdır. İman ağacının kökü və əməl isə onun budağı, yarpağı və meyvəsi kimidir. Qəlbi etiqad və iman əməlsiz ola bilməz və şübhəsiz ki, öz təsirini göstərməlidir. Şəxslərin əməlləri vasitəsi ilə onların imanının dərəcəsini dərk etmək olar. İman nə qədər güclü olarsa, təsiri də bir o qədər çox olar. Əməl az olduqca, iman da zəifləyər. İmanlı və dindar olduğunu göstərən, amma əməllərində imanın təsirləri görünməyən şəxslərin ya qəlblərində iman yoxdur və camaatı aldatmaq üçün özlərini imanlı şəxs kimi göstərirlər, ya da imanları çox zəif olduğu üçün, onları əmələ sövq edə bilmir.

İman əməlin mənbəyidir. İman insanı Allahın göstərişləri qarşısında təslim olmağa və yaşayışın bütün mərhələlərində peyğəmbərlərin proqramlarına itaət etməyə sövq edir. Çoxlu hədislər imanı bu mənaya təfsir etmişdir. Misal olaraq, Həzrət Əli (ə) buyurub: İslam Peyğəmbərindən (s) soruşdum:

İman nədir? Buyurdu: "Qəlblə təsdiq, dillə iqrar və bədən üzvləri ilə əməl etməkdir".[1]

---

[1]"Biharul-ənvar", 69-ci cild, səh. 68 " سالت النبى صلى الله عليه و آله عن الايمان فقال : تصديق بالقلب و اقرار با للسان و عمل بالار كان"

Əgər iman, həqiqətən, insanın qəlbinə nüfuz etmiş olarsa, onun təsirləri qəti olaraq danışığında və rəftarında görünəcək.

Mömin insan bütün varlığı ilə Allahı qəbul edib, Onun varlığına inanır və Onun qarşısında məsuliyyət daşıdığını bilir. Onun və peyğəmbərlərin göstərişləri qarşısında təslim olur. O, bu həqiqəti qəbul edib ki, insan və aləm puç və hədəfsiz deyil. İnsan məhv olmaq üçün yaranmamışdır, əksinə, ruhunun təkamül etməsi, Axirət aləminə köçüb, orada yaşamaq üçün yaranmışdır. O bilir ki, hər bir insan öz əməllərinə görə məsuliyyət daşıyır, Qiyamət günü hesabat verib, öz əməllərinin nəticəsini görəcək. Mömin bu həqiqətə inanır ki, ölüm yaşayışın sonu deyil, əksinə, bu fani və kiçik aləmdən, nur, şadlıq aləminə və əbədi Axirətə köçmək üçün bir vasitədir.

Mömin insan bu inamla və aləm haqqında olan bu baxışla, necə öz əxlaqına, danışığına və rəftarına laqeyd ola bilər? Belə bir baxışla insanın yaşayışı dəyişir və bütün sahələrdə vahid bir hədəfə doğru, yəni Allahın razılığını cəlb etmək və peyğəmbərlərin göstərişlərinə itaət etməyə yönəlir. İman əməlin bünövrəsidir və üç sahədə insanda təsir qoyur.

1. Əxlaq. Mömin insan ruhi yaşayışa və mənəvi həyata inanır və bilir ki, bu aləmdə əxlaq vasitəsi ilə və qazandığı xarakterlə öz gələcək şəxsiyyətini yaradır, tərbiyə edir və onlarla Qiyamətdə Allahın hüzuruna gələcək.

Əgər əxlaqı yaxşı olsa, yaxşı, xoş və səadət dolu bir gələcəyi olacaqdır. Əgər pis olsa, qaranlıq və dəhşətli, qorxulu bir gələcək ona qismət olacaq. Buna görə də, həmişə qəlbini pisliklərdən paklamağa, əxlaqi fəzilətlərlə zinətləndirməyə, başqa sözlə desək, öz insani şəxsiyyətlərini gücləndirməyə və heyvani meyllərini cilovlamağa çalışır.

2. İbadət. Mömin insan Allaha inandığı, Onu aləmin tək yaradanı və idarə edəni bildiyi üçün, Onun sonsuz, əzəmətli

qüdrəti qarşısında bəndəliyini göstərib baş əyir və yalnız Ona ibadət edir. Allaha ürək bağlılığı və Ona qarşı doğmalıq hiss edir. Həmişə Ona pənah aparır və Onun əbədi qüvvəsindən kömək diləyir. İbadət, zikr və Allahla olan ünsiyyət vasitəsi ilə ruhunu tərbiyə edib kamilləşdirir və ona yaxınlaşmağa çalışır.

3. İctimai məsuliyyətlər. Mömin insan İslamın siyasi və ictimai proqramını dünya və Axirət səadəti üçün ən yaxşı vasitə bilir. Özünü onları tam şəkildə yerinə yetirməkdə məsul bilir. Zülmə qarşı mübarizə aparmağa və cəmiyyətdə ədalətin bərpa olunmasına çalışır. Mömin insan özünü İslamın vahid və böyük ümmətinə bağlı bilir. İslam ümmətinin əzəmət və xoşbəxtliyini öz səadəti hesab edir, onun zəifliyini, zillətini öz zəifliyi, zilləti bilir. Müsəlmanları öz canının bir parçası bilir. Onların rahatlığına və xoşbəxtliyinə sevinir, narahat və əziyyətdə olmalarından narahat olur. Özü üçün istədiyi hər bir şeyi başqa müsəlmanlar üçün də istəyir. Özü üçün bəyəndiyini başqaları üçün də bəyənir. Öz rifahı və rahatlığı üçün çalışdığı qədər başqalarının rahatlığı və rifahı üçün də çalışır. Özü və ailəsinin səadəti üçün nə qədər məsuliyyət hiss edirsə, vahid İslam ümmətinin və başqa müsəlmanların səadəti üçün də bir o qədər məsuliyyət hiss edir. İctimai məsuliyyətlər də imandan qaynaqlanır və İslamın mühüm bir hissəsini təşkil edir. İnsanı cəmiyyətdən təcrid edən və cəmiyyətin müqəddəratına qarşı onu laqeyd edən iman həqiqi iman deyildir.

Peyğəmbər (s) buyurub:

"Müsəlmanların işlərinə çalışmayan müsəlman deyil və bir müsəlmanın fəryadını eşidib, kömək etməyən müsəlman deyil".[1]

---

[1]"Üsuli-kafi", 2-ci cild, səh. 164 من اصبح لا يهتم بامور المسلمين فليس منهم و من يسمع رجلا ينادى يا للمسلمين فلم يجبه فليس بمسلم

Peyğəmbərlərin yaşayışı və böyük dini şəxsiyyətlərin həyatı da buna ən yaxşı şahiddir. Onlar gecəni səhərədək ibadətlə keçirən zahid olduqları halda, döyüş səhnəsində şücaətli aslan kimi döyüşürdülər. Yalnız xəlvət guşəyə çəkilib ibadət və dua ilə məşğul olmamış, bundan əlavə, ictimai səhnədə və iş meydanında da iştirak etmişlər. Onlar zülm, hegemonluq və diktatorluqla mabarizə uğrunda və ictimai ədalətin bərpa olunması üçün də çalışmış və bu böyük məsuliyyətin yerinə yetirilməsində heç bir fədakarlıqdan çəkinməmişlər. Zülmkarlar və tağutlarla döyüşmüş və heç bir çətinlikdən qorxmamışlar.

Bəli, tövhid məktəbi zülmə qarşı mübarizə, müqavimət, fədakarlıq, əxlaq, təqva, xeyrə dəvət, yaxşılıqlara əmr etmək və pisliklərdən çəkindirmə məktəbidir. Bütün bunlar həqiqi imandan qaynaqlanır.

İman saleh əməlin mənbəyi olduğu kimi, saleh əməl də imanın güclənməsində və möhkəmlənməsində böyük bir təsirə malikdir. Günahlardan çəkinməkdə və saleh əməllərin yerinə yetirilməsində nə qədər çalışsaq, iman nuru qəlbimizdə bir o qədər çox güclənər. Buna görə, Allaha, məada və nübüvvətə olan etiqaddan sonra imanın ən ali mərtəbəsinə nail olmaq üçün, Allahın göstərişlərinə əməl etməkdə səy göstərməliyik. İmanı yalnız zehni bir bilik səviyyəsində qəbul edib, əməldə ona riayət etməyən və öz nəfsani istəklərinə itaət edənlər həyatın son hədəfinə çatmaqdan məhrum olmaqla yanaşı, imanlarını da tədricən itirirlər. Elm və əməl insan ruhu üçün iki qanad kimidir ki, onlardan biri olmasa, insan ali məqamlara və tövhidə yetişə bilməz.

**son**

# ƏRƏFƏ DUASI

Həmd aləmlərin rəbbi olan Allaha məxsusdur. Ey mənim Rəbbim, ey göyləri və yeri yaradan, Sənə həmd olsun! Ey cəlal və kəramət sahibi, ey ululardan ulu, hər bir məbudun məbudu, hər bir məxluqun xaliqi, hər şeyin varisi, heç bir şey Sənin kimi deyil, heç bir şeyin elmi Sənə gizli qalmaz, hər şeyi ehtiva etmisən, hər şeyi qoruyursan.

***Allah Sənsən,*** Səndən savayı heç bir Allah yox. Yeganəsən (vahidsən), misilsizsən, təksən, oxşarsızsan.

***Allah Sənsən,*** Səndən savayı bir Allah yox. Kərimsən, kəramətlisən, böyüksən, son həddə əzəmətlisən.

***Allah Sənsən,*** Səndən savayı bir Allah yox. Ulu və hər eybdən uzaqsan, intiqamın şiddətlidir.

***Allah Sənsən,*** Səndən savayı bir Allah yox. Bağışlayan və mehribansan, hər şeyi bilənsən, hikmət sahibisən.

***Allah Sənsən,*** Səndən başqa bir Allah yox. Kərimsən, eşidən və bilənsən, qədimsən və hər şeydən xəbərdarsan.

***Allah Sənsən,*** Səndən başqa bir Allah yox. Hamıdan kəramətlisən, əbədi və həmişəliksən.

***Allah Sənsən,*** Səndən başqa bir Allah yox. Hər kəsdən əvvəlsən, hər bir şeydən sonrasan (əbədisən).

***Allah Sənsən,*** Səndən başqa bir Allah yox. Ən uca məqamınla belə yaxın, yaxınlığınla yanaşı uca məqamlısan.

***Allah Sənsən,*** Səndən başqa bir Allah yox. Həmd-səna, kibriya və sitayiş sahibisən.

***Allah Sənsən,*** Səndən başqa bir Allah yox. Hər şeyi əsilsiz yaradan, hər bir şeyə nümunəsiz surət verənsən, məxluqunu təcrübə və nümunə almadan xəlq etdin, hər bir şeyə dəqiq ölçü verən Sənsən. Hər bir şeyi vəzifəsini yerinə yetirməsi üçün yoluna qoydun, özündən aşağıdakıları sahmana saldın, yaradılmışları yaratmaqda heç bir şərikin köməyinə ehtiyacın olmadı, hökmdarlığında heç bir vəzir Sənə yardım etmədi. Sənin üçün (aləmi yaradarkən) şahidin və oxşarın olmadı. İradə edən Sənsən və iradən qəti oldu, qəzavət etdin və qəzavətin ədalət üzrə idi, hökm etdin və hökmün insaf əsasında oldu.

Heç bir məkan Səni əhatə etməz, qüdrətin önündə bir qüdrət qalxmamışdır, heç bir dəlil Səni aciz etməmişdir.

Sən hər şeyi ölçüyə aldın, hər şey üçün müddət təyin etdin. Xəyalların gərdişi zatının dərinliyinə yetmədi, anlayışlar necəliyini dərk etməyə aciz oldu, gözlər məkanını tapmadı.

Səni məhdud edəcək bir hədd yoxdur, oxşarın və bərabərin yoxdur ki, onunla tanınasan, övladın olmamışdır ki, Özün də doğulmuş olasan.

Sənin tayın-bərabərin yoxdur ki, Səninlə müxalifətçilik etsin, oxşarın yoxdur ki, Səninlə bərabər olsun, mislin yoxdur ki, Səninlə tanınsın.

Başlayıb ixtira edən Sənsən, yaratdıqlarını gözəl yaradan da Sənsən. Subhanəkə-(bütün nöqsanlardan, eyblərdən) paksan, məqamın, işlərin nə qədər böyükdür! Məkanlar içrə məqamın necə də ucadır! Furqanın haqqı necə də aşkar edəndir! Paksan! Mərhəmətin nə qədər də çoxdur, ey mərhəmətli! Sənsən mehriban, sevgin nə qədər çoxdur! Sənsən hikmətli, Sənin nişanələrin nə qədər çoxdur! Sən hər bir eybdən paksan! Ey Sultan, səltənətin nə qədər şövkətlidir! Səxavətlisən, kərəm süfrən necə də genişdir! Ucasan, məqamın necə də ucadır! Həmd-səna, hər cür tərif, kibriya və həmd sahibi Sənsən!

***Paksan Sən,*** qüdrət əlini yaxşılıqlara açmısan, hidayət Sənin tərəfindən tanınmışdır. Belə olduqda hər kəs Səni dini, yaxud dünyası üçün çağırarsa, Səni tapar. Paksan! Sənə elmi olan qarşında zəlildir, ərşin altında olanlar önündə təslimdirlər, bütün məxluqlar Sənin qarşında boyunlarına təslim kəndirin atmışlar.

***Paksan Sən!*** Daxili və xarici hisslərlə duyulmursan, toxunulmazsan, heç kəs Səninlə mübarizə edib Sənə qarşı hiylə qura bilməz, Səninlə vuruşa bilməz, kimsə Sənə qalib gələ bilməz.

***Paksan Sən!*** Yolun hamar, işin doğruluqdur. Sən dirisən və ehtiyaclar mənbəyisən.

***Paksan Sən!*** Sözün hikmət, əmrin qəti, iradən qaçılmazdır.

***Paksan Sən!*** İstədiyini kimsə rədd edə bilməz, sözünü kimsə dəyişdirə bilməz.

***Paksan Sən!*** Ey nişanələr sahibi, ey göyləri yaradan, ey canların xaliqi. Həmd olsun Sənə, əbədiliyinlə daimi olan bir həmd.

***Həmd olsun Sənə***–nemətini həmişə artıran bir həmd.

***Həmd olsun Sənə***–ehsanınla bərabərlik edə bilən bir həmd.

***Həmd olsun Sənə***–razılığını artıran bir həmd.

***Həmd olsun Sənə***–bütün həmd edənlərin həmdi ilə birgə olan həmd.

Sənə elə bir şükür ki, hər bir şükür edənin şükrü ondan az olsun....

*"Səhifeyi Səccadiyyə", 47-ci duadan parçalar*

## Mündəricat

Ön söz....................................................................................4
**Dini və materialist dünyagörüşləri və hər birinin doğurduğu nəticələr**....................................................10
Aləm möminlərin baxışında........................................10
Yaşayışın sonu..............................................................11
Aləmin yaradıcısı.........................................................12
Peyğəmbərlər................................................................12
Həyatın əvvəli və sonu...............................................12
Aləm kafirlərin baxışında...........................................13
Yaşayışda imanın faydaları........................................16
**Düzgün bir dünyagörüşü seçilməsinin zəruriliyi**..............26
Dünyagörüşü nə deməkdir?......................................27
İdeologiya nə deməkdir?............................................28
Araşdırma aparıb cavab tapmağın zəruriliyi..........29
Dünyagörüşünün prinsipləri.....................................30
**Allahaxtarma hissi**.....................................................31
Allahın varlığının dəlilləri Qurani-kərimdə Allahı tanımağın yolları..............................................................35
a) İnsanın yaradılışı barəsində diqqət və təfəkkür etməyə çağıran ayələr...................................................36
Ayələrdə incə məqamlar.............................................38
b) Bitkilər, meyvələr və insanların azuqəsi barəsində diqqət etməyə çağıran ayələr.............................39
Ayələrdəki incə məqamlar..........................................41
c) Yağışın və suyun əhəmiyyətinə diqqət etməyə çağıran ayələr.......................................................................41
**Aləmdə olan nizam-intizam və harmoniya**...............43
**Təbiətdə su dövranı**.....................................................46
**Bitkilərin yaşıl yarpağı**................................................50

**Həzm sistemi** ..................... 52
**Görmə orqanı** ..................... 55
Göz almasının quruluşu ..................... 55
Göz almasının işıqsındırıcı mühiti ..................... 57
Əşyaları necə görürük? ..................... 57
Göz uyğunlaşması nə deməkdir? ..................... 58
Allahı tanıma dərsi ..................... 59
Görmə orqanının köməkçi üzvləri ..................... 60
Allahı tanıma dərsi ..................... 63
**Qan dövranı** ..................... 66
1. Hərəkətin birinci dayanacağı ..................... 67
2. Hərəkətin marşurutu ..................... 67
3.Yol arasında olan qısa dayanacaq ..................... 67
4. Qayıdan zaman ..................... 68
5. Sağ qulaqcığa giriş ..................... 68
6. Şiddətli zərbə ..................... 69
7. Sol qulaqcığa giriş ..................... 69
Tam bir ürək döyüntüsünün mərhələləri ..................... 70
Allahı tanıma dərsi ..................... 70
**Yaranış aləminə bir baxış** ..................... 72
Üç mühüm məsələ ..................... 75
**Hər fenomenin səbəbi var.** ..................... 76
Başqa bir misal ..................... 76
Səbəbiyyət qanunu prinsipial, qəti və istisnasız bir qanundur ..................... 77
Heç bir fenomen səbəbsiz deyil. ..................... 78
Aləmin də səbəbi var. ..................... 79
Allahı sübut edən dəlillərin izahı ..................... 81
**Allahın sifətləri** ..................... 83
**Allahın kamal sifətləri** ..................... 86
Allahı və Onun sifətlərini təsəvvür etmək olarmı? ..................... 87
Allahı görmək olarmı? ..................... 89

Bəzi kamal sifətləri .................................................................. 90
Lazım olan bir xatırlama ........................................................ 92
**Cəlal sifətləri** ........................................................................ 94
**Tövhid (təkallahlılıq)** ........................................................ 100
Zatda tövhid ........................................................................... 101
Sifətlərdə tövhid .................................................................... 102
Yaranışda tövhid .................................................................... 104
Rübubiyyətdə (idarəetmədə) tövhid ........................................ 107
İbadətdə tövhid ....................................................................... 110
**Ədalət** ..................................................................................... 116
1. Quran ayələri ....................................................................... 117
2. Əqli dəlil ............................................................................... 118
Yaranışda ədalət ..................................................................... 119
Allahın ədaləti və ona olunan iradlar ...................................... 124
**Peyğəmbərlikdə ədalətin rolu** .............................................. 131
**İmanın əxlaq və rəftarda təsiri** ........................................... 140

Ərəfə duası .............................................................................. 144
Mündəricat .............................................................................. 148
"Parlayan Günəş"in məhsullarından ....................................... 152

# “Parlayan Günəş”

## "Parlayan Günəş"in məhsullarından:

### 1. Son Xilaskar:




*Müəllif:*
Məhəmmədi İştihardi

*Haqqında:*
Kitabda həzrət Mehdi, həyatı, qeybə çəkilməsi, intizarı, zühuru, hökuməti və s. barədə dəyərli məlumatlar verilmişdir.

### 2. Sağlam və Saleh övlad:




*Müəllif:* Məsumə Şahmərdanlı.
*Haqqında:* Kitabda: 1. Evlənmək, onun vaxtı və münasib həyat yoldaşı seçmək yolları; 2. Toy gecəsi, övlad istəmək və övladın kimliyinin təyini yolları; 3. Hamiləlik dövrü və bu dövrdə xanımlarda yaranan dəyişikliklər; 4. Hamiləlik dövrü və bu haqda olan faydalı məsləhətlər; 5. Hamiləlik dövrü, ibadət və münasib idman proqramları; 6. Doğumdan öncə və ondan sonrakı çətinliklər və onlara uyğun tövsiyələr; 7. Yeni doğulmuş körpəyə qulluq və uşaq psixologiyası; 8. Təzə doğulmuş övladla bağlı müqəddəs dinimizin dəyərli tövsiyələri; 9. Hər gün yavaş-yavaş boy atan övladın qidalanması və inkişafı ilə bağlı yeni-yeni tibbi və dini tövsiyələr; 10. Südvermə dövrü və onu necə başa vurmaq yolları; 11. Uşaqlarda baş verən dəyişikliklər, onları düzgün istiqamətləndirmək yolları və sizi maraqlandıran bir çox sualların və problemlərin həlli yolları araşdırılmışdır.

### 3. Son İmam Sahibəzzaman:




*Müəllif:*
Seyid Məhəmməd Nəcəfi
*Haqqında:*
Kitabda həzrət Mehdinin şəxsiyyətnaməsi, Əhli-beytin (ə) dili ilə o cənabın tanıtdırılması, qeybə çəkilməsi, həmin dövrün xüsusiyyətləri, həqiqi intizar, imanı qorumaq yolları haqda qiymətli məlumat verilmiş və sonda ikinci bölüm ünvanında mövzularla qırx hədis yerləşdirilmişdir.

## 4. Parlayan Günəş:




*Müəllif:* Böyük ustad Əllamə Hüseyn Təbatəbainin on illərlə xüsusi şagirdi olmuş, mərhum, tanınmış arif, Ayətullah Şeyx Əli Səadətpərvər (Pəhləvani).

*Haqqında:* İmam-Zaman (ə. f.) haqqında dilimizdə əvəzsiz bir kitab... Kitabda indiyə qədər eşitmədiyiniz mövzularla tanış olacaqsınız.

Kitabda 12-ci imam həzrət Məhəmməd Sahibəzzamanın (ə. f.) həyatı, qeybə çəkilməsi, zühuru və ***rəcət*** dövrü, iman əhlinin həmin dövrlərdəki əməli vəzifələri, həmçinin o həzrətlə əlaqəli bir çox diqqəti çəkən, ehtiyac duyulan məsələlərə yeni üslubda, ayə və hədislər işığında aydınlıq gətirilmişdir. Xüsusən, rəcət (məsumların və onların bəzi ardıcıllarının yenidən dünyaya qayıtması) mövzusunda yeni mətləblərə toxunulmuşdur. Həzrət Mehdi (ə) və o cənabla əlaqəli bəhslərlə bağlı həqiqətə yetişmək istəyənlər bu kitaba ehtiyaclıdırlar.

**Günəş kimi parlayacaq...**

## 5. Tövhid:




*Müəllif:*
Mürtəza Bəzrəfşan
*Haqqında:*
Kitabda islami əhvalatların dililə Allahşünaslıq, tövhid, şirk və onlarla bağlı məsələlərə açıqlama gətirilmişdir. Əsasən yeniyetmələr və gənclər üçün nəzərdə tutulmasına baxmayaraq, kitab ümum oxucu kütləsi üçün də faydalıdır.

## 6. Loğmanın hikmətnaməsi:




*Müəllif:*
Məhəmmədi Reyşəhri
*Haqqında:*
Kitabda tarixdə hikmətləri ilə məşhur olan Həkim Loğmanın hikmətli kəlamları toplanmışdır. Bir-birindən maraqlı olan hikmətli kəlamlar sistemli şəkildə, mövzular üzrə sıralanmışdır.
Kitab ümum oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

## 7. Gənc ailələr üçün:




*Müəllif:*
Məhəmmədəli Sadat
*Haqqında:* Bu kitab əvvəllər "Gənc ailələr üçün göstərişlər" adı ilə nəşr olunmuş kitabın yenidən işlənilmiş variantıdır. Kitabda ailə təşkili ərəfəsində olan gənclərə lazımi tövsiyələr, qadın və kişinin ayrı-ayrı xarakterik xüsusiyyətləri, onların bir-birinə tanıtdırılması, evlilikdə olan aktual problemlərin həll yolları, xoşbəxt ailəyə sahib olmaq üçün psixoloji və dini tövsiyələr və s. yer almışdır.

## 8. İlahi nəsihətlər:




*Müəllif:*
Ayətullah Misbah Yəzdi
*Haqqında:* Bu kitab məşhur İslam alimi Ayətullah Misbah Yəzdinin əxlaq sahəsində çıxışlarının-moizələrinin məhsuludur. Kitab Allah-taalanın (c. c.) Musa peyğəmbərə (ə) nəsihətləri olan qüdsi hədislərin hörmətli müəllif tərəfindən şərhindən ibarətdir.

## 9. İslamda davranış qaydaları:



*Müəllif:* Şeyx Yəqub Küleyni
*Haqqında:* Kitabda hədislər işığında müsəlman bir şəxsin fərdi və ictimai rəftarlarını necə tənzimləməsi məsələsi açıqlanır. Hədislər sevimli Peyğəmbərimiz (s) və onun pak Əhli-beytindən (ə) nəql edildiyinə görə xüsusi əhəmiyyətə malikdir. Ehtiyac duyulan yerlərdə oxucuya kömək üçün bəzi izahlar verilmişdir. Xatırladaq ki, kitabda gətirilmiş bütün məsələlər günümüz üçün əhəmiyyət daşıyır.

## 10. Sevimli Peyğəmbərimiz nigarandır!:



*Müəllif: Rza Mühəqqiqi*
*Haqqında:* Kitabda ayə və hədislər işığında aləmlərə rəhmət olaraq göndərilmiş, daim insanların xoşbəxtliyi fikrində olmuş, şərəfli ömrünü büsbütün buna həsr etmiş həzrət Məhəmməd peyğəmbərin (s) öz dövründə yaşayan və sonrakı əsrlərin, o cümlədən əsrimizin müsəlmanları haqda nigarançılıqları bildirilmişdir. Kitabda bütün mövzular aktualdır. Burada araşdırılan mövzular bugünkü müsəlmanların əsas dərdlərindəndir.

## 11. Qadın-kişi münasibətlərində əxlaq:




*Müəllif:* Ayətullah şəhid Mürtəza Mütəhhəri

*Haqqında:*Kitabda İslamın və qərb dünyasının cinsi əxlaq, qadın, eşq və bu kimi mövzulara baxışları açıqlanır, dinimizin sözügedən sahədə ən gözəl və ən mükəmməl baxışa sahib olduğu sübut edilir.

Bu kitab müxtəlif fikir cərəyanlarının cövlan etdiyi hazırkı əsrimizidə yeniyetmələr, gənclər və belə mövzularla bağlı düzgün baxışa sahib olmaq istəyənlər üçün əvəzsizdir.

## 12. Minacatın əzəməti:




*Müəllif:* Ayətullah Misbah Yəzdi

*Haqqında:*Kitabın əsas hissəsində məşhur "Şəbaniyyə" minacatı və sonda isə "Muridin" minacatı şərh olunmuşdur. Böyük İslam alimi olan hörmətli müəllif öz bənzərsiz şərhləri ilə bu duaların əsl mahiyyətini açıqlayaraq, bir çox maraqlı məqamlara toxunur. Beləki, kitabın bir çox yerində irfani məsələlərə işarə olunur, tövhiddən və ilahi eşqdən söz açılır. Buna görə də, hörmətli oxucular kitabın müsbət təsirini özlərində hiss edəcəklər.

## 13. Şəhidlik Günəşi:



*Müəllif:* Ayətullah Şeyx Əli Səadətpərvər (Pəhləvani)

*Haqqında:* Öz bənzərsiz hadisəsi ilə tarixə dərin və unudulmaz bir iz salmış həzrət Hüseyn ibn Əlinin (ə) bəşər tarixində misli görünməyən hərəkatı, missiyası ilə bağlı əsrlər boyu İslam alimləri və digər mütəfəkkirlər tərəfindən saysız-hesabsız kitablar yazılmış, geniş araşdırmalar aparılmışdır.

Əlinizdə tutduğunuz kitab da onlardan biridir. Amma bu kitabın malik olduğu özəlliklər onu bu zəmində yazılan digər kitablardan çox fərqləndirir. Bu kitabın əsas özəlliyi ondan ibarətdir ki, müəllif Quran, hədislər, sünnə, dualar və ziyarətnamələrə olan əhatəli elmi, onların araşdırılmasında olan güclü təfəkkürü ilə bu hərəkatı təhlil etmiş, məharətlə onun əsas səbəbləri üzərindən pərdəni kənara çəkmiş, Aşura hərəkatının mahiyyətini oxuculara göstərmişdir. Kitabı oxuyarkən, Kərbəlada baş verənlərin əslində t ö v h i d dən başqa bir şey olmadığı aydınlaşır. Bunu siz əziz oxucular bu kitabı diqqətlə oxuduğunuz zaman, özünüz görəcəksiniz.

Kitab ziyalılar, mütəfəkkirlər, ilahiyyatçılar, universitet tələbələri, həmçinin İslamın həqiqətini anlamaq istəyənlər üçün nəzərdə tutulur.

## ◆ Mp3 ◆




**1. "Göz yaşının ardınca":**

▷ *Haqqında:*

İmam Mehdi (ə) ilə bağlı ayə-hədislər, qısa söhbətlər, şeirlər, bəhri-təvillər və nəğmələr.




**2. "Kövsər hovuzundan incilər":**

▷ *Haqqında:*

Gənc şair Fənainin irfani şeir-qəzəlləri.




**3. "Kərbəla eşqi":**

▷ *Haqqında:*

Həzrət Hüseyn (ə) və o cənabın Aşurası ilə bağlı yeni üslubda mərsiyələr.

## "PARLAYAN GÜNƏŞ"İN NƏŞRİNİ NƏZƏRDƏ TUTDUĞU KİTABLAR:

- "Əməli Tövhid", Ayətullah Cəfər Sübhani;
- "İslam və zamanın ehtiyacları" (I cild), M. Mütəhhəri;
- "Peyğəmbərin (s) siması", Əbdüssəməd Purnəzmi;
- "Müvəffəqiyyətin Sirri", Ayətullah Cəfər Sübhani;
- "Axirət azuqəsi" (bütöv), Ayətullah Misbah Yəzdi;
- "Gənclərin hikmətnaməsi", Məhəmmədi Reyşəhri;
- "Məhəbbət bələdcisi", Məhəmmədi Reyşəhri;
- "Hikmətlər və nəsihətlər" *(I cild),* M. Mütəhhəri;
- "Əbədi öyüd" (bütöv), Ayətullah Misbah Yəzdi;
- "Oğlan və qızlar bilməlidir", Rza Fərhadi;
- "Nur Təfsiri" (bütöv-12 cild), Möhsün Qəraəti...

**Ayətullah Mürtəza Mütəhhərinin aşağıdakı kitablarının tərcüməsi və nəşri planlaşdırılır:**

1. *İslam və zamanın ehtiyacları ( II cild); (Tərcümə olunub)*
2. İslam dili və ideal əsrin siması;
3. Tövhid;
4. İnsan və alın yazısı;
5. Mənəvi azadlıq;
6. İslamda təlim və tərbiyə;
7. Gənc nəslin rəhbərliyi;
8. Bəşər həyatında qeybi köməklər;
9. İslami təfəkkürün dirçəldilməsi
10. Haqq və batil döyüşü
11. Fitrət...

**Müvəffəqiyyət yalnız Allahdandır!**

**Sonluq:**

***Xalqa ehsan paylayan, onlara səxavətiylə lütf əlini uzadan, kərəm, ehsan edən Allaha həmd olsun. Ona aid olan bütün işlərdə Ona həmd edirik. Ona aid haqlara riayət edə bilmək üçün Ondan yardım diləyirik. Şəhadət veririk ki, Ondan başqa məbud yoxdur, Məhəmməd (s) onun bəndəsidir, Rəsuludur...***

*Hz. İmam Əli (ə),"Nəhcül-bəlağə"dən.*

*Hörmətli oxucular! Sizdən xahişimiz kitabda diqqətimizdən yayınmış nöqsanları, həmçinin öz irad və təkliflərinizi bizimlə bölüşməyinizdir. Növbəti kitabda görüşmək ümidi ilə...*

**"Parlayan Günəş"**
www.sonumid.com
sonumid@sonumid.com
070 2595972 / 050 4965972

## Qeyd üçün:

NİŞANƏLƏRLƏ
# ALLAHI TANIMA

**Ayətullah İbrahim Əmini**

Çapa imzalanmışdır: 08.03.2010
Nəşrin ölçüsü: 60x90 1/16
Fiziki çap vərəqi: 10,0
Sifariş: 26. Sayı: 2000 ədəd
Müqavilə qiyməti ilə

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com